Altıncı çağırış

# AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİ İCLASLARININ

# PROTOKOLLARI VƏ STENOQRAMLARI

On beşinci sessiya
Yaz

63-cü cild

5 mart 2024-cü il

Milli Məclisin nəşri
Bakı – 2024

Milli Məclis Aparatının
Redaksiya və nəşr işləri şöbəsində
hazırlanmışdır

**ALTINCI ÇAĞIRIŞ**
**AZƏRBAYCAN RESPUBLİKASI**
**MİLLİ MƏCLİSİNİN**
**XV SESSİYASI İCLASININ**

# PROTOKOLU № 161

*Milli Məclisin iclas salonu.*
*5 mart 2024-cü il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 109 deputatı iştirak etmişdir.**

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
| İştirak edir | 97 |
| Yetərsay | 83 |

**İclasa dəvət olunmuşlar:**

**Səbinə Əliyeva**, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman).

**Aydın Səfixanlı**, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) Aparatının rəhbəri.

**Mehman Əmirəliyev**, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) Aparatının şöbə müdiri.

**Aytən Tarverdiyeva**, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) Aparatının sektor müdiri.

**Tahirə Rəhimova**, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) Aparatının böyük məsləhətçisi.

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. "Azərbaycan Respublikası Milli Məclisinin parlamentlərarası əlaqələr üzrə işçi qruplarının rəhbərlərinin seçilməsi haqqında" Azərbaycan Respublikası Milli Məclisinin Qərarında dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Milli Məclisinin qərarının layihəsi.

2. Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) 2023-cü ildə ölkədə insan hüquqlarının qorunması haqqında illik məruzəsi.

3. "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" və "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Konstitusiya qanununun layihəsi (birinci oxunuş).

4. "Media haqqında" Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli 471-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

5. "Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatı arasında Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü Sessiyasının 2026-cı ildə Bakı şəhərində keçirilməsi üçün Ev Sahibi Ölkəyə dair Saziş"in təsdiq edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi.

6. Abşeron rayonunun inzibati ərazi bölgüsündə qismən dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi.

7. "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 5 may tarixli 523-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.

8. "Bələdiyyələrin birgə fəaliyyəti, birləşməsi, ayrılması və ləğv edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

9. "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

10. "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

11. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində və "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

12. Azərbaycan Respublikasının 1994-cü il 8 fevral 782 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Konsul Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

13. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

14. "Su təchizatı və tullantı suları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

15. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

16. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

17. "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**Gündəlik haqqında.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Zahid Oruc, Məlahət İbrahimqızı, Etibar Əliyev, Elşən Musayev, Fəzail Ağamalı, Tural Gəncəliyev, Sahib Alıyev, Tahir Rzayev, Bəhruz Məhərrəmov, Kamal Cəfərov

**Təklif:** Gündəlik qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.03 dəq.) |
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |

| | |
|---|---|
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

**1. "Azərbaycan Respublikası Milli Məclisinin parlamentlərarası əlaqələr üzrə işçi qruplarının rəhbərlərinin seçilməsi haqqında" Azərbaycan Respublikası Milli Məclisinin Qərarında dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Milli Məclisi qərarının layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Səməd Seyidov

| | |
|---|---|
| **Təklif:** Qərar qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 11.38 dəq.) |
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

**2. Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) 2023-cü ildə ölkədə insan hüquqlarının qorunması haqqında illik məruzəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Səbinə Əliyeva, Zahid Oruc, Vüqar Bayramov, Qüdrət Həsənquliyev, Əli Məsimli, Kamal Cəfərov, Azay Quliyev, Bəxtiyar Əliyev, Aqiyə Naxçıvanlı

| | |
|---|---|
| **Təklif:** Qərar qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 12.43 dəq.) |
| Lehinə | 97 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**3. "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" və "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Konstitusiya qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.02 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |

Nəticə: Qəbul edildi

**4. "Media haqqında" Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli 471-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Fəzail İbrahimli, Ziyafət Əsgərov, Ülviyyə Həmzəyeva, Məlahət İbrahimqızı, Əli Məsimli, Azay Quliyev, Sahib Alıyev, Hikmət Məmmədov, Sabir Rüstəmxanlı, Əli Hüseynli

| | |
|---|---|
| **Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 13.03 dəq.) |
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

**5. "Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatı arasında Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü Sessiyasının 2026-cı ildə Bakı şəhərində keçirilməsi üçün Ev Sahibi Ölkəyə dair Saziş"in təsdiq edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Cavanşir Feyziyev, Səməd Seyidov, Qüdrət Həsənquliyev, Aydın Hüseynov, Məlahət İbrahimqızı, Vüqar Bayramov

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 13.22 dəq.) |
| Lehinə | 96 |
| Əleyhinə | 1 |
| Bitərəf | 1 |
| Səs vermədi | 1 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

**6. Abşeron rayonunun inzibati ərazi bölgüsündə qismən dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Siyavuş Novruzov, Fəzail Ağamalı, Razi Nurullayev, Hikmət Məmmədov, İsa Həbibbəyli

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.39 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**7. "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 5 may tarixli 523-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Rzayev, Məlahət İbrahimqızı, Əli Hüseynli, Əli Məsimli, Əhliman Əmiraslanov, Ziyafət Əsgərov, Sadiq Qurbanov, Zahid Oruc, Hicran Hüseynova, Ülviyyə Həmzəyeva

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.44 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |

Nəticə: Qəbul edildi

**8. “Bələdiyyələrin birgə fəaliyyəti, birləşməsi, ayrılması və ləğv edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Siyavuş Novruzov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.52 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 91 |

Nəticə: Qəbul edildi

**9. “Bələdiyyələrin statusu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.53 dəq.) |
|---|---|
| Lehinə | 82 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 86 |

Nəticə: Qəbul edildi

**10. "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Məsimli

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.55 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |

Nəticə: Qəbul edildi

**11. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində və "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli, Hicran Hüseynova, Bəhruz Məhərrəmov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.57 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.57 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 92 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.58 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |

Nəticə: Qəbul edildi

**Təklif:** 3-cü maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.58 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.58 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**12. Azərbaycan Respublikasının 1994-cü il 8 fevral 782 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Konsul Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Səməd Seyidov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.59 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 14.00 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 14.00 dəq.) |
|---|---|
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 88 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 14.01 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**13. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Bəhruz Məhərrəmov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 14.02 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 14.02 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 91 |

Nəticə: Qəbul edildi

| | |
|---|---|
| **Təklif:** 2-ci maddə qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 14.02 dəq.) |
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

| | |
|---|---|
| **Təklif:** 3-cü maddə qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 14.03 dəq.) |
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

| | |
|---|---|
| **Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 14.03 dəq.) |
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

**14. "Su təchizatı və tullantı suları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Sadiq Qurbanov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 14.05 dəq.) |
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1–4-cü maddələr qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 14.06 dəq.) |
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**Təklif:** 5–7-ci maddələr qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 14.06 dəq.) |
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 14.06 dəq.) |
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**15. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 14.07 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 14.08 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 14.08 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 14.09 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**16. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Kamal Cəfərov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 14.09 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci və 2-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 14.10 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 3 |
| Bitərəf | 1 |
| Səs vermədi | 1 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**Təklif:** 3-cü və 4-cü maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 14.10 dəq.) |
|---|---|
| Lehinə | 89 |

| | |
|---|---|
| Əleyhinə | 2 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 14.11 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 2 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**17. "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 14.12 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 14.13 dəq.) |
|---|---|
| Lehinə | 94 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 14.13 dəq.) |
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 14.13 dəq.) |
| Lehinə | 94 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**Azərbaycan Respublikası**
**Milli Məclisinin sədri** **Sahibə Qafarova**

# *MİLLİ MƏCLİSİN İCLASI*

*5 mart 2024-cü il. Saat 11.*

*Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik edir*

**Sədrlik edən.** Hörmətli həmkarlar, hörmətli media nümayəndələri, hörmətli qonaqlar, hamınızı xoş gördük!

Hörmətli həmkarlar, xahiş edirəm, qeydiyyatdan keçin. Buyurun.

| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
|---|---|
| İştirak edir | 97 |
| Yetərsay | 83 |

Çox sağ olun, yetərsay var, iclasa başlaya bilərik.

Hörmətli həmkarlar! Bildiyiniz kimi, fevralın 20-dən 24-dək Milli Məclis Asiya Parlament Assambleyasının tədbirlərinə ev sahibliyi etmişdir. Məlumat üçün bildirim ki, Asiya Parlament Assambleyası 2006-cı ildə yaradılmışdır və öz sıralarında 43 üzv parlamenti və 31 müşahidəçini birləşdirir.

Assambleyanın İcra Şurasının iclasında və 14-cü plenar sessiyasında iştirak etmək üçün 26 ölkənin və 9 beynəlxalq təşkilatın 300 nəfər təmsilçisi, o cümlədən 9 nəfər parlament sədri və 5 nəfər sədr müavini Bakıya gəlmişdilər. Sessiyada "Asiyada dayanıqlı inkişaf naminə regional əməkdaşlığın möhkəmləndirilməsi" mövzusunda müzakirələr aparılmışdır. Tədbirin sonunda isə Bakı Bəyannaməsi qəbul edilmişdir.

Hörmətli həmkarlar! Təşkilatın 14-cü plenar sessiyasının ölkəmiz üçün ən mühüm yekunlarından biri bu olmuşdur ki, 2024–2025-ci illər üçün Asiya Parlament Assambleyasına sədrlik Azərbaycan Respublikasına təhvil verilmişdir. Əlbəttə, bu hadisə Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin həyata keçirdiyi xarici siyasət xəttinin növbəti uğuru kimi dəyərləndirilməlidir.

Hörmətli həmkarlar! Sessiya çərçivəsində bir sıra mühüm ikitərəfli görüşlər də keçirilmişdir. Qeyd edim ki, bir neçə beynəlxalq parlament təşkilatının rəhbərləri, Türkiyə, Tacikistan, İraq, Bəhreyn, Oman, Birləşmiş Ərəb Əmirlikləri, Qətər, Tayland, Maldiv və Şri-Lanka parlamentlərinin sədrləri ilə mənim görüşlərim də olmuşdur.

Hörmətli həmkarlar! Mən bu mötəbər beynəlxalq toplantının yüksək səviyyədə təşkilində əməyi keçən hər bir kəsə dərin minnətdarlığımı bildirirəm.

İndi isə, hörmətli həmkarlar, gündəliyə münasibət bildirək. Gündəlik sizə paylanıb. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.03 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 1 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Gündəlik qəbul edildi.

Hörmətli həmkarlar, 30 dəqiqəmiz var. Gündəlikdə, ya da gündəmdə olan məsələlər üzrə 10 nəfər çıxış edə bilər. Buyurun, yazılın. 10-cu Kamal Cəfərovun çıxışıdır. Zahid Oruc. Buyurun.

**Z.Oruc**. Dövlət başçısının şərəf və ləyaqətini qoruyan qanunvericilik sistemi işləmir. Biz hər gün müxtəlif informasiya şəbəkələrində Prezident və ailəsi əleyhinə sistemli hücumların şahidi oluruq. Xalqın müdafiəsini və təhlükəsizliyini hifz eləyən, o cümlədən Silahlı Qüvvələrin Ali Baş Komandanına qarşı informasiya terroru, şər və böhtan kampaniyası aparılır. Birinci şəxsin səbrini sınağa çəkərək onu quruculuq ideallarından və humanist duyğularından çıxarıb emosional qərarlara çəkmək istəyirlər. Mərkəzi Kəşfiyyat İdarəsinin sənədlərində deyildiyi kimi, lidersizləşdirmə, dövlətsizləşdirmə planı ilə Prezidentə hücum eləyənlər, əslində, ölkəyə silahlı xarici təcavüzçülərdən heç nə ilə fərqlənmirlər. Millətin vahidliyi, ərazi bütövlüyü və suverenliyi, qələbəmizin simvolu olan şəxsi ləkələməyə çalışmaq Prezidentə səs verən milyonlarca insanın etimadını və ideallarını aşağılamaq deməkdir. Dövlət başçısının mənəvi zirehi yarılırsa, demək, sadə vətəndaşlar tam müdafiəsizdir.

Avropa Birliyi ölkələrinin əksəriyyətində dövlət başçısının təhqir edilməsi qanunla cəzalandırılır. İtaliya, İspaniya, Almaniya, Polşa və digərlərində buna görə müxtəlif növ cinayət məsuliyyəti mövcuddur. Amerikada Prezidenti söymək azadlığından danışanlar orada hüquqi cəmiyyət

və vətəndaş məsuliyyətinin yuxarı olduğunu unudurlar. Ölkə rəhbərini daim hədəf seçənlərin əsas təhqir coğrafiyası Avropadır və onlar müxtəlif qruplara bölünürlər. Amerika kəşfiyyatına bağlılığı şübhə doğurmayan OCCRP və digər saxta media məxfi xidmət şəbəkəsi prosesin önündə gedir. Onların yaydıqları "4P" proqramı, "Peqasus", "Panama", "Pandora" və "Paradise" sənədlərinin küfr və cəfəngiyat olduğunu təmsil etdiyi mərkəz sənədlərlə sübut eləyir.

Dövlət başçısını müxtəlif xarici siyasət qərarlarından döndərməklə, vətəndaş qruplarını onun üstünə qaldırmaqla, cəmiyyətdə parçalanmaya nail olmaqla siyasi çevrilişləri həyata keçirmək ən ümdə məqsədləri təşkil edir. İkinci qrupda erməni lobbi mərkəzləri, Boqosyan-Qlüksman cütlüyü və Qarabağın zəngin sərvətlərini uzun illər sümürən xarici şirkətlər, onların Avroparlamentdə, Avroşuradakı siyasi lobbiçiləri dayanır. Belə hücumlarla ölkəmizin sərvətlərini və imtiyazlı neft-qaz, yaxud qiymətli əlvan metal kontraktlarını qazanmağı düşünürlər.

Nəhayət, ölkə rəhbərinin kölgəsinə daş atan digər bir dəstə aşağı muzdlu məişət tüfeyliləri, ayaqlarına və beyinlərinə nəzarət çipləri bağlanmış, hər gün səhərdən axşamadək cılız tezislərlə təlimatlandırılan mühacirlər, Osmanqızı və digər birnəfərlik şər kanallarıdır. Onların çörəyi "YouTube" və digər şəbəkələrdə baxış sayını artırmaqdan çıxır. Biz beynəlxalq qanunvericilik çərçivəsində ən azı sonuncu qrup təmsilçiləri məsuliyyətə cəlb etmək mexanizmlərini gücləndirməliyik. 1951-ci ildə qəbul olunan Qaçqınların statusu haqqında Konvensiya o adamların immuniteti ola bilməz. Əgər Prezidentin şərəf və ləyaqətini qorumaq üçün məhkəmə və hüquq orqanlarının mexanizmi nəticə vermirsə, onda təhqir laboratoriyaları

legitim hədəflər kimi hər cür zərərsizləşdirməyə açıq elan olunmalıdır. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Məlahət İbrahimqızı. Buyurun.

**M.İbrahimqızı**. Təşəkkür edirəm, xanım sədr. Açılışda söylədiyiniz kimi, Sizi ölkəmizdə parlamentin adına yazılacaq uğurlara, eləcə də parlament diplomatiyası ilə bağlı əldə olunan nailiyyətlərə görə təbrik edirəm. Həqiqətən də, son illərdə bu istiqamətdə çox təqdirəlayiq işlər görülüb.

Hörmətli Sahibə xanım, hörmətli həmkarlarım, 7 fevral, təbii ki, Azərbaycanın çağdaş tarixinə qızıl hərflərlə yazılacaqdır. Eyni zamanda, fevralın 14-də möhtərəm Prezidentimizin andiçmə mərasimində parlaq çıxışı Azərbaycanda hər kəs üçün, eləcə də biz millət vəkilləri üçün uzun illər gələcəyimizin yol xəritəsi oldu. Bizə bütün sahələr üzrə çox ciddi və konkret yol, mesajlar göndərildi. O cümlələrin, o fikirlərin hər biri gələcək fəaliyyətimizdə işıq, nur olacaqdır.

Ən önəmli mesajlardan biri də "Bizim ailəmiz türk dünyasıdır" mesajıdır. Bu istiqamətdə həm parlament səviyyəsində, həm ikitərəfli, həm də çoxtərəfli formatda Sizin gördüyünüz işlər ictimaiyyət tərəfindən təqdir olunur. Möhtərəm Prezidentimizin türk dünyasına, könül coğrafiyamıza verdiyi töhfələr cəmiyyətdə çox yüksək səviyyədə qiymətləndirilir.

Mən müvafiq aidiyyəti qurumlara müraciət etmək istəyərdim. Bu il ölkəmizdə, ümumiyyətlə, türk dünyasında Bakının işğaldan azad olunmasında misilsiz xidmətləri olan Nuru Paşanın ölümünün 75-ci ildönümü, doğumunun isə 135-ci ildönümüdür. Minnətdarlıqla deməliyik ki, möhtərəm Prezidentimizin rəhbərliyi ilə 2018-ci ildə Bakının işğaldan azad olunmasının 100 illiyinə həsr olunmuş möhtəşəm bir parad təşkil edilmişdi, qardaş Türkiyənin

dövlət başçısı Rəcəb Tayib Ərdoğan da iştirak edirdi. Bu, bütövlükdə, o dövrdə Bakını işğaldan azad edənlərə, Azərbaycanı erməni daşnaklarının işğalından qurtaranlara göstərilən ən böyük ehtiram idi. Bu gün artıq zaman gəlibdir ki, Bakının görkəmli yerlərindən birində Nuru Paşanın abidəsi ucaldılsın, adı əbədiləşdirilsin, hansı isə küçəyə verilsin. Mən bu çıxışımla Sizdən də xahiş edərdim ki, nüfuzunuzla müvafiq qurumlara müraciət olunsun, Nuru Paşanın tezliklə adının əbədiləşdirilməsi ilə bağlı konkret işlər görülsün. Çox sağ olun, təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Məlahət xanım. Etibar Əliyev. Buyurun.

**E.Əliyev**. Təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli deputatlar, "Bizim başqa ailəmiz yoxdur, bizim ailəmiz türk dünyasıdır" – bu dəyərli fikri cənab Prezident İlham Əliyev andiçmə mərasimində söylədi. Daha bir son dərəcə faydalı layihə gerçəkləşdi. Türkiyə-Azərbaycan Universitetinin yaradılması istiqamətində iki ölkə arasında Anlaşma Memorandumu imzalandı. Əvvəlcədən hər şey düzgün ölçülüb-biçilmişdi. Universitet ilkin mərhələdə səhiyyə, mühəndislik və informatika sahələrində fəaliyyət göstərəcək, növbəti tədris ilində isə ilk tələbələrini qəbul edəcək. Bu, tam yeni nəsil universitet olacaqdır.

1991-ci ildə yaradılmış Qazax-Türk Universiteti QS dünya universitetlərinin reytinqində bu il 714-cü yeri tutaraq 1000 ən yaxşı universitet sırasına daxil olub. 1997-ci ildə yaradılmış Qırğızıstan-Türkiyə Universiteti isə bu il QS reytinqində 801-ci yeri tutmuşdur. Beləliklə, presedentlər var və indi növbə bizimdir. İki qardaş xalq olaraq dördüncü sənaye inqilabının önündə getməliyik və bu paradiqmanın drayveri, əlbəttə ki, universitetlərdir. Universitetlər yeganə təsisatdır ki, onların yaradılması və

inkişafı üçün filantropların yardımı yüksək dəyərləndirilir. ABŞ və Qərb universitetləri inkişaf yoluna belə qədəm qoyublar. Bu baxımdan Qarabağ Universitetinə və Türkiyə-Azərbaycan Universitetinə xeyriyyəçilərin və filantropların dəstəyinə olduqca böyük ehtiyac vardır.

Türkiyə-Azərbaycan Universiteti ilə yanaşı, yüksək texniki peşə təhsili məktəbinin yaradılmasına da ehtiyac vardır. Düşünürəm ki, bu həm də peşə təhsili sahəsində böyük canlanma yarada bilər. Gəlin, etiraf edək ki, Azərbaycanda peşə təhsilinin kurikulumları çağımızın tələblərinə bir o qədər cavab vermir. Yeni nəsil universitet və yüksək texniki peşə təhsili məktəbinin yaradılması həm də sənaye ilə əlaqələri müştərək şəkildə genişləndirəcəkdir. Bilirik ki, qardaş Türkiyə ilk dəfə olaraq öz milli resursları hesabına peyk hazırlayıb və Türkiyənin Orta Doğu Texniki Universiteti bu layihədə yaxından iştirak etmişdir. Belə təcrübələr öyrənilməlidir.

Digər tərəfdən, xarici ölkələrin nüfuzlu universitetlərində çalışan alimlərimizin Türkiyə-Azərbaycan Universitetinin və Qarabağ Universitetinin qurulması və tədrisi prosesində iştirakı çox vacibdir. Dövlət sifarişi ilə dünyanın aparıcı universitetlərində təhsil alıb məzun olanların da prosesdə iştirakına böyük ehtiyac var. Dövlət babamızın onların təhsilinə böyük vəsaitlər xərclədiyini və onlara xüsusi qayğıları da biz bilirik. Bu baxımdan onların bu layihələrin həyata keçirilməsində fəaliyyətini təsdiqləmələri olduqca vacibdir. Bəli, biz zəfərimizi insan kapitalına çevirməliyik. Təşəkkür edirəm, sağ olun.

**Sədrlik edən.** Sağ olun. Elşən Musayev. Buyurun.

**E.Musayev.** Təşəkkür edirəm, xanım sədr. Hər kəsi salamlayıram. Mən bu gün Avropa Parlamentinin Azərbaycana qarşı qərəzi və qərəzli münasibəti haqqında danışmaq

istəyirəm. Hərçənd, "qərəz" sözü bir az yüngül ifadədir və belə desək, daha doğru olar. Azərbaycanın uğurları onu qısqananların başına, sözün gerçək anlamında, böyük bir daş salıb. Əvvəllər Avropa Şurası ilə başladılar, amma daş qayaya rast gəldi və beləcə, yalnız özlərini biabır elədilər. Sonradan Prezident seçkilərini hədəfə aldılar, hətta ATƏT-in müşahidəçi missiyasını və onların tərkibində bəzi missionerləri Azərbaycana ezam elədilər. Amma yenə nəticə hasil olmadı, çünki xalq İlham Əliyevə ciddi dəstək verdi.

İndi də Avropa Parlamenti hesabat hazırlayıb və söhbət o hesabatdan gedir ki, əsl riyakarlıq nümunəsidir. Hətta orta məktəb şagirdinin belə yazdığı inşadan daha aşağı səviyyədədir. Erməni kimi canini, işğalçını yenidən silahlandırmağı nəzərdə tutan absurd və rəzil cızmaqaradır, nəhayət, Xocalıda donub ölən, yandırılan uşaqları görməzdən keçərək, Xankəndidən rahat-rahat öz xoşu ilə çıxan ermənilərin dərdini çəkəcək qədər böyük bir nonsensi özündə ehtiva edən ədalətsiz bir sənəddir. Mən niyə bunlar haqqında cəmdə danışıram? Çünki onlar şəbəkədirlər və onların tezisləri də, əmrləri də eyni nöqtədən gəlir. Mən buradan həmin şəbəkənin başbilənlərinə, başçılarına müraciət etmək istəyirəm. Azərbaycanı yürütdüyü müstəqil və milli siyasətdən sapdırmaq, yayındırmaq istəyənin gərək üç başı olsun. Beləsi də hələ indiyə qədər dünyaya gəlməyib. Diqqətinizə görə minnətdaram.

**Sədrlik edən.** Sağ olun. Fəzail Ağamalı. Buyurun.

**F.Ağamalı**. Təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli həmkarlar. Azərbaycan məsuliyyətli və ciddi dövlət olaraq Cənubi Qafqazda sülhün, əməkdaşlığın və əmin-amanlığın qarantı kimi fəaliyyət göstərir və bu çağırışları durmadan önə çəkir. Bunun əksinə, Ermənistan

yenə də silahlanmağa güclü meyil göstərir, ən müxtəlif ölkələrin yanında yer almağa müxtəlif vasitələrlə nail olmağa çalışır. Bu günlərdə artıq Ermənistan Fransa–Yunanıstan–Ermənistan kimi bir alyans yaradaraq onlardan da silahlanmaq üçün istifadə etməyə çalışır. Faktiki olaraq Ermənistan hakimiyyətdə olanlardan başlamış onların adi vətəndaşlarına qədər revanşist əhval içərisində bu gün Azərbaycana qarşı müharibəyə hazırlaşmaqdadır.

Azərbaycan öz müstəqilliyi, suverenliyi, milli dövlətçiliyi və milli ləyaqəti uğrunda illərdir ki, mübarizə aparır və biz bu mübarizəni sonuna qədər gedəcəyik. Azərbaycan xalqı, Azərbaycan dövləti heç bir qüvvənin qarşısında təslim olmayacaq, heç bir qüvvənin qarşısında yuxarıda söylədiyim şərtlər çərçivəsindən çıxmayacaq. Belə olan vəziyyətdə Azərbaycan dövləti müvafiq qurumları ilə, təbii ki, lazımi addımlar atır. Mənə belə gəlir ki, biz xüsusi olaraq ciddi bir məsələni həyata keçirməliyik. Bu, Ermənistanın işğalında olan 8 kəndimizdir. Nə qədər ki Ermənistan geniş, düzgün şəkildə silahlanmayıb, biz orada hərbi əməliyyatlarımızı aparıb, nəhayət, o torpaqları da Azərbaycana birləşdirməliyik. Çünki hadisələrin gedişi, mənim düşüncəmə görə, heç də xoşagələn deyil. Ola bilsin ki, bizim mətbuatımız bu fikirləri önə çəkəcəkdir. Buradan cənublu soydaşlarımıza müraciət edərək deyirəm ki, Vətən müharibəsində olduğu kimi, indi də ən müxtəlif ölkələrdən İran vasitəsi ilə Ermənistana gələn silahların qarşısını almaq üçün fədakarlıqlarını göstərsinlər, iradələrini ortaya qoysunlar.

Bütövlükdə, Azərbaycanın bu gün aparmış olduğu siyasət sülhpərvər, bəşəri dəyərlərə söykənən siyasətdir və bu siyasət, heç şübhəsiz ki, nəticə etibarı ilə öz təntənəsini qazanacaq, qələbəsini əldə edəcəkdir. Çox sağ olun.

**Sədrlik edən.** Tural Gəncəliyev. Buyurun.

**T.Gəncəliyev**. Hörmətli xanım sədr, hörmətli həmkarlar. İlk olaraq, Sahibə xanım, Sizi və həmkarlarımızı ölkəmizdə keçirilmiş Asiya Parlament Assambleyasının müvəffəqiyyətlə başa çatması ilə bağlı ürəkdən təbrik edirəm. Son zamanlar Azərbaycan dünya səviyyəli mötəbər tədbirlərin keçirildiyi bir məkana çevrilmişdir. Ölkəmiz Qoşulmama Hərəkatı kimi mötəbər tədbirə ev sahibliyi etmişdir. Asiya Parlament Assambleyası, COP29 sessiyası – bunlar hamısı ölkəmizin nüfuzunun, beynəlxalq imicinin göstəricisidir. Məsələn, bəlkə də bunların nəticəsidir ki, bəzi elementlər, Avropada güc mərkəzləri, Fransa, Benilüks ölkələri ölkəmizə qarşı məkrli planlarını artırmışdılar. Cənab Prezidentin son çıxışlarının birində söylədiyi kimi, Cənubi Qafqazda ayırıcı xətlər çəkilir. Təbii ki, biz bu ayırıcı xətlərin olmasını istəmirik. Azərbaycan torpaqlarını işğaldan azad etdikdən sonra ədaləti bərpa etdi, Cənubi Qafqazı bir sülh, barış platformasına keçirmək istədi. Ancaq təəssüflər olsun ki, elə bir neçə gün bundan öncə Avropa Parlamentinin qəbul etdiyi həmin o məkrli, qərəzli qətnamə də bu ayırıcı xətlərin artırılmasına hesablanmışdır. Ümumiyyətlə, postmünaqişə dövründə münasibətlərin tənzimlənməsinə çox mane olur.

Avropa Parlamentinin həmin o sənədində qeyd edilən Ermənistanda “sivil” missiyanın – mülki missiyanın sayının çoxaldılması, həcminin artırılması məhz o ayırıcı xətlərə xidmət edir. Bilirsiniz, bu mənə vaxtilə münaqişə üzərindən parazitlik edən və münaqişənin dondurulmuş şəkildə qalması məsələsində özlərinə milyonlarca büdcə ayıran ATƏT-in bəzi institutlarını xatırlatdı. Vaxtilə “HLPG” deyilən o Yüksək Səviyyəli Planlaşdırma Qrupu, ATƏT-in Minsk qrupunun həmsədrliyi institutu, ATƏT-in

fəaliyyətdə olan sədri Anjey Kaspişikin şəxsi köməkçisi, bax bunlar hamısı vaxtilə milyonlarca avro alaraq münaqişənin məhz necə həll edilməməsi, dondurulması istiqamətində parazitliklə məşğul idilər. Hətta Avropa Parlamenti vaxtilə milyonlarca avro ayırırdı, beyin mərkəzləri formalaşdırırdılar, tədqiqatlar aparılırdı, doktorluq dissertasiyaları yazılırdı ki, münaqişə necə həll edilə bilməz. Təbii, Ali Baş Komandanımızın, ordumuzun, xalqımızın birgə hərəkəti nəticəsində biz həmin o planların hamısını alt-üst etdik.

İndi ölkəmiz yeni bir dövrə qədəm qoymuşdur. Həmkarlarımın vurğuladığı kimi, bizim bu addımlarımız həmin o Avropa institutlarını "pat" vəziyyətinə salmışdır. Təbii ki, biz artıq yeni bir güc mərkəzi kimi formalaşmalıyıq, formalaşırıq. Xüsusilə də Asiya Parlament Assambleyası kontekstində Türk Dövlətləri Təşkilatını, Qoşulmama Hərəkatını və İslam Əməkdaşlığı Təşkilatını misal göstərə bilərik ki, Azərbaycan bu prioritet sahələrdə öz nüfuzunu, öz beynəlxalq imicini daha da artıracaqdır. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Bəli, tamamilə düzdür. Onu da qeyd etmək lazımdır ki, Azərbaycan sülh istəyir, Azərbaycan sabitlik istəyir. Sahib Alıyev. Buyurun.

**S.Alıyev.** Hörmətli xanım sədr, dəyərli həmkarlar! Avropa Parlamentinin "Ümumi təhlükəsizlik və müdafiə siyasətinin həyata keçirilməsi" ilə əlaqədar illik hesabatı və onun ardınca baş verənlər haqda bir neçə kəlmə də mən danışmaq istərdim. Öncə deyim ki, Avropa Parlamentindəki islamofob ünsürlərin ölkəmizə qarşı sanksiya tələbləri, əslində, Azərbaycandan da çox xristianlıqlarını addımbaşı qabartdıqlarının, guya dəstəklədiklərinin əleyhinə işləyir, onların təcriddə qalmalarını daha da uzadır. Ölkəmizə gəldikdə, Cənub Qaz Dəhlizi və Yaşıl Enerji Məşvərət şuraları çərçivəsində martın 1-də Bakıda

keçirilən nazirlərin toplantıları göstərdi ki, Avropa Parlamentinin hesabatı nəinki Avropa Komissiyası üçün keçərli deyil, Fransanın indiki baş nazirini, "kiçik Makron" ayaması daşımağı tam haqq edən Borrel kimilərini çıxsaq, oradakıların əksəriyyətinin həmin sənədə yanaşmaları bizimkindən elə də çox fərqlənmir.

Məsələn, mən inanmıram ki, artıq ikinci dəfədir, Azərbaycanı Pan-Avropa qaz təchizatçısı adlandıran Avropa Birliyinin Energetika məsələləri üzrə komissarı xanım Kadri Simson Avropa Parlamentindəki makronabənzərlərin ölkəmizə qarşı sanksiya tələblərini bölüşsün. Özü də bilə-bilə ki, 2040-cı ilədək Avropa Birliyinin elektrik enerjisinə olan tələbatı 80 faizədək artacaq və onun təminində də yenə biz mühüm rol oynayacağıq. Yəni Azərbaycan elektrik enerjisi məsələsində də Pan-Avropa təchizatçısı olacaq ki, dünən cənab İlham Əliyevin qəbulunda olarkən Bolqarıstan parlamenti sədrinin bununla bağlı xahişi də dediyimizin bir növ təsdiqidir. Biz artıq görürük ki, Macarıstan və Rumıniyanın ardından Bolqarıstan da Azərbaycanın "yaşıl enerji"sini Avropaya çatdıracaq kabelə qoşulmaq istəyir və bununla bağlı xahiş müsbət həll olundu.

Bolqarıstandan da söz düşmüşkən, iki gün öncə Yunanıstanın xarici işlər naziri Azərbaycan qazının ora çatdırılmasında ölkəsinin oynadığı mühüm roldan danışırdı və onun açıqlamasından çıxan nəticə bu idi ki, bizimlə əməkdaşlıq onların enerji təhlükəsizliyini təmin edib.

Maraqlıdır, deyilmi? Yunanıstanın xarici işlər naziri Azərbaycanın ölkəsinin təhlükəsizliyinin təminində oynadığı mühüm roldan danışır, müdafiə naziri isə İrəvana təşrif gətirərək revanşizmə can atdığı onlara da sirr olmayan Ermənistanı silahlandırmaq üçün əllərindən gələni

edəcəklərini deyir və orada Fransa-Yunanıstan-Kipr-Ermənistan kvartetindən dəm vurulur. Görəsən, Afinadakılar fərqindədirlərmi ki, bu nankorluqları, yəni ermənistanlıq etməkləri cavabsız qalmayacaq və cavablardan da biri Türk Dövlətləri Təşkilatının iyulda Şuşada keçiriləcək zirvəsində olacaq? Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Tahir Rzayev. Buyurun.

**T.Rzayev**. Çox sağ olun, hörmətli sədr. Hörmətli deputatlar, bu gün Azərbaycan Avropanın enerji təminatında açar rolunu oynamaqdadır. Tərəfdaşları ilə birgə Xəzər dənizini Qara dəniz və Aralıq dənizi ilə birləşdirən neft-qaz kəməri çəkməklə dövlətimiz Avropanın enerji xəritəsini tamamilə dəyişdirmiş və beynəlxalq əməkdaşlığa geniş imkanlar yaratmışdır. Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində 2-ci iclasları zamanı cənab İlham Əliyev Azərbaycanın enerji potensialını və ümumilikdə, ölkəmizin iqtisadi imkanlarını bir daha dünyaya təqdim etdi.

Bu gün Azərbaycan dünyanın 8 ölkəsinə qaz nəql edir ki, onlardan 6-sı Avropa dövlətləridir. Azərbaycanın qaz ehtiyatları, "yaşıl enerji"yə keçid mühüm layihələrin həyata keçirilməsinə imkanlar yaradır və Avropa Azərbaycana, demək olar, möhtacdır. Çox təəssüflər olsun ki, Avropa Parlamentindəki deputatların çoxu, bəzi Avropa dövlətləri bunu hələ də dərk etmirlər. Avropa Parlamentində son günlər Azərbaycan əleyhinə aparılan geniş təbliğat kampaniyası aydın göstərir ki, bu qurum müəyyən dairələrin, başda Fransa olmaqla, Qərb dövlətlərinin əlində bir oyuncağa çevrilmişdir. Qəbul etdiyi əsassız qətnamələrlə, səsləndirilən saxta bəyanatlarla parlament tamamilə öz nüfuzunu itirmişdir. Ölkəmiz əleyhinə aparılan dinləmələr, qəbul olunan sənədlər qərəz və riyakarlıqdan başqa

bir şey deyildir və məlumdur ki, erməni lobbisinin maliyyəsinin nəticəsidir. Reallıqları, ədalətli mövqeyi əks etdirməyən bu sənədlərin heç bir təsiri ola bilməz və olmayacaqdır. Ancaq Avropa Parlamenti və bəzi dövlətlər bilməlidirlər ki, Avropa dövlətlərinin Azərbaycan qazına, neftinə möhtac olduğu indiki dövrdə onların riyakar hərəkətləri, çirkin əməlləri öz haqlarının, öz mənafelərinin ziddinədir, münasibətlərə kölgə salır və gələcəkdə Avropanı enerjisiz qoya bilər. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Bəhruz Məhərrəmov. Buyurun.

**B.Məhərrəmov**. Təşəkkür edirəm. Hörmətli sədr, əziz həmkarlar! Prezident İlham Əliyevin andiçmə mərasimində bəyan etdiyi yeni dövrün yol xəritəsi bir daha göstərir ki, mahiyyətcə fərqli bir dövrə qədəm qoymuşuq. Məqsədlərimiz genişlənib, dövlət olaraq yeni hədəflərimizlə daha böyük görünürük. Belə bir məqamda, bütövlükdə, region Azərbaycan Prezidenti ilə ayaqlaşmağa məhkumdur. Əgər Prezident bəyan edirsə ki, Ermənistan–Azərbaycan münasibətlərinin əhəmiyyətini süni şəkildə şişirtməyə ehtiyac yoxdur, bu, hər kəs üçün siqnal olmalıdır.

Bəli, biz Ermənistanla qonşuyuq, xarici siyasətimizin müəyyən istiqamətlərində bu amil nəzərə alınır, amma bütövlükdə, Ermənistan bizim xarici siyasətimizin vacib hissəsi deyil. Biz artıq məsələmizi həll etmişik. Bundan sonra sülh müqaviləsi qalır. Əldə olunacaq, yaxud olunmayacaq, bunu ermənilər daha çox düşünməlidir. Bütün bunların fonunda əgər bu gün Avropa Parlamenti heç bir hüquqi əsas olmadığı halda, Azərbaycan əleyhinə qətnamələr qəbul edirsə, yaxud bu gün Makron cənab İlham Əliyev qarşısında heç bir şansı olmadığını bilə-bilə Ermənistanı silahlandırırsa, vahid bir məqsəd var – erməni məsələsini gündəmdə saxlamaq. Amma göründüyü kimi,

cənab İlham Əliyev faktiki olaraq erməni məsələsini beynəlxalq gündəmdən çıxarmağı bacarıb. Ona görə də indi üzərimizə başqa məsələlərlə gəlməyə başlayıblar. Məsələn, iqlim dəyişiklikləri ilə mübarizə fonunda bizi neft-qaz ölkəsi olmaqda günahlandırırlar. Baxmayaraq ki, onlar iddialarında səmimi olsaydılar, bunu on illər əvvəl etməli idilər. Amma susurdular, çünki əmin idilər ki, Azərbaycanı da neft lənətinə düçar edəcəklər, bir sıra ərəb və Afrika ölkələrində olduğu kimi, Azərbaycanda da oxşar sistem qurub sərvətləri rahat talayacaqlar. Lakin cənab İlham Əliyev üç gün öncə "Euronews"a müsahibəsində də ifadə etdiyi kimi, nefti inkişafa çevirməyə, sərvətin ədalətli paylanmasını təmin etməyə nail oldu.

Bu gün isə Azərbaycan qazı inkişafın yeni mərhələsində önəmli rol oynayır. Amma bu dəfə həmin o qlobal güclər artıq daha yaxşı anlamağa başlayıblar ki, Azərbaycanda təbii sərvətlərin inkişafa transformasiyasının qarşısını almaq mümkün deyil, ona görə də bu gün biz təbii sərvətlərə malik olmaqda günahlandırılırıq. Əlbəttə, bu, bir qərəzdir. Cənab İlham Əliyev Bakıda Cənub Qaz Dəhlizi və Yaşıl Enerji Məşvərət şuraları iclasında da bildirmişdir: "Qazıntı yanacağına malik olan ölkələrin fəaliyyəti onların ətraf mühitin müdafiəsi, "yaşıl enerji"yə keçid məsələlərini necə həll etdikləri baxımından qiymətləndirilməlidir". Nəinki regionumuzda, bütövlükdə, neft-qaz hasilatı ilə məşğul olan heç bir dövlət "yaşıl enerji" məsələlərində Azərbaycandan daha həssas davranmır. Bu çirkab kampaniyaya rəhbərlik edən, 20-yə yaxın atom stansiyası ilə təhlükə saçan Fransadan fərqli olaraq Azərbaycanın beş milli prioritetindən biri "Yaşıl artım" ölkəsi olmaqdır. Dünya ictimaiyyəti də artıq reallıqların fərqindədir və COP29-un ev sahibliyinin Azərbaycana həvalə

edilməsi ölkəmizin bu istiqamətdə səylərinə verilən yüksək qiymətdir. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Sonuncu çıxış. Kamal Cəfərov. Buyurun.

**K.Cəfərov.** Çox sağ olun, hörmətli xanım sədr. Mən də Avropa Parlamenti tərəfindən Ümumi xarici və təhlükəsizlik siyasətinin həyata keçirilməsi haqqında illik hesabat üzrə qəbul edilmiş qətnaməyə öz münasibətimi bildirmək istəyirəm. Bu qətnamə Azərbaycana qarşı başladılmış total kampaniyanın tərkib hissəsidir. Qətnamədə Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə açıq hörmətsizlik nümayiş olunur. 2023-cü ildə həyata keçirdiyimiz lokal xarakterli antiterror tədbirləri ilə bağlı faktlar təhrif edilib, böhran xarakterli və tamamilə əsassız müddəalar təkcə Avropa Parlamentinin deyil, Avropa İttifaqının gələcək fəaliyyətinə dair əsaslı şübhələr yaradır. Avropa Parlamentinin deputatları müxtəlif dinləmələr zamanı Cənubi Qafqaz regionunda yeni münaqişə üçün açıq çağırışlar səsləndirdilər. Bütün bunlar bir daha təsdiq edir ki, Avropa Parlamentinin nümunəsində bəzi dövlətlər və institutlar regionda sülh istəmir. Onların istədiyi beynəlxalq hüquq və Avropa İttifaqının maraqları deyil, şəxsi maraqlar, yeni geosiyasi üstünlüklər əldə etməkdir. Bu qətnaməni qətiyyətlə pisləyir və rədd edirik. Bu cür siyasət bir daha göstərir ki, Qərbin məqsədi bu məsələni süni şəkildə şişirtmək və Azərbaycanı qarşısına qoyduğu xarici siyasət hədəflərindən yayındırmaqdır.

Azərbaycan Prezidenti cənab İlham Əliyev burada andiçmə mərasimində çıxış edərkən açıq şəkildə bəyan etmişdir ki, biz öz məsələmizi həll etmişik. Ermənistanla sülh müqaviləsinin imzalanmasının təşəbbüskarı da biz olmuşuq. Bu o deməkdir ki, Azərbaycan regionda real

sülh istəyir. Ancaq hazırda siyasi proseslər göstərir ki, nə Ermənistan rəhbərliyi yaxın tarixdən düzgün nəticə çıxarıb, nə də erməni xalqının kollektiv ağlı yoxdur ki, özlərini yeni geosiyasi oyunun aləti olmaqdan qoruya bilsin. Əgər Ermənistan buna hazır deyilsə, heç bir müqavilə imzalanmayacaq. Bu məsələ ilə bağlı şişirdilmiş gündəliklər və məsələlər bizim üçün prioritet deyil.

Bu gün Azərbaycanın xarici siyasətinin yeni üfüqləri iqlim dəyişikliyidir, islamofobiya və reakalizmə qarşı mübarizədir. Biz fəaliyyətimizi öz gündəliyimizə uyğun qurmuşuq. Heç bir cəhd, təxribat buna mane ola bilməyəcək. Bizə qarşı atılmış addımlara da həmişə adekvat reaksiyalar vermişik, veririk və bundan sonra da verəcəyik. Onlar bilsinlər ki, qarşılarındakı 32 il bundan əvvəlki Azərbaycan deyil. Bu gün Azərbaycan tarixdə olmadığı qədər güclü və müstəqildir. Bu gün Azərbaycanın İlham Əliyev kimi müzəffər lideri, müdrik xalqı var. Əgər Qafqazda real sülh bərqərar olacaqsa, buna da məhz İlham Əliyevin iradəsi ilə nail olunacaq. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, mən hamıya təşəkkür edirəm. Biz gündəliyin məsələlərinə keçirik. Qeyd edim ki, bu gün biz 17 məsələni müzakirə etməliyik. Gündəliyin ilk 2 məsələsi Milli Məclisin qərar layihələridir. Beləliklə, 1-ci məsələyə keçirik. Milli Məclisin parlamentlərarası əlaqələr üzrə işçi qruplarının rəhbərliyində dəyişiklik edilməsi nəzərdə tutulur və bununla bağlı qərar layihəsi müzakirəyə təqdim olunur. Məsələyə dair məlumat vermək üçün mən Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri hörmətli Səməd Seyidova söz verirəm. Səməd müəllim, buyurun.

**S.Seyidov**, *Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri.*

Hörmətli xanım sədr, hörmətli həmkarlar, müzakirəyə təqdim olunmuş qərar layihəsi çox əhəmiyyətlidir, çox vacibdir. Mən fürsətdən istifadə edərək, Sahibə xanım, Sizin rəhbərliyiniz altında son illər parlamentimizin beynəlxalq münasibətlər istiqamətində əldə etdiyi uğurları xüsusi vurğulayaraq iki kəlmə söz demək istəyirəm. Misal üçün, 2022–2023-cü illərdə Azərbaycan parlamenti 20-yə yaxın yeni dostluq qrupu yaratmışdır. Bu, Azərbaycan parlamentinin apardığı diplomatik iş çərçivəsində böyük bir nailiyyətdir. Bu gün gözəl söhbətlər aparıldı və mən o söhbətlərin canlı şahidiyəm. Asiya Parlament Assambleyasında cənab Prezidentin tapşırıqlarını yerinə yetirərək Azərbaycan parlamenti tərəfindən nə dərəcədə böyük işlər həyata keçirilmişdir.

Bu gün burada çox yüksək səviyyədə qeyd edildi, Azərbaycan elə bir gücə, elə bir təsirə malikdir ki, onun coğrafiyası həddindən artıq genişdir. Biz maraqlı bir prosesi müşahidə edirik. Burada Avropa Parlamenti ilə bağlı, ümumiyyətlə, Avropada gedən proseslərlə bağlı qeyd olundu. Cənab Prezident dəfələrlə bunu deyib və burada da çox gözəl və yüksək səviyyədə qeyd olundu. Təəssüflər olsun, Avropanın içərisində bu ikili standartlar ilk öncə Avropanın özünü dağıdır. Baxın, Avropa Birliyi komissarını bura göndərir, ən yüksək səviyyədə iclas keçirilir, Azərbaycanın rolu ən yüksək səviyyədə vurğulanır. Eyni təşkilatın parlament qurumu bir gün öncə Azərbaycana qarşı ədalətsiz, qərəzli, yalanla, böhtanla dolu qərar qəbul edir. Almaniya kansleri Azərbaycanı dəvət edir, Azərbaycan xarici işlər naziri ilə söhbət aparır, Azərbaycanın əhəmiyyəti haqqında danışır. Kanslerin

rəhbərlik etdiyi partiyanın üzvü Avropa Şurasında Azərbaycana qarşı böhtan, yalan söyləyir və birbaşa partiya üzvü kimi özünü təmsil edərək hərəkət edir. Avropa Şurasının Parlament Assambleyası Azərbaycana qarşı ədalətsiz qərar qəbul edir və indi də o qərarın altından çıxmağa imkan, yol axtarır. Bir neçə gün sonra həmin təşkilatın Baş katibi cənab Prezidenti Prezident seçkiləri ilə əlaqədar təbrik edir. Bu nəyə dəlalət edir?

Avropa daxilində böyük böhran yaşanır. Bu, ikili standartlar böhranıdır. Bu nöqteyi-nəzərdən Azərbaycanın xarici siyasətinin coğrafiyasının genişləndirilməsi ən mühüm, ən vacib məsələdir. Bu gün Azərbaycan Qoşulmama Hərəkatında ən aparıcı rollardan birini oynayaraq, Asiya Parlament Assambleyasına sədrlik edərək, özünü Qərblə Şərq arasında faktiki bir körpüyə çevirərək, yüksək səviyyəli bir ölkə kimi təqdim edərək bu suallara cavab verir.

Sahibə xanım, bu nöqteyi-nəzərdən mən qeyd etdim, biz dostluq qruplarını genişləndiririk, yaradırıq. Bu gün də müzakirəyə təqdim olunan Filippin Respublikası ilə dostluq qrupunun yaradılması, hesab edirəm ki, çox vacib, çox əhəmiyyətli bir məsələdir. 300 milyona yaxın insanın yaşadığı bir ölkədir. Filippin Respublikasının parlamenti iki palatadan ibarətdir. Nümayəndələr Palatası və Konqres. Nümayəndələr Palatasında artıq Azərbaycanla bağlı dostluq qrupunun yaradılması qərarı qəbul edilmişdir. Nəzərdən çıxarmaq lazım deyil ki, bu regionda təxminən 80-85 faiz katolik-xristian dininə riayət edən insanlardır. Onlar Azərbaycanla münasibətləri qurmaq, əlaqələri genişləndirmək fikrinə birbaşa öz münasibətlərini bildiriblər. Bu nöqteyi-nəzərdən komitəmiz bu qanun layihəsini nəzərdən keçirərək növbəti dostluq qrupunun yaradılması ilə bağlı öz müsbət fikrini bildirmişdir.

Sevindirici haldır ki, bu qrupa rəhbərlik etmək üçün təklif olunan həmkarımız Cəfərov Müşfiq Cəfər oğlu çox layiqli, bacarıqlı, gənc, özünü artıq doğrultmuş, dilləri bilən, münasibətləri çox yüksək səviyyədə təşkil edən, təşkilatçılıq qabiliyyətinə malik olan bir dostumuzdur və Azərbaycanın layiqli təmsilçisidir. Ona görə, hörmətli həmkarlar, bu qanun layihəsini səsə qoyub, dəstək verməyinizi xahiş edirəm. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Səməd müəllim. Hörmətli həmkarlar, əgər başqa fikir yoxdursa, mən məsələni səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.38 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qərar qəbul edildi.

Hörmətli həmkarlar, 2-ci məsələyə keçirik. Qanunvericiliyə uyğun olaraq, parlamentdə Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) 2023-cü ildə ölkədə insan hüquqlarının qorunması haqqında illik məruzəsi dinləniləcək. Məsələ ilə əlaqədar olaraq İnsan hüquqları üzrə müvəkkil hörmətli Səbinə xanım Əliyeva, Ombudsman Aparatının rəhbəri Aydın Səfixanlı, şöbə müdiri Mehman Əmirəliyev, sektor müdiri Aytən Tarverdiyeva və böyük məsləhətçi Tahirə xanım Rəhimova da iclasımızda iştirak edirlər. Sizin hamınızı bir daha salamlayıram. İllik məruzəni təqdim etmək üçün, Sə-

binə xanım, mən Sizi kürsüyə dəvət edirəm. Buyurun.

**S.Əliyeva**, *Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman).*

Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, hər birinizi salamlayır və ombudsmanın Azərbaycan Respublikasında insan hüquqlarının qorunması haqqında 2023-cü il üzrə məruzəsini qısa olaraq diqqətinizə çatdırmaq istərdim.

Sevindirici haldır ki, Azərbaycanın gələcəyinə böyük inamla baxan qədirbilən xalqımız, o cümlədən 30 ildən sonra doğma ata-baba yurdları Qarabağa və Şərqi Zəngəzura qayıdan, işğaldan azad olunan ərazilərimizdə ilk dəfə səsvermədə iştirak edən vətəndaşlarımız fevralın 7-də keçirilmiş növbədənkənar Prezident seçkilərində böyük fəallıqla iştirak etmişdilər. Öz uğurlu siyasəti ilə ölkəmizin beynəlxalq hüquqla tanınan ərazi bütövlüyünün və suverenliyinin tam bərpa edilməsinə nail olan cənab İlham Əliyevi bir daha böyük səs çoxluğu ilə Azərbaycan Respublikasının Prezidenti seçən xalqımız növbəti dəfə öz müzəffər liderinə etimadını göstərmişdir.

Müşahidələrimizdən irəli gələrək qeyd etmək istərdim ki, respublikamızın bütün ərazisində, o cümlədən Qarabağ və Zəngəzurda seçkilərə hazırlıq və səsvermə prosesi ölkəmizin Konstitusiyasına, Seçki Məcəlləsinə və beynəlxalq standartlara uyğun olaraq, demokratik, ədalətli və şəffaf qaydada həyata keçirilmişdir.

Hüququn aliliyi prinsipinə və xalqın maraqlarına xidmət edən, dünya dövlətləri sırasında nüfuzu daim artmaqda olan və söz sahibinə çevrilən respublikamız insan hüquqlarının qorunmasına yönəlmiş bir sıra mühüm layihələrin təşəbbüskarı olmaqla bərabər, qlobal əhəmiyyətli tədbirlərə ev sahibliyi etmişdir.

İşğaldan azad edilmiş ərazilərdə davam etdirilən tikinti-

quruculuq işlərinin və reinteqrasiya prosesinin sürətlənməsi Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sosial-iqtisadi inkişafına və keçmiş məcburi köçkünlərin pozulmuş hüquq və azadlıqlarının bərpasına xidmət etməkdədir.

Respublikamızda həyata keçirilən irimiqyaslı layihələr və davamlı islahatlar vətəndaşların həyat səviyyəsinin daha da yaxşılaşmasına, aztəminatlı ailələrə və əhalinin həssas qruplarına qayğının artırılmasına, mövcud problemlərin həllinə dəstək olmaqla yanaşı, ümumilikdə, insan hüquq və azadlıqlarının səmərəli təmininə xidmət edir.

Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanımın bölgələrə silsilə səfərləri, yeni inşa edilmiş və ya əsaslı təmir olunmuş obyektlərin açılışında şəxsən iştirak etmələri, əhali təbəqələri və ictimaiyyət nümayəndələri ilə səmimi görüşləri xalqımız tərəfindən böyük məmnuniyyətlə qarşılanmışdır.

Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibəti ilə ölkəmizdə "Heydər Əliyev İli"nin elan edildiyi 2023-cü il əhəmiyyətli hadisələrlə zəngin olmuş, dahi şəxsiyyətlə bağlı milli və beynəlxalq səviyyəli tədbirlərin keçirilməsi ilə yadda qalmışdır. Ulu Öndərin hələ 1998-ci ildə imzaladığı "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" Fərmanı və təsdiq etdiyi "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı" ilə ölkəmizdə ilk dəfə insan hüquqlarının müdafiəsi sahəsində institusional islahatların əsası qoyulmuş, ombudsman institutu təsis edilmişdir.

İnsan hüquqları sahəsində həyata keçirilən bu mühüm islahatlar Prezident İlham Əliyev tərəfindən uğurla davam

etdirilmiş, insan hüquq və azadlıqlarının təmin edilməsi üzrə dövlətin ali məqsədinin həyata keçirilməsində müstəsna rolu olan ombudsmanın mandatının beynəlxalq standartlara uyğun genişləndirilməsi ilə bağlı əhəmiyyətli təşəbbüslər irəli sürülmüş, yeni fəaliyyət istiqamətləri müəyyən edilmişdir. Belə ki, "Ombudsman haqqında" Konstitusiya Qanununda dəyişikliklər edilməsi nəticəsində ombudsmanın "Əlilliyi olan şəxslərin hüquqları haqqında" və "Uşaq hüquqları haqqında" konvensiyaların həyata keçirilməsi, bərabərlik hüququnun təmin edilməsinin və ayrı-seçkiliyin qarşısının alınmasının monitorinqi və təşviqi üzrə müstəqil monitorinq mexanizmi funksiyalarının həyata keçirilməsi ilə bağlı səlahiyyətləri genişləndirilmişdir.

Dövlət qurumları, vətəndaş cəmiyyəti institutları, beynəlxalq təşkilatlar və xaricdəki həmkarları ilə səmərəli əməkdaşlıq şəraitində fəaliyyətini davam etdirən ombudsman il ərzində insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi və səmərəli təmini məqsədi ilə mövcud əlaqələrin gücləndirilməsi və imkanların genişləndirilməsi istiqamətində zəruri tədbirlər görmüşdür.

2023-cü ildə ombudsmanın ünvanına 29 min 411 müraciət daxil olmuşdur. Məlumat üçün qeyd edim ki, 2022-ci il ilə müqayisədə müraciətlərin sayı təxminən 10 faiz çoxalmışdır. Dövlət orqanları, bələdiyyələr, tabeliklərində olan hüquqi şəxslər, o cümlədən publik hüquqi şəxslər, büdcə təşkilatları, onların vəzifəli şəxsləri tərəfindən pozulan insan hüquq və azadlıqlarının bərpa edilməsi məqsədi ilə bu müraciətlərə Konstitusiya qanunu ilə müəyyən edilmiş qaydada baxılmış və müvafiq tədbirlər həyata keçirilmişdir. Müraciətlərin araşdırılması və təhlili təcrübəsi, habelə dövlət qurumları ilə əməkdaşlıq əlaqələri

bir sıra problemlərin operativ həllində, süründürməçiliyin və baş verə biləcək pozuntu hallarının qarşısının alınmasında, qanunvericiliyin təkmilləşdirilməsində əhəmiyyətli rol oynamışdır.

Qeyd olunmalıdır ki, ombudsmanın hər il olduğu kimi, növbəti ilin dövlət büdcəsi layihəsi üzrə Azərbaycan Respublikası Milli Məclisinin müvafiq komitələrinin iclaslarında aparılan müzakirələrdə iştirakı və irəli sürdüyü tövsiyələr, eyni zamanda, qanunların təkmilləşdirilməsi üzrə verdiyi təkliflər əməkdaşlıq baxımından böyük əhəmiyyət daşımaqla yanaşı, insan hüquqlarının təmin edilməsi sahəsində səmərəliliyin artırılmasına da xidmət etməkdədir.

Əhalinin həssas qruplarının, o cümlədən şəhid ailələrinin, müharibə iştirakçılarının, əlilliyi olan şəxslərin, ahıl, qadın və uşaqların, hərbi qulluqçuların, miqrant və məhkumların problemlərinin həlli məqsədi ilə ombudsman tərəfindən müvafiq dövlət qurumlarına təklif və tövsiyələrlə müraciətlər olunmuşdur.

Ailənin maddi-məişət şəraitinin müayinəsinin aparılması ilə bağlı müddətin müəyyən edilməməsinin süründürməçiliyə və şikayətlərə səbəb olduğunu nəzərə alaraq, Nazirlər Kabinetinin müvafiq qərarı ilə təsdiq olunmuş "Ünvanlı dövlət sosial yardımın alınması üçün müraciət edilməsi, onun təyin olunması, verilməsi və verilməsindən imtina edilməsi Qaydaları"na qeyd olunan müddətin müəyyən olunması ilə əlaqədar dəyişikliklər edilməsinə ehtiyac vardır.

İşçilərin əmək hüququnun etibarlı müdafiəsi məqsədi ilə müəssisə birləşmə, bölünmə və yaxud ayrılma formasında yenidən təşkil olunduqda və ya müəssisənin mülkiyyətçisi dəyişdikdə işçilərlə əmək müqaviləsinin

ləğv edilməsinin qadağan olunması zəruridir. Müddətli əmək müqaviləsi fasiləsiz olaraq davam etdiyi hallarda onun müddətsiz əmək müqaviləsi hesab edilməsi məqsədi ilə müəyyən edilmiş 5 ildən artıq müddətin 3 ilə endirilməsi ilə bağlı Əmək Məcəlləsinə dəyişikliklər edilməsi məqsədəmüvafiqdir.

Məktəbəqədər, orta və ali təhsil müəssisələrində qidanın təhlükəsizliyinə və rasionuna diqqət daha da artırılmalı, yetkinlik yaşına çatmayanlar üçün qəbul edilməsi qadağan olunan və ya məqsədəmüvafiq hesab edilməyən qida məhsullarının satışına nəzarət isə gücləndirilməlidir. Bu sahədəki çatışmazlıqların vaxtında aşkar edilməsi üçün müntəzəm olaraq planlı və plandankənar monitorinqlərin keçirilməsi də vacibdir.

Uşaqların, xüsusilə qızların təhsildən yayındırılması, erkən evlilik, cəmiyyətdə, ailədə və təhsil müəssisələrində uşaqlara qarşı baş verən zorakılıq halları ciddi narahatlıq doğurur. Bu halların qarşısının alınması məqsədi ilə valideyn və təhsil müəssisələri arasında əlaqələrin möhkəmləndirilməsi, aidiyyəti dövlət qurumlarının fəaliyyətinin əlaqələndirilməsi, qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində təxirəsalınmaz tədbirlər görülməlidir.

Uşaqlara qarşı zorakılığın mənfi nəticələri, zorakılığın yolverilməzliyi və ondan müdafiə mexanizmləri barədə maarifləndirmə tədbirlərinin gücləndirilməsinə, peşəkar və ixtisaslaşmış psixoloqlar cəlb edilməklə təhsil müəssisələrində mövcud psixoloq ştatlarının şagird sayına uyğun artırılmasına son dərəcə böyük ehtiyac vardır.

Narkotik asılılığından əziyyət çəkən yetkinlik yaşına çatmayan şəxslərin müalicəsinin təşkili məqsədi ilə ixtisaslaşdırılmış tibb müəssisələrində müvafiq şöbələrin yaradılması, narkoloji müalicə müəssisələrindəki sıxlığı və

müalicə gözləyən şəxslərin sayının çoxluğu nəzərə alınaraq, belə müəssisələrin sayının artırılması, narkomanlığa düçar olmuş şəxslərin müalicəsi və reabilitasiyası istiqamətində müasir üsulların tətbiq edilməsi üzrə tədbirlər görülməlidir.

Ötən əsrin ortalarından etibarən Bakı şəhərində, ətraf qəsəbə və kəndlərdə, o cümlədən keçmiş birgə təsərrüfatlara – sovxozlara məxsus ərazilərdə, müxtəlif şəxslər tərəfindən zəbt edilmiş torpaq sahələrində qanunsuz tikilmiş, habelə bələdiyyələr tərəfindən fərdi tikinti üçün verilmiş torpaq sahələrində inşa olunmuş evlərin dövlət qeydiyyatına alınması problemi də öz həllini tapmalıdır. Qeydiyyat probleminin həlli məqsədi ilə yaşayış yeri olmayan vətəndaşların Daxili İşlər Nazirliyinin şəxsiyyət vəsiqəsi verən müvafiq orqanının ünvanı üzrə qeydiyyatdan keçirilməsindən sonra yaranan riskli hallar nəzərə alınaraq Nazirlər Kabinetinin müvafiq sərəncamına dəyişikliklər edilməsi də olduqca vacibdir.

Doğum haqqında şəhadətnaməsi olmadığı üçün şəxsiyyət vəsiqəsi ala bilməyən və ya şəxsiyyət vəsiqəsi olmadığı üçün təkrar doğum haqqında şəhadətnamə ala bilməyən yetkinlik yaşına çatmış vətəndaşların bu sahədə hüquqlarının təmini məqsədi ilə müvafiq qanunvericilik aktlarına əlavə və dəyişikliklərin edilməsi zəruridir.

Şəxsin ölkədən çıxışına qoyulmuş məhdudiyyət barədə onun məlumatlandırılmaması, bununla bağlı məlumatın yalnız şəxsiyyət vəsiqəsinin və ya ümumvətəndaş pasportunun dəyişdirilməsi, yaxud da sərhədi keçərkən bildirilməsi digər hüquqların da məhdudlaşdırılmasına səbəb olur. Odur ki, ölkədən getmək və ölkəyə gəlmək hüququ məhdudlaşdırılan vətəndaşlar barədə məlumatların "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlu-

mat-axtarış sisteminə daxil edildiyi andan həmin vətəndaşlara bildirişin göndərilməsinin məcburiliyi ilə bağlı qanunvericiliyə müvafiq dəyişikliklər edilməlidir.

İnformasiya sahibinin tələb edilən məlumatı internet informasiya ehtiyatlarında açıqlamaması, informasiya sorğularına qanunvericiliklə müəyyən olunmuş müddətdə baxmaması, natamam məlumat verməsi və ya cavablandırılmasından əsassız imtina etməsi barədə şikayətlərlə bağlı səlahiyyətli qurumlara sorğular göndərilmiş, müraciətlər təmin olunmuşdur.

Hüquq və azadlıqların məhkəmə təminatı hüququnun daha etibarlı müdafiəsi məqsədi ilə Konstitusiya Məhkəməsi, Ali Məhkəmə, Məhkəmə-Hüquq Şurası və Ədliyyə Nazirliyi ilə yaradılmış səmərəli əməkdaşlıq əlaqələri şikayətlərin araşdırılmasında, mövcud problemlərin müəyyən edilməsində və operativ həllində əhəmiyyətli olmuşdur.

İddia ərizələrinin qəbul edilməməsi, vəsatətlərə baxılmaması, məhkəmə baxışı zamanı prosessual hüquq normalarının pozulması, bəzi hallarda işə baxılması müddətlərinin süni şəkildə uzadılması, məhkəmə qərarının surətinin işdə iştirak edən şəxslərə vaxtında göndərilməməsi, məhkəmə qərarlarının icraya yönəldilməməsi və ya icra olunmaması kimi şikayətlər üzrə də araşdırmalar aparılmış, pozulmuş hüquqların bərpası üzrə tədbirlər görülmüşdür. Bununla belə, məhkəmə qərarlarının icrası sahəsində çevikliyin və səmərəliliyin artırılması məqsədi ilə icra qurumları ilə aidiyyəti dövlət orqanları arasında koordinasiyanın təşkilinə, eləcə də məhkəmə qərarlarının icrasına inzibati və məhkəmə nəzarətinin gücləndirilməsinə də diqqət artırılmalıdır.

Ombudsmanın milli preventiv mexanizm mandatı çərçivəsində müvəqqəti saxlama yerləri, istintaq təcrid-

xanaları, cəzaçəkmə müəssisələri, qanunsuz miqrantların saxlanılması mərkəzləri, psixiatriya və dövlət uşaq müəssisələri də daxil olmaqla, ümumilikdə, ölkə üzrə şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrə 347 başçəkmə həyata keçirilmişdir. Başçəkmələr zamanı əvvəllər verilmiş tövsiyələrin icra vəziyyəti yoxlanılmış, ombudsmana ünvanlanan müraciətlər, saxlanılan şəxslərlə bağlı mediada və sosial şəbəkələrdə yayılmış məlumatlar, habelə bu şəxslərin hüquqlarının təmini vəziyyəti araşdırılmışdır. Həmin şəxslər saxlanıldıqları müəssisələrdə fərdi qaydada qəbul edilmiş, saxlanma şəraiti, rəftar, tibbi xidmətin təmini məsələləri araşdırılmış, hüquqları izah edilmiş, zəruri hallarda aidiyyəti dövlət qurumlarına müraciətlər ünvanlanmışdır.

Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində müxtəlif vaxtlarda törətdikləri sülh və insanlıq əleyhinə, müharibə, terrorçuluq və digər cinayət əməllərinə görə müəyyən edilərək saxlanılan, məhkəmə qərarı əsasında barələrində həbs qətimkan tədbiri seçilmiş ermənıəsilli təqsirləndirilən şəxslər də saxlanıldıqları müəssisələrdə qəbul edilmişdir. Onların saxlanma şəraiti, rəftar, tibbi xidmətin təmini məsələləri, müraciətləri araşdırılmış, öz dillərində hüquqlarının əks olunduğu materiallar təqdim olunmuş, eyni zamanda, ailə üzvləri ilə telefon danışığı hüquqları təmin edilmişdir.

Azərbaycanda həyata keçirilən humanizm siyasətinin məntiqi davamı olaraq məhkum edilmiş bir sıra şəxslərin Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyi münasibəti ilə əfv olunması haqqında ölkə Prezidentinin müvafiq sərəncamı məhkumlar və onların ailə üzvləri tərəfindən böyük sevinclə qarşılanmışdır. Qeyd etmək istərdim ki, ombudsmanın fəaliyyəti

dövründə onun vəsatəti ilə, ümumilikdə, 864, 2023-cü ildə isə 59 məhkum əfv edilmişdir.

Ölkəmizə qarşı yönələn qərəzli çağırışlara qarşı ombudsman tərəfindən dərhal reaksiyalar verilmiş, Ermənistanın azərbaycanlılara qarşı törətdiyi cinayətlər və beynəlxalq hüququn pozulması faktlarını özündə ehtiva edən, ümumilikdə, 18, 2023-cü ildə isə 3 geniş hesabat hazırlanaraq beynəlxalq təşkilatların diqqətinə təqdim olunmuşdur.

İtkin düşmüş azərbaycanlıların taleyinə aydınlıq gətirilməsi məsələsi beynəlxalq tədbirlər və xarici səfərlərdə də ombudsman tərəfindən mütəmadi olaraq qaldırılmışdır.

Ermənistanın mina terrorunun işğaldan azad edilmiş müxtəlif rayonlarımızda çoxsaylı insan tələfatına səbəb olması, quruculuq işlərinin aparılmasına və keçmiş məcburi köçkünlərin öz doğma torpaqlarına qayıdışına maneə yaratması ilə bağlı mütəmadi olaraq ombudsman tərəfindən müraciətlər yayımlanmış, eyni zamanda, dəqiq mina xəritələrinin ölkəmizə dərhal təhvil verilməsi məqsədi ilə beynəlxalq qurumlar tərəfindən Ermənistan hakimiyyətinə təsir göstərilməsi tələbi ilə çağırışlar edilmişdir.

Ombudsman tərəfindən davamlı olaraq beynəlxalq təşkilatların diqqətinə çatdırılan növbəti önəmli məsələ Ermənistanın işğalından azad edilmiş ərazilərdə aşkarlanan kütləvi məzarlıqlarda azərbaycanlılara məxsus insan qalıqlarının qeyri-insani şəkildə basdırılması və onlara işgəncə verilərək qətlə yetirilməsi kimi hallarla, həmçinin Ermənistanın soyqırımı siyasətini təsdiqləyən faktlarla bağlı olmuşdur.

Ombudsman mütəmadi olaraq qanunvericiliyin təhlili və təkmilləşdirilməsi, o cümlədən müvafiq normativ hüquqi aktların layihələrinin hazırlanması prosesində yaxından iştirak etmiş, rəy və təkliflər vermişdir. Bu prosesdə

vətəndaş cəmiyyəti institutları ilə fəal əməkdaşlıq edilmiş, zəruri fikir mübadilələri aparılmışdır.

İnsan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi sahəsində səmərəliliyin artırılması məqsədi ilə ombudsman tərəfindən səlahiyyətli dövlət qurumlarına təqdim edilmiş, eyni zamanda, illik məruzələrdə öz əksini tapmış təklif və tövsiyələrə diqqət artırılmalı, "Ombudsman haqqında" Konstitusiya Qanunu ilə müəyyən edilmiş qaydada göndərilən sorğu və yoxlama tapşırıqlarına nəzarət gücləndirilməlidir.

Əminəm ki, vətəndaşların, o cümlədən əhalinin həssas qruplarının hüquq və azadlıqlarının daha etibarlı müdafiəsi məqsədi ilə son illərdə aidiyyəti dövlət qurumlarına ünvanladığımız, habelə illik məruzələrdə öz əksini tapmış, 2023-cü ildə irəli sürdüyümüz 76 təklif və tövsiyə ölkəmizin iqtisadi durumu və maliyyə imkanları nəzərə alınmaqla tədricən öz həllini tapacaqdır, bu da insanların rifah halının daha səmərəli təmin olunmasına imkan verəcəkdir. İnsan hüquqlarının müdafiəsi istiqamətində səlahiyyətli dövlət qurumları ilə birgə əməkdaşlığımız vətəndaş məmnunluğunun daha da yüksəlməsinə xidmət etməkdədir.

Beləliklə, ombudsmana müraciət edən hər bir kəsə, habelə insan hüquqlarının müdafiəsi işinə dəstək verən, bu sahədə səmərəli əməkdaşlıq edən dövlət qurumlarına və vətəndaş cəmiyyəti institutlarına öz təşəkkürümü bildirirəm.

Çıxışımın sonunda Azərbaycanın Birinci vitse-prezidenti xanım Mehriban Əliyeva başda olmaqla ölkəmizin bütün qadınlarını, o cümlədən şəhid analarını, xanım millət vəkillərini qarşıdan gələn Beynəlxalq qadınlar günü münasibəti ilə təbrik edir, ən xoş arzularımı çatdırıram. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Səbinə xanım. Hörmətli həmkarlar, həmişə olduğu kimi, bilirsiniz ki, illik məruzəyə profil komitədə də baxılıb – İnsan hüquqları komitəsində. Mən indi sözü komitənin sədri hörmətli Zahid Oruca vermək istəyirəm. Zahid müəllim, buyurun.

**Z.Oruc,** *Milli Məclisin İnsan hüquqları komitəsinin sədri.*

Təşəkkür edirəm. Hörmətli sədr, hörmətli Məclis üzvləri. İnsan hüquqları üzrə müvəkkilin 2003-cü ildən sonra təqdim etdiyi məruzələr cənab İlham Əliyevin ali siyasi rəhbərliyə gəldiyi dövrlə üst-üstə düşür. Ötən il Ulu Öndərin 100 illik yubileyi son bir əsri, o cümlədən dövlətçilik tariximizdə müstəsna yer tutan son 20 ili qiymətləndirməyə imkan verir. Onillərlə qaçqın və məcburi köçkünlərin hüquqlarını təmin etməyi qarşıya məqsəd qoyan müvəkkil institutu indi Böyük Qayıdışı fərəhlə hesabatlarına daxil edir. Ona görə də Milli Məclisin hazırkı müzakirələri əvvəlki illərdən fərqlənir. Ən böyük insan hüquqları hadisəsi konstitusion bütövlük və vətəndaş tamlığının hesabatı adlandırıla bilər.

3 fəsildən, 97 səhifədən ibarət məruzədə ombudsmanın Konstitusiyada və ölkəmizin tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə təsbit olunan hüquq və vəzifələri əhatə olunub.

İlk növbədə şikayətlərin statistikası və müvəkkil tərəfindən onunla bağlı həyata keçirilən tədbirlər öz əksini tapıb. Xatırladaq ki, 2023-cü ildə ombudsmanın ünvanına 29 min 400 müraciət daxil olub və bu da 2021-ci ildəki 31 min 92 şikayətlə müqayisədə 1681 müraciət azdır. Biz şikayətlərin daha çox hansı sahəni əhatə etdiyini, onların dinamikasını və problemləri yaradan, yaxud həll etməyən qurumların adlarını məruzəyə daxil etməliyik. Milli

Məclisdə hökumətin gözlənilən hesabatı qarşısında ombudsmanın məruzəsi yaxşı yol xəritəsidir.

Məruzədə İraq və Suriyada döyüş zonalarında qalan 469 qadın və uşağın ölkəyə qaytarılması – repatriasiyası əksini tapıb. Xüsusi vurğulayaq ki, terrorçu dəstələrə qoşulanlara və onların yaxınlarına münasibət dünyada birmənalı deyil. Yaxın Şərqdə qeyri-qanuni silahlı birləşmələrdə iştirak edənlərin və qohumlarının öz ölkələrinə qayıtması təhlükəli sayılır. DTX-nın rəsmi məlumatına görə, Suriyaya gedən vətəndaşlarımızın sayı 1000-dən çox olub. İndi Rusiya–Ukrayna müharibəsində də eyni vəziyyət yaranıb. Səngərin hər iki tərəfində bir-birinə güllə atanların içərisində azərbaycanlıların da olduğuna acıyırıq. Biz ikili deyil, məhz Azərbaycan vətəndaşlarının nizami ordularda iştirakını üsyançı hərbi birləşmələrin tərkibində vuruşmaları ilə eyni cinayət hesab edirik. Ona görə də Suriya və İraqda döyüşən bir qrup azərbaycanlı kimi Ukrayna savaşında hər iki səngərdə savaşanların vətəndaşlığı ləğv olunmalıdır.

Milli preventiv mexanizm çərçivəsində müvəkkil ötən il 347 başçəkmə həyata keçirib. 2022-ci ildə bu rəqəm 201 olub. Diqqəti cəlb edən yenə də penitensiar müəssisələrdəki sıxlığın yuxarı olmasıdır. 700 nəfərlik təcridxanada 800, 1050 nəfərlik əvəzinə 1400, 1200 nəfərlik müəssisədə isə 1411 məhkumun cəza çəkdiyi müəyyən olunub. Təqdim olunan rəsmi məlumatlara görə, məhkumların 35 faizini narkotiklərlə bağlı şəxslər təşkil edir. Çıxış yolu təkcə yeni cəzaçəkmə müəssisələri tikmək deyil, həm də narkotik maddələrlə bağlı hüquqi aktlara yenidən baxmaqdır.

Məruzədə haqlı olaraq il ərzində barəsində həbs qətimkan tədbiri seçilən 100-dən çox şəxsin sonradan məhkə-

mənin qərarı ilə bəraət almasına diqqət çəkilib. Bəzi illərdə 200-dək təqsirləndirilən şəxsin bəraət almasına baxmayaraq, barələrində həbs qətimkan tədbirinin saxlanmasının uzadılmasından narahatlıq ifadə olunub. Biz yeni məhkəmə və hüquq sistemində islahatlara, təkcə alternativ cəzalara deyil, ümumiyyətlə, cəza siyasətinə yenidən baxılmasını vacib sayırıq.

Məruzədə təkrar cinayətlərin artması statistikası diqqəti cəlb edir. 2020-ci ildə bu rəqəmin 2859, 2021-ci ildə 4374, 2022-ci ildə isə 5127 nəfərədək artması bizi təkrar cinayətlərin səbəblərini geniş araşdırmağa, onu doğuran səbəbləri aradan qaldırmağa vadar edir.

Sağlamlığın qorunması ilə bağlı vətəndaşların az qala yarısının  dövlət tərəfindən tibbi sığorta ilə təmin edildiyindən məlumatsızlığı  narahatlıq doğurur. Ona görə də bu istiqamətdə xüsusi tədbirlərə ehtiyac var.

Vətəndaşların mənzil hüquqları ilə bağlı məruzədə əksini tapan problemlərə əlavə olaraq 5200 nəfər şəxsin ən azı iki nəfərə satılan mənzil cinayətlərinin qurbanı olduqları və 20-yə yaxın tikinti şirkətinin rəhbərinin həbs edildiyini bildirmək istərdik. Biz qanunvericiliyi dəyişməliyik. O cümlədən Bakı şəhərində pilot layihələrin bir çoxunda tikinti şirkətləri kütləvi olaraq vətəndaşların hüquqlarını pozur.

Ombudsmanın ötən ildə ölkəmizin beynəlxalq mənafelərinin qorunmasındakı fəaliyyətini yüksək qiymətləndirir, onu xarici siyasətimizin bir parçası sayırıq.

Tarixə qovuşan separatizm və ekstremizm, o cümlədən qanunsuz siyasi rejimin ləğvi ilə bağlı məsələlər də məruzəyə daxil olub. Uzun illər xalqımıza qarşı müxtəlif hərbi cinayətlər törədən şəxslərin həbs edilməsi, – hörmətli Səbinə xanım qeyd etdi, – ombudsmanın keçirdiyi

baxışlar indi dövlət təhlükəsizlik orqanlarının təcridxanasında saxlanılan və ətrafında beynəlxalq kampaniya aparılan adamların siyasi məhbus elan edilməsinin qarşısını alan mühüm tədbirlərdir.

Qondarma qurumun ləğvinə baxmayaraq, saxta ombudsmanın fəaliyyəti hələ də davam edir. Hər gün dövlətimizi ermənilərin hüquqlarını, tarixini, mədəniyyətini, daşınmaz abidələrini məhv etməkdə suçlandıran böyük beynəlxalq şəbəkə mövcuddur. ABŞ konqresmenləri, BMT Ədalət Məhkəməsi, onun cinayətkar sabiq prokuroru Okampo, Avropa siyasi institutları, Natali Luazo, Frank Şival, Yeva Kalin kimi erməni mafiyasının girovları, UNESCO, saxta Lemkin institutu və onlarca digər təsisat etnik təmizləmə adı altında ölkəmizə qarşı sistemli kampaniya aparırlar.

Əlbəttə, bu qondarma fəaliyyətlər davam edəcək. Prezident İlham Əliyevin andiçmə mərasimində “Bizdən əl çəkməyəcəklər, təzyiqlər artacaq, lakin cavab tədbirlərimiz sərt olacaq” bəyanatını bir daha xatırlayaraq qarşıdakı dövr üzrə Azərbaycana qarşı beynəlxalq təzyiqləri birgə dəf etməliyik.

Ötən il dövlətimizin reinteqrasiya ilə bağlı çağırışların və erməni vətəndaşlarla görüşlərin də sənədə daxil edilməsini təklif edirik. Başqa təkliflərimizi mediada yayacağıq.

Komitədəki sənəd 2 saata yaxın müzakirə olunub. Ona görə də məruzədə olan təkliflərə ayrıca həssaslıqla yanaşılmasını, müvəkkilin məruzəsini qənaətbəxş qiymətləndirməyi Prezidentin bəyan etdiyi yeni dövrün, ilk növbədə, insan hüquq və azadlıqlarının qorunmasının bir nömrəli vəzifəsi kimi qəbul edirik. Diqqətinizə görə təşəkkür edirəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, müzakirəyə keçək. 5 dəqiqəyə keçmək təklifi var. Hamı razıdır?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Əgər hamı razıdırsa, mən səsverməyə qoymuram. Bundan sonra 5 dəqiqə. Vüqar Bayramov. Buyurun.

**V.Bayramov.** Çox təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Hörmətli xanım sədr, mən ilk öncə Sizi Asiya Parlament Assambleyasının Bakıda keçirilən və kifayət qədər faydalı olan toplantısı ilə bağlı təbrik edirəm. Cənab Prezidentin müəyyənləşdirdiyi prioritetlərə və hədəflərə uyğun olaraq, parlament məhz bu tədbirin keçirilməsində və tədbirdə Azərbaycan həqiqətlərinin, Azərbaycanın mövcud reallığının təqdim edilməsində xüsusi rol oynadı. Təbii ki, bu, qürurverici bir haldır.

Eyni zamanda, hörmətli Səbinə xanıma da hesabata və təqdimata görə təşəkkür edirəm.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin əsas hədəfləri insan haqlarının daha yaxından qorunması və bütövlükdə, bu sahədə islahatların daha da genişləndirilməsidir. 2023-cü il insan haqlarının qorunması, həm də bütövlükdə islahatların dərinləşməsi və yalnız sosial-iqtisadi deyil, digər sektorlarda da insan haqlarının qorunması ilə bağlı institusional bazanın möhkəmlənməsi baxımından yadda qaldı. Buna görə həm hesabatın strukturu, həm də məzmunu ilə bağlı bir sıra məqamları qeyd etmək istərdim. Əvvəla, hesabatın strukturunun təkmilləşdirilməsi və daha da əhatəli olması məqsədəuyğun olardı. Bir sıra ölkələrdə ombudsman institutu tərəfindən yalnız bir illik hesabat deyil, hətta bir neçə hesabat təqdim olunur. Məsələn, Qazaxıstanda sek-

torlar üzrə, yəni 19 sektor üzrə insan haqlarının qorunması və sosial-iqtisadi haqların qorunması ilə bağlı hesabat hazırlanır və illik olaraq təqdim olunur. Eyni zamanda, bəzi ölkələrdə regionlar, sektorlar üzrə ayrıca hesabatların hazırlanması və təqdim olunması praktikası var. Daha yaxşı olardı ki, Azərbaycanda da oxşar nümunədən istifadə olunsun.

Digər məqam. Hesabatda giriş sözü ilə yanaşı, xülasənin əlavə olunması da məqsədəuyğun olardı. Çünki hesabat giriş sözündən sonra daha çox nümunələrin təqdimatı ilə həyata keçirilib. Amma hörmətli Səbinə xanımın təqdimatından göründüyü kimi, kifayət qədər statistik məlumatlar var. Statistik məlumatların ümumiləşdirilərək xülasə formasında təqdim edilməsi və hesabata daxil edilməsi məqsədəuyğun olardı. Hesabatın strukturu, eləcə də məzmunu ilə bağlı digər məqam məhz statistik məlumatların təhlil edilməsi və illər üzrə müqayisəli təqdimatıdır. Baxmayaraq ki, əlavədə 4 qrafik və cədvəl təqdim olunur, çox təəssüf, bu hesabatda xüsusilə də illər üzrə statistik məlumatların təqdimatı nisbətən azdır. Amma düşünürəm ki, bunun xüsusilə hesabatın tərkibində təqdim olunması, təhlil olunması və trendin müəyyənləşdirilməsi daha məqsədəuyğun olardı. O baxımdan hesabatın strukturunun bu istiqamətdə təkmilləşdirilməsi daha məqsədəuyğun olardı.

Müraciətlərin dəyişmə dinamikasının, eləcə də sektorlar üzrə və ya insan haqlarının profili üzrə müraciətlərin dinamikasının təhlili də çox vacibdir. Çünki qonşu ölkələrdə, o cümlədən qeyd etdiyimiz Qazaxıstan da daxil olmaqla, ombudsman hesabatlarında həmin trendlər ayrıca olaraq təqdim olunur.

Hesabatın digər mühüm məqamlarından biri təkliflər

hissəsidir. Kifayət qədər təklif var. Sadəcə, mənim bununla bağlı sualım ondan ibarətdir ki, təkliflər hazırlanan zaman uyğun qurumlarla həmin təkliflərin maliyyə yükü müzakirə olunubmu? Çünki sosial sahədə, digər istiqamətlərdə kifayət qədər təklif var. Təbii ki, bu təkliflər vacibdir, təqdirəlayiqdir. Amma aydındır ki, bunların maliyyə yükünün hesablanması, daha ölçülə bilən olması məqsədəuyğun olardı. O baxımdan sualım ondan ibarətdir ki, bu təkliflərin maliyyə yükü hesablanıbmı?

İkinci. Bu təkliflərin bir qismi əvvəlki illərdə təkrarlanan təkliflərdir. Əvvəlki illərdə və yenidən təqdim olunan bu təkliflər nə üçün əvvəlki illərdə qəbul olunmayıb? Bununla bağlı bir araşdırma varmı?

Çox mühüm təkliflərdən biri də hesabatda veteranların müavinətinin artırılması ilə bağlıdır. Bununla bağlı müzakirələr mütəmadi olaraq gedir. Mənim sualım ondan ibarətdir ki, bu məsələ ilə əlaqədar uyğun dövlət qurumu ilə müzakirələr aparılıbmı və bu istiqamətdə, ümumiyyətlə, addımların atılması nəzərdə tutulubmu?

Bütövlükdə, hesabatda təqdim olunan istiqamət və təklifləri dəstəkləyirəm. Hesabata səs verirəm. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Qüdrət Həsənquliyev. Buyurun.

**Q.Həsənquliyev.** Təşəkkür edirəm, hörmətli sədr. Hörmətli həmkarlar, media nümayəndələri. Mən də Səbinə xanıma insan hüquqlarının qorunması istiqamətində gördüyü işlərə görə təşəkkür edirəm. 5 dəqiqə ərzində bütün məsələlərə, sözsüz ki, toxunmaq olmaz. Amma mən məruzədə diqqətimi xüsusi çəkən və insanları çox narahat edən bir məsələyə toxunmaq istəyirəm. Bu həm də ölkəmizin iqtisadi inkişafı ilə bağlıdır. Bu, mülkiyyət toxunulmazlığı məsələsidir. Məruzənin 8-ci səhifəsində qeyd olunur ki, son dövrdə Bakı şəhərində pilot layihələr

üzərindən çox sayda köhnə çoxmənzilli yaşayış binaları və fərdi yaşayış evləri sökülərək yeni binalarla əvəzlənməkdədir. Söküntülər zamanı sakinlərə uyğun kompensasiya məbləğinin hesablanmaması, eyni zamanda, mənzil sahiblərinə kirayə haqqının ödənilməməsi, yaxud ödənişin vaxtında həyata keçirilməməsi vətəndaşların haqlı narazılığına səbəb olmuşdur.

Hamımız bilirik, Azərbaycanda müəyyən tikinti şirkətləri var ki, onlar tikintiyə icazə almadan həm söküntü işləri aparır, həm də tikintiyə başlayırlar və heç bir dövlət orqanı da onları dayandırmaq gücündə deyil. Hətta bununla bağlı məhkəmə qərarı olsa belə, məhkəmə qərarları açıqdan-açığa icra olunmur. Konstitusiyanın 29-cu maddəsində qeyd olunur ki, heç kəs məhkəmənin qərarı olmadan mülkiyyətindən məhrum edilə bilməz. Dövlət ehtiyacları üçün mülkiyyətin özgəninkiləşdirilməsinə yalnız qabaqcadan onun dəyərini ədalətli ödəmək şərti ilə yol verilə bilər. Amma bizdə, bilirsiniz, arxayın tikinti şirkətləri var. Bilirlər ki, onları heç kim hüquqi məsuliyyətə cəlb edə bilməyəcək. Onlar özləri qiymət müəyyənləşdirirlər. Var-dövlət o şirkətlərin rəhbərlərinin gözünü elə tutub ki, onlar bir çox dəyərləri artıq itiriblər. Allahdan da qorxmurlar. Amma başa düşmürlər ki, bir gün insanlara qan ağlatdıranlar Allahın qəzəbinə düçar olacaqlar və Allah onlara qan qusduracaq.

Elçin Mirzəbəylini tanıyırsınız. Mənim müavinimdir, siyasətçidir, uzun illər ölkənin ictimai-siyasi həyatında yaxından iştirak edib. Mətbuat Şurasında idarə heyətinin üzvüdür. Nəsimi rayonu ərazisində həm onun həyat yoldaşının, həm də baldızının adına olan evi heç bir kompensasiya ödənilmədən gəlib mebellə birgə söküblər.

Mən, sadəcə olaraq, ombudsmana sual vermək istə-

yirəm. Mən bilirəm ki, bu, ombudsmanın gücü çatan məsələ deyil. Amma hər halda. Siz burada qeyd etmisiniz ki, insanları incidirlər. Siz nə təklif edirsiniz? Siz bu problemlərin həllini necə görürsünüz? Qanunlarımız mükəmməldirmi? Ümumiyyətlə, Milli Məclisin bu məsələlərdə məsuliyyəti nə qədərdir? Biz necə edə bilərik ki, bu vəziyyəti dəyişək, insanları bu cür acımasız şəxslərdən xilas edə bilək, onların evləri, əmlakları dağıdılmasın? Mən, sadəcə olaraq, bu məsələ ilə bağlı ombudsmanın fikirlərini öyrənmək istərdim.

Bir də sonda bir məsələyə toxunmaq istəyirəm. Biz bilirik ki, Azərbaycanda bir çox insan məcburiyyət qarşısında, yəni iş tapmaq üçün ölkəni tərk edir, Rusiya və başqa ölkələrə üz tuturlar. Bu zaman şərait onları məcbur edib ki, yaşadığı ölkənin vətəndaşlığını qəbul etsinlər. Amma bizim Konstitusiyaya görə, Azərbaycan Respublikasında doğulmuş şəxslər doğulduğu vaxtdan Azərbaycan Respublikasının vətəndaşlarıdır. Ona görə də bu şəxslərin bəziləri yaşa dolub, ölkəyə qayıtmaq istəyirlər. Amma onlar pasport ala bilmirlər, vətəndaşlıq məsuliyyəti təsdiq olunmur. Onlar da bizim soydaşlarımızdır, bu ölkədə onların da eyni hüquqları var. Biz onların qabağında bir növ gözükölgəliyik, onları işlə təmin edə bilməmişik və onlar məcburiyyətdən ölkəni tərk edib gediblər. Buna baxmayaraq, bir daha söyləyirəm ki, bir dövlət, hökumət, xalq olaraq üzr istəmək əvəzinə, onları bu hüquqlardan da məhrum etmişik. İstərdim ki, hörmətli ombudsman bu məsələyə də öz münasibətini bildirsin. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Əli Məsimli. Buyurun.

**Ə.Məsimli.** Hörmətli sədr, ombudsmanın 2023-cü il üçün məruzəsi kifayət qədər əhatəli, obyektiv və sistemli-

dir. İnsan hüquqlarına dair kifayət qədər faktoloji materiala, eyni zamanda, həm də konkret sahələr üzrə əhatəli məlumatlara əsaslanır. Ombudsmanın hazırkı reallıqlar şəraitində mümkün olan işlərin xeyli hissəsini görməsi belə bir fikir söyləməyə əsas verir ki, ombudsmanın məruzəsini müsbət qiymətləndirmək olar.

Ombudsmanın ünvanına edilən müraciətlərdə müsbət dinamika ötən il də davam edib. Eyni zamanda, məruzənin sonunda 76 təklif və tövsiyə irəli sürülüb. Biz bunu müsbət qiymətləndiririk. Parlament olaraq ötən il daxil olan 29411 müraciətin, eləcə də 76 təklifin ilbəil daha çox hissəsinin müsbət həll olunmasına təsir rıçaqları haqda da düşünmək, görülən işlərin nəticəlilik və səmərəlilik baxımdan qiymətləndirilməsi müstəvisinə keçmək yaşamağa başladığımız yeni mərhələnin çağırışları baxımından vacib əhəmiyyət kəsb edir.

Məruzədə mövcud problemlərin konkret işlərə və faktlara əsaslanaraq təqdim edilməsi göstərir ki, ölkəmizdə mülki hüquq, əmək hüququ, sosial təminat hüququ, mənzil hüququ, təhsil hüququ, uşaq və ahılların hüququ və sair bu kimi istiqamətlərdə nə qədər ciddi problemlər var və ombudsmanın çıxışında bu məsələlər xeyli dərəcədə işıqlandırıldı.

Qeyd etmək istəyirəm ki, müraciətlərin xeyli hissəsi deputatlara olan müraciətlərlə üst-üstə düşür və təklifləri də bu istiqamətdə eyni cür dəyərləndirmək olar. Bəzi məqamları qeyd etmək istərdim. Birinci, ombudsmanın məruzəsində şəhid ailələrinin, müharibə veteranlarının hüquqlarının müdafiəsi kimi çox aktual məsələyə çox geniş yer verilib və biz bunu yüksək qiymətləndiririk. Son illərin yüksək inflyasiyası fonunda əmək haqqı, pensiya və digər ödənişlərin dəyərsizləşməsi prosesi xeyli dərəcədə

sürətlənib. Ona görə də minimum əmək haqqının, minimum pensiyanın, müxtəlif sosial ödənişlərin, müavinətlərin məbləğinin artırılması istiqamətində addımlar atılır. Bu yöndə müntəzəm şəkildə qaldırılan və müzakirə olunan məsələlərdən biri olan müharibə veteranlarının 80 manatlıq müavinətinin də artırılması istiqamətində real addımların atılmasını vacib hesab edirik və bu işdə ombudsman institutu ilə Milli Məclisin əlaqəli fəaliyyət göstərməsi prosesə müsbət təsir göstərə bilər.

İkinci. Qeydiyyatla bağlı insanlarda ciddi problem və narazılıq yaradan bir məsələni qeyd etmək istərdim. Bakı şəhəri Nərimanov rayonu, Molla Cümə küçəsi, ev 7a, mənzil 18 ünvanında yaşayan Abdullayev Fərman Şərif oğlu bizə müraciətində qeyd edir: Yaşadığımız bina 1978-ci ildə təhvil verilib. Bina sakinlərinin əksəriyyəti indiyə qədər burada yaşayır. 2001-ci ildə bizim binanın qonşuluğunda 16 mərtəbəli yeni bina inşa olunub. Həmin binanın bir blokuna bizim bina ilə eyni ünvan, yəni Molla Cümə küçəsi, ev 7a verilib və bundan sonra ciddi problemlərimiz yaranıb. Seçki bülletenləri səhv gəlməyə başlayıb, məktublar dəyişik düşməyə başlayıb, xəstələr üçün çağırdığımız təcili yardım maşınları ünvana gəlib çıxa bilmir. Mənzilləri satan zaman və övladlarının adına keçirilən zaman böyük problemlər yaşanılır və sair. Kiçik bir problem, görün, həmin binada yaşayan insanlar üçün nə qədər ciddi problemlər yaradır.

Üçüncü. Ünvanlı sosial yardımla bağlı burada qeyd olundu. Təkmilləşdirilmələrin həyata keçirilməsi çox vacibdir. Ona görə də ötən əsrdən qalmış, istismara yararsız hansı isə bir avtomobil, yaxud da istifadə olunmayan torpaq burada əsas olmamalıdır. Əslində, ünvanlı sosial yardım kimi verilmiş 270 manatlıq ehtiyac meyarından aşağı

əsas meyar kimi götürülməli və bu insanlara ünvanlı sosial yardımın verilməsi məsələsi təmin olunmalıdır. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Təkliflərinizi yazılı surətdə verə bilərsiniz, Əli müəllim. Təklifləri Səbinə xanımgilə verə bilərsiniz. Kamal Cəfərov. Buyurun.

**K.Cəfərov**. Çox sağ olun, hörmətli xanım sədr. İnsan hüquqları üzrə müvəkkilin illik hesabatını mən də müsbət qiymətləndirirəm. Hesabatda beynəlxalq fəaliyyət xüsusi fərqlənir. Ermənistanın hərbi-siyasi rəhbərliyinin müharibə cinayətləri, insan hüquq və azadlıqlarının pozuntuları, o cümlədən Qərbi azərbaycanlıların pozulmuş hüquqları barədə ombudsmanın bəyanatlarının beynəlxalq mexanizmlərdə, ən ali kürsülərdə səsləndirilməsi, bununla bağlı müvafiq hesabatların aidiyyəti qurumlara vaxtında göndərilməsi bu təsisatın artıq çevik bir mexanizmə çevrilməsini göstərir. Digər tərəfdən, hesabatda qeyd edilir ki, milli preventiv qrup tərəfindən şəxslərin öz iradəsi ilə tərk edə bilmədikləri yerlərə həyata keçirilən başçəkmələrin sayı ötən illə müqayisədə 70 faiz artaraq 347-yə çatıb. Bunu ciddi nailiyyət indikatoru hesab edirəm. Ancaq bu başçəkmələr zamanı müəyyən edilmiş çatışmazlıqların aradan qaldırılmasını təmin etmək üçün ombudsman institutu təsirli və çəkindirici hüquqi alətlərlə təmin edilməlidir.

Eyni zamanda, vətəndaşların informasiya əldə etmək hüququnun pozulması ilə bağlı hüquqlarının daha yaxşı qorunması üçün inzibati cərimələrin hüquqi şəxslərə münasibətdə artırılmasına ehtiyac var.

Diqqət çəkmək istədiyim digər məsələ məhkum olunmuş şəxslərin islah edilməsi və onların cəmiyyətə qazanılması ilə bağlıdır. Hazırda penitensiar sahədə müxtəlif istiqamətlər üzrə ciddi islahatlar həyata keçirilir. Ancaq bura-

da xüsusi narahatlıq yaradan məsələ təkrar cinayətkarlıq hallarındakı ciddi artım tendensiyasıdır. Hesab edirəm ki, həm məhkumların islah edilməsinə, həm də onların azadlığa çıxdıqdan sonra cəmiyyətə reinteqrasiyasına dəstək ola biləcək ən mühüm amil onların əməklə məşğul olmasıdır. Məhkumlar üçün müvafiq peşə kursları keçirilir. Onlar müxtəlif ictimai faydalı əməklə məşğul olurlar. İctimai faydalı əmək məhkumların islah edilməsinin əsas vasitələrindən biri olsa da, digər vasitələrdən ayrıca səmərəli ola bilməz. Digər əsas islah vasitələrindən olan cəzaçəkmə müəssisələrində rejim, tərbiyə işi və sair digər alətlərin səmərəli tətbiqi üçün cəzaçəkmə müəssisələrinin əməkdaşları ilə məhkumların faiz nisbətini "space" indikatorları nəzərə alınmaqla uyğunlaşdırmaq lazımdır. Digər tərəfdən, penitensiar xidmətin rəhbərliyinin apardığı araşdırmaya əsasən azadlığa buraxılmış şəxslərin çox az faizi işə götürülür, işlə təmin edilir. İşə götürülənlər də ən yaxşı halda ya restoranda ofisiant işləyir, ya da taksi sürücüsü kimi fəaliyyət göstərirlər. İş tapa bilməyənlər, sosial-iqtisadi vəziyyəti aşağı olanlar isə inteqrasiya oluna bilmirlər. Əksinə, yenidən cinayət törətməyə meyilli olurlar. Cəmiyyət həm onların inteqrasiya olunmasını istəyir, ancaq həm də onları işə götürmür, hətta adi işləri belə onlara layiq bilmir. Ona görə də bu məsələdə ictimai təfəkkürü dəyişməyin vaxtıdır.

Yekunda ombudsmanın hesabatında irəli sürülən bir sıra təklifləri çox mühüm hesab edirəm və əminəm ki, mövcud səmərəli əməkdaşlığımız çərçivəsində bir sıra məsələlərin çevik həllinə nail olacağıq. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Azay Quliyev. Buyurun.

**A.Quliyev**. Təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli həmkarlar, məruzə ilə bağlı fikrimi bildirməmiş-

dən öncə, hörmətli Sahibə xanım, istərdim ki, Sizi və Milli Məclisi Asiya Parlament Assambleyasında uğurlu bir formada ev sahibliyi etdiyinizə görə təbrik edəm. Eyni zamanda, qeyd etdiyiniz kimi, 2024–2025-ci illərdə Azərbaycan bu nüfuzlu assambleyaya sədrlik edəcək. Əminəm ki, sədrlik dövründə Azərbaycanın xarici siyasət prioritetlərinin həyata keçirilməsində də bu bizim üçün mühüm bir platforma rolu oynayacaqdır.

Hörmətli Sahibə xanım, bu gün müzakirə etdiyimiz ombudsmanın 2023-cü il üzrə insan hüquqlarının qorunması haqqında illik məruzəsini hamımız dinlədik. Mən fürsətdən istifadə edib hörmətli Səbinə xanım başda olmaqla ombudsman aparatının bütün əməkdaşlarına təşəkkürümü bildirirəm. Hesabatdan da göründüyü kimi, çox böyük işlər görülübdür. Bu hesabatın arxasında böyük bir zəhmət var. Azərbaycanda insan hüquq və azadlıqlarının mükəmməl şəkildə qorunmasında ombudsman institutu, demək olar ki, artıq oturuşmuş bir instituta çevrilibdir. Düşünürəm ki, bu, həm daxildə, həm də xaricdə bu cür qəbul olunur. Əgər təkcə 2023-cü ildə 30 minə yaxın vətəndaş ombudsman institutuna müraciət edib öz probleminin həllini istəyibsə, demək ki, bu instituta həm də böyük bir ictimai etimad var.

Hörmətli həmkarlar, hesabatda çox məsələlərə toxunulubdur. Bu gün ictimai baxımdan kifayət qədər aktual mövzular bu hesabatda əks olunubdur, təsvir olunubdur. Mən elə bunların bəziləri haqqında fikirlərimi sizinlə bölüşmək və bəzi təkliflərlə çıxış etmək istərdim. Penitensiar xidmətdə aparılan islahatlar, məhbuslara yaradılan şərait və digər istiqamətlər üzrə görülən işlər hesabatda qeyd olunub. Təqdirəlayiq haldır ki, bu gün bir çox hallarda penitensiar xidmət müəssisələrində sıxlığın aradan qal-

dırılması... İnsanların, məhbusların sayı və oradakı ərazilərin həcmi adekvat deyil. Bu istiqamətdə görülən işlər burada xatırlanır. Xüsusilə ilk dəfə xüsusi ağır cinayət törətməyən, ictimai təhlükə törətməyən şəxslərin 7 gün müddətinə evlərinə buraxılması praktikası tətbiq olunur ki, bu da, əlbəttə, müsbət hal kimi qeyd olunmalıdır.

Digər bir tərəfdən, hesabatda həbsə alternativ qətimkan tədbirlərinin keçirilməsi haqqında çağırış da var. Hesab edirəm, bu, çox doğru çağırışdır. Hələ cənab Prezidentin bir neçə il bundan öncə verdiyi fərmanda cəza siyasətinin humanistləşdirilməsi ilə bağlı xüsusi müddəalar var idi. Bu istiqamətdə xeyli işlər də görülübdür, ədalət naminə qeyd olunmalıdır. Ancaq etiraf etmək lazımdır ki, bu istiqamətdə siyasətə yenidən baxılmasına, maksimum dərəcədə həbsə alternativ qətimkan tədbirləri imkanlarının nəzərdən keçirilməsinə hələ də ehtiyac var. Düşünürəm ki, məhkəmələr bu məsələyə diqqət ayırmalıdır.

Bizi narahat edən məqamlardan biri də cinayət törətmiş, habelə əvvəllər cinayət məsuliyyətinə cəlb olunmuş şəxslərin təkrar cinayət törətməsi məsələsidir. Bu rəqəm hər il, təəssüflər olsun ki, artır. Burada 3 sual ortaya çıxır. Ya həmin şəxslərə verilən cəza adekvat deyil, ya onların islah prosesində problemlər var, yaxud da cəmiyyətin onları qəbul etməsi və ictimaiyyətə, normal həyata inteqrasiya olunmasında problemlər var. Mən hesab edirəm, bunlar hamısı araşdırılmalıdır və təklif edərdim ki, ombudsman institutu növbəti məruzələrdə buna diqqət yetirsin.

Məhkəmə qərarlarının icrası ilə bağlı məsələyə toxunuldu. Həqiqətən də, bu bizi narahat edən məsələlərdən biridir. Burada məhkəmə qərarlarının icra vəziyyəti ilə əlaqədar məsələyə fərqli bir rakursdan baxmaq istərdim. Təkcə bunların mexaniki icrası ilə bağlı məsələ deyil, eyni

zamanda, məhkəmə qərarlarının nə qədər ədalətli olması məsələsi də gündəmdə olmalıdır. Bunun icra olunmamasında bu faktor hansı rolu oynayır, buna diqqət yetirilməlidir. Bir misal bildirmək istəyirəm. 2017-ci ildə Binəqədidə bir ərazidə yaşıllıq ərazinin şəxsi mülkiyyətə verilməsi ilə bağlı bir qərar var idi. Vətəndaşlar ondan narazı idilər. Həmin qərardan dəfələrlə şikayət olunubdur. Məhkəmədə fərqli qərarlar çıxarılıbdır. Bəziləri vətəndaşların, bəziləri də həmin mülkiyyət sahibinin xeyrinədir. Yəni bu cür hallar ciddi şəkildə araşdırılmalıdır. Elə bir mühit yaradılmalıdır ki, məhkəmə qərarları, doğrudan da, icra üçün tam şəkildə hazır olsun. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Bəxtiyar Əliyev. Buyurun.

**B.Əliyev.** Hörmətli xanım sədr, hörmətli deputatlar, Azərbaycan Respublikası insan hüquqları üzrə müvəkkilinin həm məruzəsini, həm də hesabatını yüksək qiymətləndirirəm və hesab edirəm, bu hesabat və məruzə bir daha göstərdi ki, Azərbaycan Respublikası hüquqi, demokratik dövlət quruculuğu istiqamətində çox böyük uğurlar qazanıbdır və bu istiqamətdə də davam edir. Azərbaycan Respublikası vətəndaşlarının bütün konstitusion hüquqlarının qorunması və müdafiə edilməsi üçün tam geniş və vacib hüquqi baza yaradılıbdır, vətəndaşlarımız bu hüquqlardan kifayət qədər geniş istifadə edirlər. Dövlət bu hüquqların təmin edilməsi üçün hər il dövlət büdcəsindən kifayət qədər vəsait nəzərdə tutur. Təsadüfi deyil ki, bizim büdcəmiz sosial yönümlü büdcə də adlanır.

Ədalət naminə qeyd etmək lazımdır, Azərbaycan da dünyanın nümunəvi ölkələrindən biridir ki, məhz neftdən əldə edilmiş gəlirlər, Dövlət Neft Fondunda toplanmış vəsait ilk növbədə Ermənistanın işğalı nəticəsində azərbaycanlıların öz doğma torpağında köçkün həyat yaşama-

sına məruz qaldığı bir vaxtda onlara pulsuz evlərin tikilməsinə, sosial şəraitin yaxşılaşdırılmasına, eyni zamanda, pensiyaların artırılmasına, xəstəxanaların tikilməsinə sərf edilmişdir. Əlbəttə ki, bu, bir nümunədir.

Dünyada ikinci belə bir ölkəni göstərmək olmaz ki, öz gəlirləri hesabına, təkbaşına 1 milyondan artıq məcburi köçkün və qaçqını üçün bu cür böyük sosial layihələr həyata keçirsin. Bu da Azərbaycanda hər bir vətəndaşın dövlət tərəfindən hüquqlarının qorunması və dövlətin diqqət mərkəzində olmasının göstəricisidir. Şübhəsiz ki, qəbul olunmuş qanunlar yeni hüquqlar verir və insanlarımız da bu hüquqlardan istifadə edir. Amma bəzən də bu hüquqlar ya bilməməzlikdən, yaxud da bu qanunların icrası zamanı bəzi qurumlarda bəzi məmurların səriştəsizliyi və ya insani keyfiyyətlərinin kifayət qədər o peşəyə, tələblərə cavab verməməsi nəticəsində pozula bilir.

Ombudsmanın məruzəsində bu məsələlər faktlar əsasında təhlil edilmiş, ümumiləşdirilmişdir və bu institut artıq özünə böyük bir inam qazanmışdır. Təsadüfi deyil ki, 29 mindən çox müraciət edilmişdir və müraciətlərin hər birinə də diqqətlə yanaşılmışdır. Ən kəskin məsələlərdən olan Ermənistanın təcavüzü nəticəsində əziyyət çəkmiş insanlarımız, Azərbaycana qarşı şər və böhtan kampaniyaları, Azərbaycanda guya insan hüquqlarının pozulması ilə bağlı ayrı-ayrı ölkələrdə, xüsusilə təcavüzkar Ermənistandan səslənən bəyanatlara qarşı Azərbaycan Respublikası insan hüquqları üzrə müvəkkilinin beynəlxalq təşkilatlarda məruzələri, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması – bunlar Azərbaycan vətəndaşlarının hüquqlarının qorunması istiqamətində ombudsmanın fəaliyyəti kimi də yüksək qiymətləndirilməlidir.

Hesab edirəm ki, hesabat məruzəsində ombudsmanın

təklif etdiyi 70-dən çox təklif diqqətlə dinlənilməlidir, nəzərə alınmalıdır. Bu istiqamətdə də Azərbaycan vətəndaşlarının hüquqlarının bundan sonra da dövlət tərəfindən qorunacağı heç bir şübhə doğurmur. Azərbaycan hüquqi, demokratik bir dövlət olaraq insan hüquq və azadlıqlarını daim qoruyan və dünyaya da nümunə olan ölkələrdən biridir. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Aqiyə Naxçıvanlı. Buyurun.

**A.Naxçıvanlı**. Təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli ombudsman, hörmətli həmkarlarım! Mən ombudsmanın 2023-cü il üzrə məruzəsi ilə tanışam. İllik məruzə yığcam, təkmil, əhatəli hazırlanmış, eyni zamanda, məruzədə xeyli təkliflər də irəli sürülmüşdür. Əlbəttə, hesabatın əhatəli olması həm ombudsman, həm ölkəmizdə aparılan səmərəli islahatlarla, həm də insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində aparılan tədbirlərlə bağlıdır. Hesabatdan göründüyü kimi, qurumun fəaliyyətində çoxşaxəli istiqamətlər əhatə olunub. Xüsusən təhsil sahəsində müəllim, valideyn, pedaqoji kollektivin müraciətlərinin hüquqi müstəvidə həlli, uşaq hüquqlarının qorunması ilə bağlı irəli sürülən təkliflər, hesab edirəm ki, diqqətəlayiqdir.

Ümumiyyətlə, müvəkkilin məruzəsində hər görülən iş və təklif dəqiq izah olunub. Düşünürəm ki, bu da insan hüquqlarının daha etibarlı qorunması mexanizminin yaradılmasına yönəlmişdir. Cənab Prezident İlham Əliyevin insanların hüquq və azadlıqlarının təmin edilməsi, onların sağlamlığının qorunması, sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində gördüyü işlər, verdiyi fərman və sərəncamlar bu cür təsisatların fəaliyyətini daha da gücləndirir. Bu gün biz beynəlxalq hüququn aliliyinə, mənəvi dəyərlərimizə uyğun çox mükəmməl qanunları olan,

tolerant və multikultural dəyərləri özündə birləşdirən güclü bir dövlətdə yaşayırıq. Hesab edirəm ki, məruzədə əmək hüququ, sosial təminat, sağlamlığın qorunması, habelə keçmiş məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin hüquqlarının təmin olunması məsələləri ilə bağlı ombudsmana ünvanlanan müraciətlərin diqqət mərkəzində saxlandığı xüsusi olaraq qeyd olunur. Vaxtı ilə Azərbaycanda qaçqın statusunda olmuş, Ermənistandan deportasiya olunan soydaşlarımızın hüquqlarının qorunması, onların yurdlarında olan mənəvi irslərinin dağıdılması, soyqırım faktlarının beynəlxalq tribunalarda, beynəlxalq hüquqi sənədlərdə təsbit olunması işini daha da gücləndirmək lazımdır. Gənclərimizin işsizlik problemi, sosial müavinətlərin təyin olunmasında mövcud problemlər də ombudsmanın diqqət mərkəzində saxlanılmalıdır və həll olunması üçün səylər göstərilməlidir. Bir daha ombudsmanın gördüyü işləri yüksək qiymətləndirirəm, ona uğurlar arzu edirəm. İllik məruzəni qənaətbəxş hesab edirəm və ona səs verəcəyəm. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Təklif var, səsə qoyaq. Heç kim etiraz etmir?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Ancaq səsə qoymazdan əvvəl, Səbinə xanım, suallar verildi, istəyirsiniz, indi cavab verin. Buyurun.

**S.Əliyeva**. Hörmətli xanım sədr, dəyərli millət vəkilləri! İlk növbədə öz dərin təşəkkürümü bildirirəm ki, məruzəyə və təqdimata diqqətlə yanaşmısınız. Bu bizi olduqca sevindirir. Suallara gəldikdə isə, mən səsləndirilən hər bir sualı diqqətlə dinlədim və çalışacağam ki, az vaxt almaq şərti ilə onları cavablandırım.

Hörmətli Vüqar müəllimin sualına cavab olaraq bildir-

mək istərdim ki, ombudsmanın məruzəsi hazırlanarkən biz, əlbəttə ki, hər zaman beynəlxalq təcrübəyə üz tuturuq. Həmkarların bizə göndərdiyi illik hesabatlarla tanış olmaqla bərabər, burada məruzənin hazırlanmasında əsas məqam məruzənin Konstitusiya qanununda əks olunan tələblərə uyğun olmasıdır ki, bu da uyğundur. Yəni regional, ayrıca fəsillər, yaxud da rüblük olması, təəssüf ki, bizim qanunda əks olunmayıb.

O ki qaldı maliyyə yükü, ombudsmanın bu və ya digər qurumlarla məsləhətləşməsi məsələlərinə, əgər biz bu və ya digər təkliflə bağlı hansı isə dövlət qurumu ilə məsləhətləşmələr aparsaq, o zaman bu, ombudsmanın müstəqil olmasını çox böyük sual altına qoyacaqdır. Mən çıxışım zamanı da səsləndirdim ki, məruzədə yer alan təkliflərlə əlaqədar, dövlətimizin maliyyə dəstəyi və maliyyə yükü, əlbəttə, nəzərə alınır. Lakin çox sevindirici haldır ki, irəli sürdüyümüz təklif və tövsiyələrdən 16-sı köhnədir, yəni təkrardır. Hesab edirik ki, onların qəbul olunması zəruridir və məqsədəmüvafiqdir, 60-ı isə tamamilə yeni hazırlanan təkliflərdir.

Hörmətli Qüdrət müəllimin səsləndirdiyi suala cavab olaraq bildirmək istərdim ki, ölkə vətəndaşlarının mülkiyyət hüququ ən ali səviyyədə təmin olunmalıdır. Bu, əsas hüquqlardan biridir. Bununla bağlı hüquq müdafiə mexanizmləri mövcuddur. Problem bu sahəyə nəzarəti həyata keçirən səlahiyyətli orqan olan qurumların daha ciddi nəzarət həyata keçirmələrindədir. Biz hesab edirik ki, fikir bu tribunadan səslənibsə, gələcəkdə dövlət qurumları bu məsələyə daha həssas yanaşacaqlar.

Biz çox hörmətli Əli müəllimin səsləndirdiyi təklifləri nəzərə alacağıq. Mən bütün dəyərli millət vəkilləri ilə görüşlərdə onları hər zaman bizim təsisata dəvət edirəm.

2023-cü ildə bizim təsisatda müxtəlif komitələrlə görüşlər keçirmişik. Bu il ərzində də biz çox şad olarıq ki, dəyərli millət vəkilləri zaman ayırıb bizim təsisata gələrlər və öz dəyərli təklif və tövsiyələrini bizimlə bölüşərlər.

Biz səsləndirilən bütün digər təklif və tövsiyələri gələcək fəaliyyətimizdə nəzərə alacağıq. Bir daha təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Səbinə xanım. Hörmətli həmkarlar, xahiş edirəm, illik məruzənin nəzərə alınması barədə qərar layihəsinə münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.43 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qərar qəbul edildi.

Səbinə xanım, Sizə təşəkkür edirik və gələcək fəaliyyətinizdə uğurlar arzulayırıq. Sağ olun.

Hörmətli həmkarlar, biz işimizə davam edirik. Qeyd edim ki, gündəliyin növbəti 2 məsələsi möhtərəm cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub və mahiyyətcə də bir-birinə bağlıdır. 3-cü məsələ "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" və "Normativ hüquqi aktlar haqqında" Konstitusiya qanunlarında dəyişiklik edilməsi barədə Konstitusiya qanununun layihəsidir, 4-cü məsələ isə "Media haqqında" Qanunun icrası ilə əlaqədar bəzi qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir.

Qeyd edim ki, layihələr birinci oxunuşda müzakirəyə təqdim olunur.

Hörmətli həmkarlar, mən təklif edirəm, əvvəlcə biz qanun layihələrinin təqdimatlarını dinləyək, sonra isə müzakirəyə və səsverməyə keçək. Onu da deyim ki, hər iki layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitənin sədri, Milli Məclis sədrinin birinci müavini hörmətli Əli Hüseynliyə söz verirəm. Əli müəllim, buyurun.

**Ə.Hüseynli**, *Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri.*

Çox sağ olun, hörmətli xanım sədr. Gündəliyin 3-cü məsələsində 2 Konstitusiya qanunudur. Artıq söylədiyiniz kimi, bu "Media haqqında" Qanunun icrası ilə bağlıdır. Ona görə təklif olunur ki, "İnsan hüquqları üzrə müvəkkil haqqında" Konstitusiya Qanununda "kütləvi informasiya vasitələri" sözləri bütün mətn üzrə "media subyektləri" sözləri ilə əvəz edilsin.

Digər "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununda isə "kütləvi informasiya vasitələri" sözləri müvafiq olaraq 1-ci, 9-cu və 48-ci maddələrdə "media subyektləri", "media məhsullarında" və "mediada" sözləri ilə əvəz olunsunlar.

"Media haqqında" Qanunun tətbiqi ilə bağlı isə bir sıra qanunlara dəyişikliklər edilməsi nəzərdə tutulur. Bizim komitənin rəyi ilə Seçki Məcəlləsi, Cəzaların İcrası Məcəlləsi, Mənzil Məcəlləsi, Miqrasiya Məcəlləsi, İnzibati Xətalar Məcəlləsi, "Dövlət qulluğu haqqında" Qanun, həbs yerlərində saxlanılan şəxslərin hüquqlarının müdafiəsi ilə bağlı və digər qanunlarda müvafiq olaraq anlayışlar "Media haqqında" Qanunda qüvvədə olan anlayış-

larla əvəz olunur. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim. Hörmətli həmkarlar, 4-cü məsələyə Milli Məclisin daha 5 komitəsində baxılmışdır. Ona görə mən bir-bir həmin komitələrin təmsilçilərinə söz verəcəyəm.

Birinci İctimai birliklər və dini qurumlar komitəsində baxılmışdır. Komitənin rəyini bildirmək üçün mən Milli Məclis sədrinin müavini hörmətli Fəzail İbrahimliyə söz verirəm. Fəzail müəllim, buyurun.

**F.İbrahimli,** *Milli Məclis sədrinin müavini, İctimai birliklər və dini qurumlar komitəsinin sədri.*

Hörmətli Sahibə xanım, həmkarlar, komitənin rəyi müsbətdir. Səsə qoymaq olar.

**Sədrlik edən.** Çox sağ olun. Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsində baxılıb. Hörmətli Ziyafət müəllimdən xahiş edəcəyəm, bununla bağlı komitənin rəyini bildirsin.

**Z.Əsgərov,** *Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri.*

Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli həmkarlar, bizim də komitənin rəyi müsbətdir. Səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Ziyafət müəllim. Mədəniyyət komitəsində də baxılıb. Komitənin rəyini komitənin sədr müavini hörmətli Ülviyyə xanım Həmzəyeva bildirəcək. Ülviyyə xanım, buyurun.

**Ü.Həmzəyeva,** *Milli Məclisin Mədəniyyət komitəsi sədrinin müavini.*

Hörmətli xanım sədr, hörmətli deputatlar. Sözügedən qanun layihəsinə bizim komitəmizdə də baxılmışdır. Müsbət qəbul olunmuşdur. Xahiş edirəm, səs versinlər.

**Sədrlik edən.** Çox sağ olun. Əmək və sosial siyasət

komitəsində də baxılmışdır. Mən komitənin rəyini bildirmək üçün komitənin sədr müavini hörmətli Məlahət xanım İbrahimqızıya söz verirəm. Buyurun, Məlahət xanım.

**M.İbrahimqızı,** *Milli Məclisin Əmək və sosial siyasət komitəsi sədrinin müavini.*

Çox sağ olun, hörmətli Sahibə xanım. Bizim komitədə də baxıldı. Komitə üzvlərinin hər biri bu qanun layihəsini dəstəklədi. Etirazımız yoxdur. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində də baxılmışdır. Əli müəllim, sədr müavini kimi Sizə söz verəcəyəm. Buyurun.

**Ə.Məsimli,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi sədrinin müavini.*

Çox sağ olun, hörmətli sədr. İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin "Reklam haqqında" Qanuna dəyişikliklərə münasibəti müsbətdir. Səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Müzakirəyə keçirik. 2 nəfər yazılıb. Azay Quliyev. Buyurun.

**A.Quliyev.** Təşəkkür edirəm, hörmətli xanım sədr. Mən "Media haqqında" Qanunda dəyişikliklə əlaqədar qanun layihəsi ilə bağlı qısa bir məqama toxunmaq istəyirəm. Bu, uyğunlaşma xarakteri daşıyır. Biz bunu anlayırıq. Amma bu gün Azərbaycana qarşı, sözün əsl mənasında, informasiya müharibəsi aparılır və media subyektlərinin bu prosesdə, yəni Azərbaycanın maraqlarının müdafiə olunmasında rolu danılmazdır. Təbii ki, Azərbaycanda media siyasəti çox doğru və düzgün qurulubdur və bu istiqamətdə kifayət qədər işlər görülüb. Media Agentliyinin fəaliyyəti Azərbaycanda media subyektlərinin işlərinin tənzimlənməsində təqdirəlayiq bir nümunədir.

Digər tərəfdən, biz xaricdə Azərbaycan haqqında yazı-

lan yazıları təhlil etsək, görərik ki, Azərbaycan jurnalistikasının, Azərbaycan analitik yazarlarının xarici mətbuata çıxışı çox məhduddur. Bu da bizi ciddi şəkildə narahat etməlidir. Bu baxımdan da mənə belə gəlir ki, jurnalistika sahəsində, media sahəsində ixtisaslaşmış qeyri-hökumət təşkilatları bu istiqamətdə fəaliyyətlərini yenidən nəzərdən keçirməlidirlər, xarici həmkarları ilə yaxından işləməlidirlər. Necə ola bilər ki, Avropa ölkələrinin, demək olar, əksəriyyətində yazılan yazıların bəlkə də 100-də 99-u Azərbaycanın əleyhinədir? Bu, Azərbaycan haqqında ədalətsiz, haqsız bir informasiya çənbəri formalaşdırır. Biz Azərbaycana qarşı həyata keçirilən bu qarayaxma kampaniyasında ayrı-ayrı sifarişçi dairələri istisna etsək... Bəzi jurnalistlərin, bəzi media subyektlərinin də məsələnin mahiyyətinə varmadan yazdıqları yazılar əsas rol oynayır. Buna görə də mən çox istərdim ki, bizim bu sahədə yazarlarımız, analitik sahədə yazı yazmaq təcrübəsi olan şəxslərimiz daha fəal olsunlar və bu informasiya müharibəsində Azərbaycanın milli maraqlarının qorunmasında öz mövqelərini qəti şəkildə bildirsinlər və bu işə öz töhfələrini versinlər. Təşəkkür edirəm, xanım sədr.

**Sədrlik edən.** Sağ olun. Məlahət İbrahimqızı. Buyurun.

**M.İbrahimqızı.** Hörmətli xanım sədr, təkrar söz verdiyinizə görə çox sağ olun. Mən də, sözsüz ki, təqdim olunan qanun layihəsinə səs verəcəyəm, komitəmiz də dəstəklədi. Mənim hörmətli Əli müəllimə sualım var. Bildiyimiz kimi, media deyəndə bu gün hər kəs sosial media, rəqəmsal media haqqında düşünür. Rəqəmsal medianın və sosial medianın da bu gün dünyanın bütün ölkələrində, eləcə də beynəlxalq səviyyədə dövlətlər üçün yaratdığı müəyyən problemlər aktual məsələ kimi gündəmə gəlibdir. Burada əsas problemlər nədir? Dövlətin milli

təhlükəsizliyini təhdid edən müəyyən məsələlər.

2016-cı ildə Amerika Birləşmiş Ştatlarında artıq dezinformasiya ilə bağlı xüsusi dövlət departamenti, qurumlar yaradıldı. Avropa İttifaqına daxil olan ölkələrdə ittifaqın tövsiyəsi ilə belə qurumların yaranması prosesi gedir. Eyni zamanda, qardaş Türkiyədə dezinformasiya ilə bağlı mərkəz fəaliyyət göstərir. Bizim milli qanunvericiliyimizdə həm kiber təhlükəsizliklə, həm də milli təhlükəsizliklə bağlı müəyyən maddələr olsa da, çox təəssüf ki... Bayaq hörmətli Zahid Oruc da bu məsələyə toxundu. İstər daxildə, istər xaricdə, istər dövlətimizin ali rəhbərliyi ilə bağlı, istərsə də dövlətimizlə bağlı biz 44 günlük Vətən müharibəsində və ondan sonrakı dövrdə də gördük.

Hörmətli Əli müəllim, bu gün Azərbaycanda milli təhlükəsizliyimizin daha da güclü qorunması ilə bağlı, dezinformasiya ilə bağlı qəbul olunan qanunlara nəzarət üçün xüsusi qurumun yaradılması nə dərəcədə aktualdır? Bununla bağlı fikirlərinizi bilmək istərdik. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Sahib Alıyev. Buyurun.

**S.Alıyev.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, əslində, mən danışmaq istəmirdim, amma çox hörmətli Azay müəllim bizim jurnalistlərin, ümumiyyətlə, media təmsilçilərinin xaricdəki fəaliyyəti ilə bağlı məsələyə toxundu. Diqqətinizə çatdırmaq istəyirəm ki, ikinci Qarabağ savaşından sonra, ümumiyyətlə, qlobal media kimi təsbit olunan orqanlarda, – Amerikanın keçmiş prezidenti cənab Trampın “fake news” adlandırdığı kütləvi informasiya vasitələrindən  söhbət gedir. Orada nəinki Azərbaycanla bağlı həqiqətləri dərc etdirmək, hətta əvvəllər Azərbaycana qarşı böhtan yazılar yazılanda şərh yerində müəyyən rəy bildirmək olurdu. O rəylər indi mümkünsüzdür, qoymurlar, qarşısını alırlar.

Bu baxımdan mən demək istəmirəm ki, biz fəaliyyətsiz qalmalıyıq. Amma fikirləşirəm ki, Azay müəllimin irəli sürdüyü təklif hazırda ən azı Qərbdəki regional media üçün keçərlidir. Birmənalı şəkildə qlobal mediada belə bir siyasət də yeridilir və bunun da haradan qaynaqlandığı, yəqin ki, heç kəsə sirr deyil. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Sonuncu çıxış. Hikmət Məmmədov. Buyurun.

**H.Məmmədov.** Hörmətli xanım sədr, mən də hər şeydən öncə Azərbaycanın estafeti qəbul etməsi ilə əlaqədar olaraq Asiya Parlament Assambleyasına sədrliyin Azərbaycana keçməsi münasibəti ilə Sizi təbrik edirəm, parlamentimizi təbrik edirəm. Doğrudan da, bu, parlamentimizin tarixində mühüm bir hadisədir.

İkincisi. Mən danışmaq istəmirdim. Amma təşəkkür edirəm ki, belə düzəlişlərdən ibarət qanun layihəsi təqdim olunub. Həmkarlarımın dedikləri məsələlərlə bağlı – onlar media qurumları deyil. Çünki biz "Media haqqında" Qanunu qəbul edərkən medianın subyektinin kim olduğunu öz qanunlarımızda təsbit etdik və aydın şəkildə izah etdik ki, hüquqi kontekstdə bu adlar, bu status kimə şamil olunur.

Əlbəttə, çirkab bir informasiya ruhu var, amma o, heç bir halda media deyil. Mən düşünürəm ki, onlara qarşı mübarizə də elə media hüququ kontekstində deyil, tamamilə fərqli bir müstəvidə aparılmalıdır. Hörmətli Zahid müəllim bu məsələyə toxundu.

Terminlər çox gözəldir, mənim xoşuma gəlir. Məsələn, biz kütləvi informasiya vasitələrini media subyektləri və media vasitələri adlandırırıq. Bu, çox gözəldir. "Teleradio verilişləri təşkilatı". Görünür, biz Sovet dövründə işlətdiyimiz "peredaça" sözünü "veriliş" kimi tərcümə etmişik.

Doğrudan da, burada heç nə verməkdən söhbət getmir. Televiziya və radio informasiyanı yayır. Tamamilə doğrudur. Mən sevinirəm ki, gec də olsa, bunları düzəldirik.

Amma 8-ci maddədə qısa bir məsələ var. Mən ona öz fikrimi bildirmək istəyirəm. Ola bilsin, mən düzgün başa düşməmişəm. Amma hər halda. 8.2-ci maddədə qeyd olunur ki, "efir-kabel televiziya" termini əvəzinə bundan sonra "yayım və retranslyasiya" sözlərini işlədəcəyik. "Retranslyasiya" sözü bir az dilimizə yatmır. Media mənsubları özləri belə bunu tələffüz etməkdə çətinlik çəkəcəklər. Məncə, bunun qarşılığı "yayım və təkrar yayım" ola bilər. Əgər bu, nəzərə alınarsa, çox şad olaram. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Elə Sizin bu təklifiniz ikinci oxunuşda nəzərə alınar. Sabir müəllim, çıxış etmək istəyirsiniz? Buyurun. Birinci oxunuşdur, Sabir müəllim.

**S.Rüstəmxanlı.** Mən də Sizi Asiya Parlament Assambleyasının Bakıda toplantısının çox yüksək səviyyədə keçirilməsi və sədrliyin Azərbaycana ötürülməsi münasibəti ilə təbrik edirəm. Bu kimi tədbirlər, yəni bundan əvvəl də Qoşulmama Hərəkatı toplantısının Bakıda keçirilməsi, çox böyük beynəlxalq təşkilatların Azərbaycana gəlməsi, Azərbaycanı mərkəz seçməsi ölkəmizin nüfuzunun nə qədər artdığını göstərir. Bu mənada, əslində, bizim narahatlığımıza elə bu şeylər cavab verir. Dünyanın media orqanları, qəzetləri, jurnalları Azərbaycanın əleyhinə nə qədər yazır, Azərbaycan isə öz yolu ilə gedir. Mənə elə gəlir, bu, elə ən doğru yoldur.

Filan qəzet, jurnal bizim haqqımızda nə yazır deyə, təşvişə düşməkdənsə, ölkə içində sabit ideoloji bir xətlə, bizdə köhnə bir söz var, ağayana, heç nəyi böyütmədən, insanlarımızın rifah halını yaxşılaşdırmaqla, ölkədəki

quruculuğun sürətini artırmaqla, seçdiyimiz yolla rahat getməklə bəlkə cavablarını verə bilərik. Məncə, əsas yol budur, ölkənin özüdür, daxilidir, özünə inamıdır, özünə seçdiyi yola, öz gücünə, doğruluğuna inamıdır. Azərbaycan bu yolla hər şeyə cavab verə bilər. Yoxsa bütün qəzetlərin, jurnalların hər yazdığına cavab vermək, məncə, əsas yol deyil.

Əlbəttə ki, mətbuat da cavabsız qala bilməz. Bundan ötrü Azərbaycan mətbuatı, burada yazılan məqalələr təsirli olmaz. Mənim gördüyüm əsas yol belədir ki, bütün səfirliklərimizdə hərbi attaşelər, qurumlar var. Mən indi səfirliklərin içərisini bilmirəm. Amma xarici ölkələrdəki hər səfirliyimizdə bir mətbuat nümayəndəsi, o ölkənin mətbuatını izləyən, məncə, olmalıdır. O nümayəndələr ardıcıl olaraq bunu sistemləşdirə bilər, o ölkəyə necə cavab verməklə bağlı bizim Xarici İşlər Nazirliyimizə məlumat ötürə bilər, yaxud özləri orada bu işləri təşkil edə bilərlər.

İkinci bir xətt, məncə, bizim diaspor təşkilatlarının güclənməsidir. Diaspor təşkilatlarında yenə xarici mətbuatla və Azərbaycan əleyhinə aparılan işlə bağlı yerli adamlara orada yaşayan vətəndaşlarımızın etirazını təşkil etməkdir. Bu iki xətt çox mühümdür. Məncə, bunu nəzərə almaq lazımdır. Təbii ki, dünya birtərəfli deyil. Dediyim kimi, müəyyən ölkələr Azərbaycanın haqlı olduğuna dair artıq səslərini ucaldırlar. Əgər biz öz xəttimizi ardıcıl və doğru davam etdirsək, güman edirəm, bu səs güclənəcək. Azərbaycan öz bütövlüyünü bərpa edib. Azərbaycan bu gün dünyada eybəcər nümunələri olan müharibə üsullarından istifadə etməyib. Azərbaycan haqlıdır. Haqlı olduğumuza görə də biz güclüyük və bu gücümüz bizim sonrakı addımlarımızda ildən-ilə daha da aydın görünəcək. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, Məlahət xanımdan sual səsləndi. Əli müəllim, xahiş edirəm, cavablandırın. Hikmət müəllimin sualına cavabınız isə ikinci oxunuşda Siz tərəfdən təqdim olunar. Buyurun.

**Ə.Hüseynli.** Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli deputat həmkarlar, mən informasiya təhlükəsizliyi məsələləri ilə bağlı sizin narahatlığınızı bölüşürəm. Çünki bir sıra təhdidlər var və onların qarşısı, həqiqətən də, alınmalıdır.

Qanunvericilik baxımından vəziyyət belədir ki, biz “Media haqqında” Qanunu sizinlə birgə işlədik, hazırladıq, qəbul etdik, bütün məsələləri nəzərə aldıq. Ondan sonra qanunvericiliyin pozulmasına görə, hesab edirəm, bizim cəza siyasətimiz, həm inzibati, həm də cinayət məsuliyyəti tam yerindədir.

O ki qaldı hansı xüsusi qurumlar məsələsinə, hörmətli Məlahət xanım, əlbəttə, mövcuddur. Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti, hesab edirəm, kifayət qədər peşəkar fəaliyyət göstərib. Mən öz bildiyimi deyə bilərəm ki, məncə, texniki vasitələrin istifadəsi məsələsidir. Yəni qanunvericilik də yerindədir, həmin xüsusi orqan da var. Onların da kifayət qədər çox müasir texniki avadanlıqları mövcuddur. Məncə, problem ancaq onların tətbiqi məsələsidir və bizim ölkə miqyasında onları eləmək nə dərəcədə səmərəlidir. Çünki böyük ölkələrdə, bilirsiniz, daha sərt istifadə edirlər. Türkiyədə də onların imkanları kifayət qədər genişdir. O mənada ki, orada əhali də çoxdur. Elə burada səslənən fikirləri dəstəkləyirəm ki, mümkün olduqca o təkliflərə də mümkün cavabları vermək lazımdır. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim. Hörmətli həmkarlar, biz səsverməyə keçirik. Xatırladım ki, Azər-

baycan Respublikası Konstitusiyasının tələbinə görə, Konstitusiya qanunu Milli Məclisdə 95 səs çoxluğu ilə qəbul olunmalıdır. Biz indi 3-cü məsələyə keçəcəyik, ona görə xatırladıram. 3-cü məsələ üzrə səsverməyə xüsusilə diqqət verərsiniz. İndi isə "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" və "Normativ hüquqi aktlar haqqında" Konstitusiya qanunlarında dəyişiklik edilməsi barədə Konstitusiya qanunu layihəsinə səs verin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.02 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, indi isə 4-cü məsələnin səsverməsinə keçirik. Xatırladım ki, bu, "Media haqqında" Qanunun icrası ilə əlaqədar bəzi qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Münasibət bildirin, buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.03 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu qanun layihəsi də birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, fasilə zamanıdır.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Hamı razıdır? Səsə qoyum, yoxsa?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Hamı razıdır. Beləliklə, 5-ci məsələyə keçirik. Bu məsələ də "Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatı arasında Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü Sessiyasının 2026-cı ildə Bakı şəhərində keçirilməsi üçün Ev Sahibi Ölkəyə dair Saziş"in təsdiq edilməsi haqqında qanun layihəsidir. Bildiyiniz kimi qanun layihəsi beynəlxalq sənədlə bağlı olduğuna görə "Normativ hüquqi aktlar haqqında" Konstitusiya qanununun tələbinə əsasən bir oxunuşda baxılıb qəbul edilməlidir. Qeyd edim ki, layihəyə Mədəniyyət komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitənin üzvü hörmətli Cavanşir Feyziyevə söz verirəm. Cavanşir müəllim, buyurun.

**C.Feyziyev,** *Milli Məclisin Mədəniyyət komitəsinin üzvü.*

Çox sağ olun, hörmətli xanım sədr. Ümumdünya Şəhərsalma Forumu 2001-ci ildə BMT tərəfindən təsis olunub. Məqsəd dünyanın üzləşdiyi ən aktual problemlərdən biri olan sürətli urbanizasiya və onun şəhərlərə, iqtisadiyyatlara və iqlim dəyişikliyinə təsirini tənzimləməkdən ibarətdir. BMT tərəfindən qəbul edilmiş müvafiq qətnaməyə əsasən bu forum şəhərsalma fəaliyyətində fəal iştirak edən dünyanın nüfuzlu şəhərlərindən birində iki ildən bir keçirilir. İlk Ümumdünya Şəhərsalma Forumu 2002-ci ildə Keniyanın Nayrobi şəhərində keçirilib. Forumun növbəti 12-ci sessiyası BMT ilə Misir hökumətinin birgə təşkilatçılığı ilə bu ilin noyabr ayında Misirin Qahirə şəhərində keçiriləcək.

Diqqətinizə təqdim olunan bu saziş Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü Sessiyasına ev sahibliyi edəcək Azərbaycan və BMT arasında xüsusi imtiyazlar və immunitetlər, ölkə ərazisinə sərbəst giriş-çıxış hüququ, tədbir üçün tələb olunan texniki avadanlıqların və digər malların idxal-ixrac icazələri, eləcə də mühafizə və digər təşkilati məsələləri tənzimləmək məqsədi ilə 2023-cü il dekabrın 22-də Bakı şəhərində imzalanıb. Bundan əlavə, sazişə ev sahibi olan ölkədən tələb olunan təşkilati tədbirlərə konfransın keçirildiyi yer, qeydiyyat və akkreditasiya üzrə xidmətlər və tələblər, şəhər daxilində, ətrafında və məkan daxilində BMT təhlükəsizlik qaydalarına uyğun mühafizə xidmətləri və avadanlıqlar, tədbir üçün tərcümə xidmətləri, ölkədə, şəhərdə və məkanda müvafiq insan resursları və logistika ehtiyaclarının təmin edilməsi aiddir.

Sənədə uyğun olaraq, forumun 13-cü sessiyasının 2026-cı il oktyabrın 12-dən 16-dək Bakı şəhərində yerləşən Heydər Əliyev Mərkəzində keçirilməsi planlaşdırılır. Sazişin təfsiri və ya tətbiqi ilə bağlı yarana biləcək hər hansı mübahisələr yalnız qarşılıqlı məsləhətləşmələr və danışıqlar yolu ilə həll olunur. Tərəflər və ya onların müvafiq nümayəndələri arasında təşkilati tədbirlərə və ya maliyyə məsələlərinə dair digər müqavilələr də imzalana bilər. Sazişin yekun müddəalarına əsasən ona dəyişikliklər və əlavələr də edilə bilər. Bu sazişin hər hansı müddəası ilə bağlı qeyd-şərt verilə bilməz.

Hörmətli sədr, sazişin təsdiq olunması üçün səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Cavanşir müəllim. Səməd müəllim, bu məsələyə sizin komitənizdə də baxılıb. Xahiş edirəm, komitənin rəyini bildirin. Buyurun.

**S.Seyidov.** Çox sağ olun, hörmətli Sahibə xanım. Hörmətli Cavanşir müəllim həm də bizim komitəmizin üzvüdür. Bu saziş haqqında geniş və ətraflı məlumat verdiyinə görə hamımız alqışlayırıq və komitəmizdə çox müsbət qarşılanıb. Bu, Azərbaycanın xarici siyasətinin növbəti uğurudur. Ümumiyyətlə, Azərbaycanın uğurudur. Çox böyük bir konfransdır.

Heç də təsadüfi deyil ki, Azərbaycanın uğurları haqqında danışan cənab Prezident bu il noyabr ayında COP29 və bu saziş, bu konfrans haqqında söhbət açmışdır. Ona görə ki, dünyanın diqqəti bu gün tamamilə başqa istiqamətə yönəlməyə başlayıb. Ekoloji məsələlər, urbanizasiya məsələləri, insanların rifahı bu gün çox əhəmiyyətlidir. Bu cür forumun Azərbaycanda keçirilməsi yalnız hansısa növbəti bir tədbir deyil, əsla belə deyil, bu, Azərbaycanın böyük bir uğurudur, Azərbaycanın apardığı siyasətə dünyanın dəstək verməsinə bir işarədir. Ona görə, təbii ki, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi bunun lehinədir. Mən həmkarları da lehinə səs verməyə çağırıram. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. İki nəfər çıxış etmək istəyən var. Qüdrət Həsənquliyev. Buyurun.

**Q.Həsənquliyev**. Sağ olun, hörmətli sədr. Mənim, sadəcə olaraq, Cavanşir müəllimə bir sualım var. Biz görürük ki, müasir dövrdə hətta Avropanın çox inkişaf etmiş ölkələri belə bahalı idman tədbirlərinin keçirilməsindən, yaxud digər bu xarakterli tədbirlərdən məhz maliyyə vəsaitlərinin çox xərclənməsinə görə imtina edirlər. Bu forumun da ilk tədbiri Nayrobidə keçirilib. Keniya da kasıb bir ölkədir. Sonra Qahirədə keçirilib. İndi də 2026-cı ildə Bakıda keçirilməsi planlaşdırılır. Mən istəyərdim, millət vəkillərinə məlumat verilsin ki, nə qədər qonaq

gözlənilir və Azərbaycan dövləti bu tədbirin keçirilməsi üçün nə qədər vəsait xərcləyəcək.

Açıq etiraf eləyək ki, bizə indi Qarabağın bərpası üçün böyük vəsaitlər lazımdır. Dünya birliyi bizə bu istiqamətdə kömək eləmir. Azərbaycanın bu dəqiqə hər qəpiyə, hər manata böyük ehtiyacı var. Cənab Prezident də çıxışlarının birində söyləmişdir ki, biz vəsaitlərdən maksimum dərəcədə qənaətlə istifadə eləməliyik. Yəni bunun Azərbaycana faydası nədən ibarət olacaq? Biz, onsuz da, Allah qoysa, noyabr ayında COP29-u Bakıda keçirəcəyik. Çox nüfuzlu bir tədbirdir. O da ekologiya ilə bağlıdır. Daha sonra 2026-cı ildə təqribən oxşar bir tədbirin keçirilməsinə nə ehtiyac var? Əgər Cavanşir müəllimin cavab vermək imkanı varsa, məlumatlar varsa, istəyərdim ki, bu barədə məlumat versin. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Aydın Hüseynov. Buyurun.

**A.Hüseynov**. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Qanun layihəsinin təqdimatında da səsləndi ki, forumun Bakıda keçirilməsi Azərbaycanın birinci növbədə siyasi nüfuzunun göstəricisidir. İkinci növbədə isə forumda həll olunacaq, yəni gündəlikdəki o məsələlərdən hansı biri Azərbaycandan nümunə götürülə bilər? Ümumiyyətlə, bu sahədə Azərbaycanın həyata keçirdiyi layihələr, nəticələr nədən ibarətdir? Urbanizasiya məsələlərinə həsr olunur. Urbanizasiya isə şəhərlərə, iqtisadiyyata və iqlim dəyişikliyinə olan təsirlərin aradan qaldırılması, bu sahədə görülən işlərdir.

Biz qeyd etdik ki, bu tədbirin Azərbaycanda keçirilməsi siyasi nüfuzla yanaşı, indiyə qədər ölkəmizin bütün bu kimi tədbirlərə çox yüksək tərzdə ev sahibliyi etməsidir. Beynəlxalq qurumlarda Azərbaycanın nüfuzunun yüksək olması praktiki baxımdan bu işlərin yüksək tərzdə həyata

keçməsinin nümunələrini ortaya qoydu. Asiya Parlament Assambleyasının 14-cü plenar iclasının Azərbaycanda keçirilməsi, sədrliyin Azərbaycana keçməsi də təsadüfi deyil. Çünki Azərbaycan, qeyd etdiyim kimi, bütün bu kimi tədbirlərə yüksək tərzdə rəhbərlik edərək o qurumların, o platformaların nüfuzunu qaldırır.

Hörmətli xanım sədr, mən də həmkarlarım kimi, birinci növbədə, Sizi təbrik edirəm. Eyni zamanda, bu plenar iclasda nümayəndə heyətinin üzvü kimi iştirak edirdik. Bütün iştirakçılar Azərbaycanda təşkil olunan bu tədbirin təşkilati baxımdan, operativlik baxımından nümayəndə heyətini qane edəcək yeni nümunələrin ortada olduğunu qeyd edirdilər. Bu tədbirin bu tərzdə keçirilməsinə görə Sizə təşəkkürlərini bildirirlər və biz də onu Sizə çatdırırıq. Hətta Banqladeş nümayəndə heyəti üzvləri şənbə günü olmasına baxmayaraq, xahiş etmişdilər ki, bizim parlamentə gəlsinlər, çünki onlara bizim şəraitimiz çox maraqlı idi. Çox sağ olun, bir daha təşəkkür edirik ki, Siz bu şəraiti yaratdınız, Banqladeş nümayəndə heyətinin üzvləri bu zalda oldular, bizim Milli Məclisimizin iş şəraiti ilə tanış oldular və çox yüksək dəyərləndirdilər. Mən bu fikirləri nəyə görə deyirəm? Bakı şəhəri özü... Çünki orada şərt qoyulur ki, tədbir o şəhərdə keçirilməlidir ki, bu şəhərsalma prosesində fəal iştirak etsin. Bakı şəhərini isə Xəzər dənizinin incisi adlandırırlar. Yəni bu tədbirin keçirilməsi üçün də Bakı bu sahədə öz nailiyyətlərini, gözəlliyini ortaya qoyubdur, şəhərsalma prosesində yüksək tərzdə iştirak edərək artıq Xəzərin incisi statusunu qazanıb.

Digər məsələ isə urbanizasiyadır. Urbanizasiya – regionlardan şəhərlərə gəlmənin qarşısının alınması prosesinin həllinə yönələn məsələdir. Bu sahədə də Prezident

İlham Əliyevin müəllifi olduğu “Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı” layiqincə və ləyaqətlə həyata keçirilərək çox böyük addımlar atılıbdır. Əgər 1990-cı illərin əvvəllərində Bakı şəhərinə nə qədər insan axını var idisə, indi biz artıq regionlara insan axınını görürük. Əgər ölkə 310 milyard dollar investisiya qoymuşdursa, bu investisiyanın 104 milyard dolları regionlara qoyulub. Bu gün regionlarla  Bakı arasındakı hər mənada fərqlər, demək olar ki, aradan qaldırılıb. Bu isə Azərbaycanın bir daha nümunə göstəriləcək bir məkan olduğunu sübut edir.

İqlim dəyişikliyi. İqlim dəyişikliyi ilə bağlı Azərbaycan böyük layihələr həyata keçirir: yaşıl enerji, alternativ enerji sahəsindəki gələcək çağırışları indidən qabaqlamaq, eləcə də COP29-un Azərbaycanda keçirilməsi. Yəni forumun Bakıda, Azərbaycanda keçirilməsi üçün qarşıya qoyulan o proseslərin və problemlərin həllində Azərbaycan böyük nümunə göstəribdir.

Digər tərəfdən, Azərbaycan dünyada ədalətli mövqeyi ilə fərqlənir. Dünyada gedən proseslərə, ümumiyyətlə, bəşəriyyət üçün qlobal məsələlərə həmişə münasibətini bildirib. Ölkə Prezidentinin pandemiyada digər ölkələrə yardımı ilə, humanitar yardımla yanaşı, vaksinlərin ədalətlə bölünməsi kimi böyük qlobal məsələlərə Azərbaycan öz mövqeyini daim bildirmişdir. Hesab edirəm ki, bu forum da Azərbaycanda uğurla həyata keçəcəkdir. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Məlahət İbrahimqızı. Buyurun.

**M.İbrahimqızı**. Mənə bir daha söz verdiyinizə görə çox təşəkkür edirəm, Sahibə xanım. Mən də hörmətli həmkarımız Cavanşir müəllimin təqdim etdiyi qanun layihəsindən, Azərbaycanda keçiriləcək Ümumdünya Şəhərsalma Forumu ilə bağlı bir azərbaycanlı kimi qürur

duyduğumu bildirirəm. Bildiyimiz kimi, COP29-la Ümumdünya Şəhərsalma Forumunun bir-birinə yaxın dövrlərdə keçirilməsi bir həftə ərzində qəbul olunan qərarlardır. BMT-nin saytında da yazmışdılar ki, Azərbaycan uğurlu diplomatiyası sayəsində XXI əsrdə dünya üçün ən aktual forumlara ev sahibliyi edəcək. Sözsüz ki, bu, möhtərəm Prezidentimizin uğurlu diplomatiyasıdır.

Hökmən qeyd etmək lazımdır ki, 44 günlük Vətən müharibəsindən sonra möhtərəm Prezidentimizin beynəlxalq aləmdə apardığı bu uğurlu diplomatiya sayəsində Azərbaycanla BMT arasında ən məşhur proqramlar həyata keçirilir. Ən nüfuzlu proqramlardan biri də, bildiyimiz kimi, “United Nations Habitat”dır və bunun rəhbəri Maimunah xanım iki dəfə Azərbaycanda oldu. İki dəfə forum keçirildi. BMT-nin Məskunlaşma Proqramı (UN-HABITAT) və Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin birgə əməkdaşlığı, ADA Universitetinin təşkilati dəstəyi ilə ilk dəfə Ağdamda, sonra isə Zəngilanda keçirilən bu Milli Şəhərsalma Forumu dünyada Azərbaycana qarşı aparılan ermənipərəst informasiya hücumunun qarşısında gözəl, konkret bir fakt idi. Hesab edirəm ki, Polşa da yoxsul ölkə deyil.  Bəli, ilk dəfə 2002-ci ildə Afrikada keçirilibdir. Amma elə Misirdə – neçə milyonluq ölkənin paytaxtında keçirilən bu tədbiri yoxsul ölkələrin ayağına yazmaq olmaz. XI forum da Avropanın mərkəzi ölkələrindən biri olan Polşada keçirilib. Hesab edirəm ki, Azərbaycanın gələcək inkişaf mərhələsində bugünkü uğur hekayələrinin içərisində bu konfransın da böyük əhəmiyyəti olacaqdır. Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü Sessiyasının Azərbaycanda keçirilməsi, həqiqətən, qürurvericidir. Çox sağ olun. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Vüqar müəllim, sualınız var? Buyurun.

**V.Bayramov**. Çox təşəkkür edirəm, hörmətli xanım sədr. Sadəcə, bir qeydi qeyd etmək istərdim ki, bu, urbanizasiya forumu deyil, urban forumudur, şəhərsalma ilə bağlı forumdur. Yəni bu, urbanizasiya prosesi ilə bağlı bir forum deyil, bu, birbaşa şəhərsalma ilə bağlı forumdur. Bunlar fərqli terminlərdir. Sadəcə, onu qeyd etmək istədim. Çox sağ olun.

**Sədrlik edən.** Kökü birdir də, ona görə səhv salınır. Cavanşir Feyziyev. Buyurun.

**C.Feyziyev**. Çox sağ olun, xanım sədr. Mən hörmətli həmkarımız Qüdrət Həsənquliyevin suallarına aydınlıq gətirmək üçün söz aldım. Birincisi, vaxt baxımından COP29 və Ümumdünya Şəhərsalma Forumunun keçirilmə tarixləri arasında iki il fərq var. Azərbaycan hökuməti üçün, yaxud Azərbaycan büdcəsi üçün heç bir problem yaratmadığını düşünürəm. İkincisi, maliyyə məsələləri ilə bağlı sualı bu gün bizim cavablandırmaq imkanımız yoxdur. Çünki bu, BMT ilə Azərbaycan hökuməti arasında qarşıdakı iki il ərzində aparılacaq danışıqlar və məsləhətləşmələr yolu ilə müəyyənləşdiriləcək bir məsələdir və zamanı çatanda bu barədə ancaq hökumətin müəyyən etdiyi təşkilat komitəsi məlumat verə biləcək.

Digər tərəfdən, belə bir beynəlxalq tədbirin Azərbaycanda keçirilməsi zərurətinə gəldikdə, hesab edirəm ki, bu gün urbanizasiya ilə, əhalinin sağlamlığının qorunması ilə bağlı dünya miqyasında qəbul olunmağa çalışılan qərarlar bütün dünya ölkələri üçün, bütün hökumətlər üçün məcburidir, zəruridir. Qəbul olunan qərarlara, qətnamələrə uyğun olaraq, urbanizasiya proseslərinin aparılması məhz hökumətlərin üzərinə düşən bir vəzifədir. Hazırda Azər-

baycanda Qarabağ və Şərqi Zəngəzurda gedən işlər, orada yeni şəhərlərin, yeni yaşayış məskənlərinin salınması da bu işlərin bir hissəsidir. 30 il ərzində erməni işğalçıları tərəfindən xarabalığa çevrilmiş yerlərdə salacağımız yeni şəhərlərin, kəndlərin dünyanın ən müasir standartlarına uyğun olduğu halda, Azərbaycan hökumətinin urbanizasiya ilə bağlı əhalinin sağlamlığına verilən ziyanı nə dərəcədə azalda biləcəyini və insanların sağlamlığı ilə bağlı dünyanın ən müasir standartları çərçivəsində yeni şəhərlərin, "ağıllı şəhər"lərin, "ağıllı kənd"lərin salınmasını təmin edərək bunu bütün dünyaya göstərmək şansı var. Azərbaycan hökumətinin belə bir fürsəti əldən verməsini məqsədəuyğun hesab etmək düzgün olmazdı.

Hesab edirəm ki, bu forumun 2026-cı ildə Azərbaycanda keçirilməsi xüsusilə əhəmiyyətlidir. Ona görə ki, həmin ilə qədər ən azı 150 min adam Qarabağa və Şərqi Zəngəzura köçmüş olacaq. Azərbaycanın bütün nailiyyətlərini dünyaya təqdim etmək baxımından bu forumun ölkəmizdə keçirilməsi məqsədəuyğundur. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Səməd müəllim, komitənin rəyini bildirdiniz. İndi çıxışınızdır. Buyurun.

**S.Seyidov**. Bəli, hörmətli Sahibə xanım. Biz komitənin rəyini bildirdik. Əslində, çıxış edən həmkarlar artıq Qüdrət müəllimin sualına cavab verdilər. Biz Afrikada, Keniyada və Misirdə keçirilmiş bu forumla bağlı münasibətimizi düzgün qiymətləndirməliyik. Birləşmiş Millətlər Təşkilatı bu məkanları yalnız ona görə seçməyib ki, bura Afrikadır. Məlahət xanım da qeyd elədi. Seçimdə bir prinsip var idi. Bu məkanlar müasir dövrdə öz inkişaf potensialını nə dərəcədə gündəmə qoya biləcəklər? Biz bu yaxınlarda Keniyanın Nayrobi şəhərində nümayəndəlik də açdıq. Yəni bu gün Afrikada hətta bir deyil, iki nüma-

yəndəlik açmışıq. Həm nümayəndəlik, həm də Birləşmiş Millətlər Təşkilatının nümayəndəliyi. Bu gün Misir templərinə görə ən inkişaf edən ölkələrdən biridir. Məlahət xanım Polşanı qeyd etdi. Burada çox ciddi siyasi bir məsələ var ki, Azərbaycan bu gün dünyada hansı potensiala malikdir. Bu nöqteyi-nəzərdən belə bir ümumdünya forumunun burada keçirilməsi həddindən artıq vacib və əhəmiyyətli məsələdir. Mən bunu burada qeyd etmək istədim. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Səməd müəllim. Çox düzgün buyurdunuz. İndi isə, hörmətli həmkarlar, mən qanun layihəsini səsə qoyacağam. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.22 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 1 |
| Bitərəf | 1 |
| Səs vermədi | 1 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyin 6-cı məsələsinə keçirik. Bu, Abşeron rayonunun inzibati ərazi bölgüsündə qismən dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Qeyd edim ki, inzibati ərazi bölgüsü ilə bağlı olduğuna görə bu qanun layihəsi də bir oxunuşda baxılıb qəbul ediləcək. Layihəyə Regional məsələlər komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitənin sədri hörmətli Siyavuş Novruzova söz verirəm. Siyavuş müəllim, buyurun.

**S.Novruzov**, *Milli Məclisin Regional məsələlər komitəsinin sədri.*

Təşəkkür edirəm, hörmətli xanım sədr. İlk növbədə mən də həmkarlarım kimi Sizi çox yüksək səviyyədə keçirdiyiniz bu tədbirlər münasibəti ilə təbrik edirəm. Çox böyük təşkilatçılıq işi idi. Biz gün ərzində şahidi olurduq ki, müxtəlif ölkələrin parlament sədrləri, nümayəndə heyətləri ilə, demək olar, hər gün parlamentdə görüşlər, qəbullar keçirilir, Azərbaycan həqiqətləri onların diqqətinə çatdırılır. Buna görə öz təşəkkürümüzü, minnətdarlığımızı bildiririk.

Nəzərinizə çatdırım ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən qanunvericilik təşəbbüsü qaydasında təqdim olunmuş Abşeron rayonunun inzibati ərazi bölgüsündə qismən dəyişiklik edilməsi haqqında qanun layihəsində "Yeni Şəfəq" adlı qəsəbənin yaradılması təqdim olunur. Bildiyiniz kimi, "Abşeron rayonunun inzibati ərazisində məcburi köçkün ailələrinin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 21 fevral tarixli 1346 nömrəli Sərəncamına uyğun olaraq, Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sifarişi ilə salınmış və 2018-ci ildə istifadəyə verilmiş yaşayış kompleksinin rayon ərazisindən olan inzibati ərazi dairələrinin tərkibindəki yaşayış məntəqələrindən uzaq olması, burada məskunlaşmış əhalinin inzibati ərazi dairəsinin mərkəzi ilə əlaqə saxlamasının təmin edilməsi, onların mədəni-sosial ehtiyaclarının ödənilməsi, habelə yaşayış kompleksinin ərazisində dövlət funksiyalarının həyata keçirilməsinin səmərəliliyinin artırılması və dövlət orqanlarının əhaliyə mümkün qədər yaxınlaşdırılması

həmin yaşayış kompleksinin ərazi vahidi kimi qeydə alınmasını və ayrıca inzibati ərazi dairəsi yaradılmasını şərtləndirir.

Qeydə alınaraq və qəsəbə statusu verilməklə "Şəfəq" adlandırılacaq yaşayış məntəqəsinin ərazisində faktiki yaşayan əhalinin sayı 8850 nəfərdir. Onun inzibati ərazisinin isə dövlət mülkiyyətində olmaqla 258 hektar təşkil edəcəyi nəzərdə tutulur. Sözügedən ərazidə indiyədək, ümumilikdə, 4043 mənzil olmaqla 88 bina, 2 tam orta məktəb, 2 uşaq bağçası, 2 klub-icma mərkəzi, 1 musiqi məktəbi, 1 poçt şöbəsi, 1 tibb məntəqəsi və 1 polis məntəqəsi inşa edilmişdir. Bu ərazi Abşeron rayonunun Xırdalan qəsəbəsindən 20 kilometr, Abşeron rayonunun Ceyranbatan qəsəbəsindən 5 kilometr, Sumqayıt şəhərindən 3,5 kilometr, Sumqayıt şəhər stansiyası, Sumqayıt yaşayış massivindən 2 kilometr aralıqda yerləşir. Qeyd edək ki, bunun adı ilə bağlı Toponimiya komissiyası toplanmışdır və həmin komissiyada hörmətli İsa müəllimin rəhbərliyi ilə "Şəfəq" adının verilməsi ilə əlaqədar qərar qəbul olunmuşdur.

Bir şeyi də nəzərə çatdırım. Ola bilər, həmkarlarımız arasında bu məsələ ilə əlaqədar fikir ortaya çıxa bilər. Xatırlayırsınızsa, cənab Prezident hələ 2003-cü ildə Prezident seçildiyi dövrdə bəyan etmişdir: "Mənim prezidentliyim dövründə heç bir çadır şəhərciyi, o cümlədən vaqon şəhərciyi olmayacaqdır". Bayaq da burada qeyd olundu. Dövlət Neft Fondunda olan vəsaitlər hesabına qaçqınlar və məcburi köçkünlər üçün bir çox qəsəbələr salınmışdır. Bunlar onlarca böyük qəsəbədir. Təxminən 100-ə yaxın belə qəsəbə salınıbdır. Ona görə də biz məsələ qaldırdıq ki, bizim bu qələbəmizin nailiyyətləri ilə əlaqədar qəsəbə adları Zəfər, Hünər, Polad, Mübariz və digər adlarla əhatə olunsun.

Qeyd olundu ki, daha böyük yaşayış məntəqələri mövcuddur. Yəqin ki, onlar da Milli Məclisə təqdim olunacaqdır. Bütün məsələlər nəzərdə tutulubdur, gələcəkdə onlar təqdim olunacaqdır. Ona görə də kiminsə adla bağlı hansısa narahatlığı varsa, olmasın. Deputat həmkarlarımı bu qanun layihəsinə səs verməyə çağırıram. Qeyd etdiyimiz kimi, bu məsələ qəsəbə statusunun verilməsi, adın verilməsi və Abşeron rayonunun ərazisinə tabe edilməsi ilə bağlıdır. İndiyə qədər Qaçqınlar və Məcburi Köçkünlər komitəsinin tabeliyində idi, artıq rayon tabeliyinə verilən bir ərazidir. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Siyavuş müəllim. Çox ətraflı məlumat verdiniz. Səsə qoymaq təklifi var. Təkid eləyənlər yoxdursa, mən səsə qoyacağam. Fəzail Ağamalı və Razi Nurullayev. İki nəfər. Onda elə Hikmət müəllim də gərək təkid edə. Fəzail müəllim, buyurun.

**F.Ağamalı.** Təşəkkür edirəm, hörmətli xanım sədr. Vaxtınızı çox almayacağam. Əlbəttə, cənab Prezidentin imzalayıb bizə təqdim etmiş olduğu belə bir qanun layihəsini qəbul edəcəyik və bunu alqışlamalıyıq. Çünki insanlarımızın həyat şəraitinin yaxşılaşdırılmasına xidmət edən bir yanaşmadır. Siyavuş müəllim də məsələ haqqında ətraflı məlumat verdi. Sadəcə olaraq, bir təkliflə çıxış etmək istəyirəm. Bəlli olduğu kimi, Şəfəq qəsəbəsinin əhalisinin, daha doğrusu, sakinlərinin xeyli hissəsi şəhid ailələri və müharibə əlilləridir. Yəni 2020-ci ildə Vətən müharibəsindən sonra, bəlli olduğu kimi, məcburi köçkünlər üçün tikilib nəzərdə tutulan bu cür yaşayış evləri cənab Prezidentin gəlmiş olduğu fikirlə, qənaətlə və vermiş olduğu qərarla artıq dayandırıldı. Həmin binaların şəhid ailələrinə və müharibə əlillərinə verilməsi prosesi başladı. Artıq burada da kifayət qədər o cür insan var. Ona

görə də nəzərdə tutmalıyıq və Siyavuş müəllimin də dediyi kimi, orada 8850 nəfər yaşayır. Böyük yaşayış massividir və orada yeni iş yerlərinin açılmasına, mənə elə gəlir, ciddi ehtiyac var. Həmin ərazi 256 hektar sahəni əhatə edir. Ona görə də mən təklif edərdim ki, İqtisadiyyat Nazirliyi, eyni zamanda, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi bu məsələ ilə bağlı xüsusi proqram hazırlasınlar. Ola bilsin, həmin yerdə xüsusən ev məhəlləsi hazırlansın, kiçik və orta istirahət sahələri yaradılsın ki, həmin insanlar orada işlə təmin edilsinlər. Düşünürəm ki, bu, həm də onların sosial məsələlərinin həllində çox ciddi addım olardı. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Mən düşünürəm, təbii ki, bu haqda düşünülüb. Ancaq yenə də təklif verdiniz. Razi müəllim, çıxış eləməyə təkid eləyirsiniz? Buyurun.

**R.Nurullayev.** Təşəkkür edirəm, xanım sədr. Deyəcəyim bu məsələ həm Şəfəq qəsəbəsinə, həm də Bakının müxtəlif ərazilərinə və ümumilikdə, Azərbaycanın qəsəbə və rayonlarına aiddir. Vətəndaşlar ev tikintisi üçün kənd təsərrüfatı torpaqlarından istifadə edirlər. Bakının bütün rayonlarında, o cümlədən bütövlükdə, Abşeron rayonu ərazisində də vəziyyət belədir. İndi kənd təsərrüfatı sahələrində ev tikintisi, demək olar ki, dayanıb. Vətəndaş icra hakimiyyətlərinə, bələdiyyələrə gedir və ev tikmək üçün torpaq istəyir. Deyirlər, torpaq yoxdur. Vətəndaş gedib ayrı-ayrı şəxslərin də əmlak bazarında baha qiymətə satdığı torpaqları ala bilmir. Biz dövlət olaraq vətəndaşa nə təklif edirik? Deyirik ki, torpaq sahələri yoxdur. O məcbur olub mülkiyyətində olan torpaq sahəsində tikinti aparır. Onu da başına uçururlar. Bu, düzgündürmü? Əlbəttə, deyil. Bu, bütün qəsəbələrdə baş verir.

Kəndlər, qəsəbələr salınıb, minlərcə ev tikilib. Ortada,

evlərin əhatəsində 4-5 sot yer qalır. Orada ev tikmək istəyən sakinin üzərinə elə hücum çəkirlər ki, elə bil, erməni kəşfiyyatçısını tuturlar. Deyirlər ki, kənd təsərrüfatı üçün nəzərdə tutulub. Elə bil, o 4 sotda Azərbaycanın taxıl ehtiyacını ödəmək üçün buğda səpiləcək. Bu qədər məntiqsizlik olmaz. Vətəndaş qanunvericilik səviyyəsində o torpağın təyinatını dəyişmək imkanına malik olmalıdır. Bu isə, demək olar ki, mümkünsüzdür. Ona görə də bu cür torpaqlarla bağlı qərar qəbul olunmalıdır ki, insanlar kənd təsərrüfatı əhəmiyyətini itirmiş torpaqlarda ev tikə bilsinlər. Bununla bərabər, bütün şəhər və rayonlarda ev tikintisi üçün xüsusi yerlər ayrılmalı və infrastruktur yaradılmalıdır. Torpaq ehtiyatları yoxdursa, o zaman bütün şəhər və rayonlarda kütləvi sosial evlərin tikintisi sürətləndirilməlidir. Mənə elə bu Milli Məclisdən, ümumiyyətlə, partiyanın ofisindən, Şəfəq qəsəbəsindən, Bakının müxtəlif yerlərindən də bu məsələ ilə bağlı müraciətlər olur və əminəm ki, bütün deputatlara da olur. Onun üçün də kənd təsərrüfatı üçün nəzərdə tutulan bu cür torpaqlarda vətəndaşlara ev tikilməsi üçün şəraitin yaradılması və təyinatının dəyişdirilməsinə imkan yaradılması vacibdir. Təşəkkür edirəm, xanım sədr.

**Sədrlik edən.** Sağ olun. Siyavuş müəllim, nə isə cavab vermək istəyirsiniz? Hansısa bir təklifə?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Onu işçi qaydada eləmək olar. Yaxşı verin.

**S.Novruzov**. Təşəkkür edirəm, hörmətli xanım sədr. Bu məsələlər dəfələrlə qaldırılıb və burada deyilib. Birinci, bu bizim müzakirə elədiyimiz məsələnin mövzusu deyil. İkinci, torpağın kateqoriyası var. Əgər torpaq 5-ci kateqoriya deyilsə, digər kateqoriyalar kənd təsərrüfatı üçün,

yaxud örüş üçün olan torpaqlardır. Orada ev tikmək olmaz. Vətəndaş onun kateqoriyasını dəyişməyənə qədər orada ev tikə bilməz. Bu, qanunla qadağandır. O baxımdan, kimin olur-olsun, kimin mülkiyyətinə daxil olur-olsun, fərqi yoxdur. Sabah biz ərzaq təhlükəsizliyi ilə qarşılaşa bilərik. Bütün kənd təsərrüfatı təyinatlı torpaqlarda hərə özünə bir ev tiksə, ölkə hansı vəziyyətə gəlib düşə bilər? O baxımdan, vətəndaşlara da başa salın ki, sosial evlər də tikilir. 5-ci kateqoriyadan, yəni kənd təsərrüfatına yararsız torpaq olmasa, orada ev tikmək qadağandır. Nəinki qəbiristanlıq salmaq və ya başqa şeylər. Sağ olun.

**Sədrlik edən.** Mən həmkarlardan çox xahiş edirəm, siz qanun layihəsinin adına baxın və sonra çıxış edin. Hər məsələni bu qanun layihəsinin müzakirəsinə bağlamayın. Elə məsələlər var ki, 3 dəqiqəlik çıxışda qaldırmaq olar. Hər dəfə biz 30 dəqiqə veririk. Səsə qoyaq, deyirsiniz? Hikmət müəllim təkidlə çıxış eləmək istəyir. Buyurun.

**H.Məmmədov**. Çox sağ olun, hörmətli xanım sədr. Hər şeydən öncə, Azərbaycanda, Abşeron yarımadasında 8800 vətəndaşımızın rifahını, həyat şəraitini yaxşılaşdıracaq bir qəsəbənin salınması mühüm bir hadisədir. Ona görə də bu, alqışlanmalıdır. İkincisi, mən hörmətli Siyavuş müəllimin adla bağlı izahatını başa düşürəm. Heç bir iradım yoxdur. Amma Siyavuş müəllimin o fikri ilə razıyam ki, gələcəkdə bu adlarla bağlı biz daha diqqətli olmalıyıq. Azərbaycan Prezidenti çıxışlarının birində dedi ki, bizi Qarabağa qaytaran tarixi yaddaşımızdır. Ad tarixi yaddaşdır, Azərbaycanın böyük mütəfəkkiri, dövlət adamı, böyük yazıçısı, Azərbaycan tarixinin gözəl bilicisi Yusif Vəzir Çəmənzəminli deyirdi: “Söz tarixin açarıdır”.

Əgər biz bu gün Qərbi Azərbaycana qayıdışla bağlı Azərbaycan Prezidentinin irəli sürdüyü konsepsiya ilə

hərəkət ediriksə, qərar qəbul ediriksə ki, Qərbi azərbaycanlıların sənədlərinə, hətta Bakıda doğulan övladlarının sənədlərinə belə orada olan toponimlərimiz yazılsın, demək, bizim güvəndiyimiz məsələ xalqımızın o toponim yaradıcılığıdır, bizim dilimizdir və həyat tərzimizi, məişətimizi, qəhrəmanlarımızı özündə əks elətdirir. Ona görə bu gün də o ənənəyə sadiq qalmalıyıq. Yəni doğrudur, hidronimlər, toponimlər, etnotoponimlər, aykonimlər, oronimlər var, biz bunların hamısını bilirik, amma hər şeyi, sadəcə, hidronim kimi, məsələn, şəfəq, küləkli, günəşli, yerli, yağışlı, yəni hər şeyi hidronimləşdirsək, onda biz öz toponim yaradıcılığımızı məhdudlaşdırmış oluruq. Ona görə mən də Siyavuş müəllimin o fikri ilə razıyam ki, gələcəkdə bu şeylərlə bağlı daha diqqətli olmalıyıq. Qanun layihəsinə səs verəcəyəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Razi müəllim, əlavəniz var? Buyurun.

**R.Nurullayev.** Təşəkkür edirəm, xanım sədr. Sadəcə olaraq, Siyavuş müəllimin dediyi məsələ ilə razı deyiləm. Mən onu o şəkildə demirdim. Mən düşünürəm ki, vətəndaşlar qəsəbədə yaşadığına görə dediyim məsələ ilə bağlı ortada o məntiq var. Mənim dediyim odur ki, bu günə qədər vətəndaşlar kənd təsərrüfatı torpaqlarında evlər tikiblər və bütün Bakı, demək olar ki, bu cür evlərlə bəzənib. Bütün ərazilər, demək olar ki, zəbt olunub, bu şəkildə tikilib. Arada 3-5 sot qalıb. Əgər Siyavuş müəllim orada taxıl zəmiləri əkib, Azərbaycanın ərzaq təhlükəsizliyini təmin etmək istəyirsə, buyursun. Söhbət 3-4 sot torpaqdan gedir. Mən, əlbəttə ki, kənd təsərrüfatı torpaqlarının zəbt olunmasını istəmirəm. Amma bu, artıq həyata keçirilib, baş verib. Artıq dayandırmaq mümkün deyil. Gərək 500 min ev sökülsün. Təşəkkür edirəm.

**Sədrlik edən.** İsa Həbibbəyli. İsa müəllim, toponimlə, adla bağlı deyəcəksiniz? Xahiş edirəm, bir az qısa.

**İ.Həbibbəyli**. Burada "Şəfəq" yer adı haqqında açıq və örtülü şəkildə müəyyən fikirlər irəli sürüldü. Mən buna aydınlıq gətirmək istəyirəm. Adlar verilərkən beynəlxalq qaydaya uyğun olaraq, birinci, həmin icmanın verdiyi təklif nəzərdən keçirilir. İcmanın nümayəndələrinin – 50-60 nəfərin imzası ilə həmin qəsəbənin "Şəfəq" adlandırılması təklif edilir. İkinci, Toponimiya komissiyasının ixtiyarı var ki, buna baxarkən alternativ bir ad da müəyyənləşdirilsin. O zaman yeni toponimi öyrənmək lazım gəlir. Bir neçə yerlə əlaqə saxladım. Öyrəndim ki, həmin yerin adı toponim olaraq qurdlar otlağıdır. Qurdlar otlağı adının bu gün hər hansı bir kəndə verilməsi münasib sayılmadı. Ona görə də biz icmanın təklif elədiyi "Şəfəq" adını qəbul elədik.

Hörmətli xanım sədr, əlavə eləmək istəyirəm. Niyə fikirləşirik ki, bizdən qabaqkı dövrün şəfəqləri olub, bizim tarixi dövrlərin şəfəqləri yoxdur? Bu da həmin o qazilərin, müharibə iştirakçılarının həyatına, doğrudan da, doğan yeni bir şəfəqdir, yeni tarixi dövrün reallığını əks etdirən şəfəqdir. Mən hesab edirəm, tamamilə yerindədir.

**Sədrlik edən.** Çox sağ olun, İsa müəllim. Doğrudan da, çox gözəl addır. Adı da mübarək. İndi isə mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.39 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi qəbul edildi.

İndi isə 7-ci məsələyə keçirik. Bu məsələ "Qida təhlükəsizliyi haqqında" Qanunun icrası ilə əlaqədar bəzi qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Qeyd edim ki, layihə uyğunlaşdırma xarakteri daşıyır və ona görə də bir oxunuşda baxılıb qəbul ediləcək. Layihəyə Aqrar siyasət komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitənin sədri hörmətli Tahir Rzayevə söz verirəm. Buyurun.

**T.Rzayev,** *Milli Məclisin Aqrar siyasət komitəsinin sədri.*

Çox sağ olun, hörmətli sədr. Hörmətli sədr, hörmətli deputatlar. Təklif olunan dəyişikliklər 2023-cü il yanvarın 1-də qüvvəyə minmiş "Qida təhlükəsizliyi haqqında" Qanunun icrası ilə əlaqədardır və uyğunlaşdırma xarakteri daşıyır. 44 qanuna dəyişiklik təklif olunur. Dəyişikliklərə əsasən terminlər dəqiqləşdirilir, ərzaq malları, yemlər, yeyinti məhsulları və bu qəbildən olan bir sıra söz və ifadələr "qida", "qida məhsulu", yem məhsulu" sözləri ilə əvəz olunur.

"Yeyinti məhsulları haqqında" Qanun ləğv edildiyindən bir sıra qanunların mətnlərində istinadlar "Qida təhlükəsizliyi haqqında" Qanunda öz əksini tapacaqdır. Dəyişikliklər həm də bir sıra texniki dəyişiklikləri nəzərdə tutur. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Tahir müəllim. Hörmətli həmkarlar, bu qanun layihəsinə daha 9 komitədə baxılıb. Mən indi komitələrin sədrlərinə, ya da sədr müavinlərinə söz verəcəyəm. Xahiş edirəm, çox qısa məlumatınızı verin. Məlahət xanım, Siz Əmək və sosial siyasət komitəsinin rəyini bildirəcəksiniz. Buyurun. Məlahət İbrahimqızı.

**M.İbrahimqızı.** Çox sağ olun, hörmətli Sahibə xanım. Komitəmizdə baxıldı. Heç bir etiraz yoxdur. Qəbul olunsun.

**Sədrlik edən.** Çox sağ olun. Əli müəllim, xahiş edirəm, Siz öz komitənizin rəyini bildirin – Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin.

**Ə.Hüseynli.** Komitənin rəyi müsbətdir, xanım sədr.

**Sədrlik edən.** Çox sağ olun. İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Əli Məsimliyə söz verirəm. Buyurun.

**Ə.Məsimli.** Çox sağ olun, xanım sədr. İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin dəyişikliklərə rəyi müsbətdir.

**Sədrlik edən.** Çox sağ olun. Səhiyyə komitəsinin rəyini bildirmək üçün mən komitənin sədri hörmətli Əhliman Əmiraslanova söz verirəm. Buyurun.

**Ə.Əmiraslanov,** *Milli Məclisin Səhiyyə komitəsinin sədri.*

Hörmətli Sahibə xanım, Səhiyyə komitəsi dəyişiklikləri dəstəkləyir. Xahiş edirəm, səsə qoyasınız.

**Sədrlik edən.** Əhliman müəllim, çox sağ olun. İndi isə mən Ziyafət müəllimə üzümü tuturam. Ziyafət müəllim, sizin komitənizdə baxılıb. Buyurun, münasibət bildirin.

**Z.Əsgərov.** Çox sağ olun, hörmətli xanım sədr. Komitəmizin rəyi müsbətdir və səsə qoyulmasını xahiş edirəm. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Təbii ehtiyatlar, energetika və ekologiya komitəsində baxılıb. Sadiq müəllim, buyurun, rəyinizi bildirin.

**S.Qurbanov,** *Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri.*

Çox sağ olun, dəyərli Sahibə xanım. Komitənin rəyi müsbətdir.

**Sədrlik edən.** İnsan hüquqları komitəsində də baxılıb. Zahid müəllim, Siz komitənizin rəyini bildirin.

**Z.Oruc.** Rəy müsbətdir.

**Sədrlik edən.** Ailə, qadın və uşaq məsələləri komitəsində də baxılıb. Hicran xanım, buyurun.

**H.Hüseynova,** *Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri.*

Hörmətli xanım sədr, bizim də komitəmizdə bu məsələyə baxılıb. Əlavə rəy və təkliflər olmamışdır. Layihə baxılması üçün də Milli Məclisin müzakirəsinə tövsiyə edilib.

**Sədrlik edən.** Çox sağ olun. Mədəniyyət komitəsində də baxılıb. Mədəniyyət komitəsinin rəyini bildirmək üçün komitənin sədr müavini Ülviyyə xanım Həmzəyeva, buyurun.

**Ü.Həmzəyeva.** Hörmətli xanım sədr, hörmətli deputatlar. Sözügedən qanun layihəsinə Mədəniyyət komitəsində də baxılmışdır. Lehinə olaraq qəbul edilmişdir. Hörmətli həmkarlarımızdan səs vermələrini xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Ülviyyə xanım. Çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.44 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyin növbəti 3 məsələsi birinci oxunuşda olan qanun layihələridir. Onu da deyim ki,

növbəti 2 məsələ möhtərəm cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub və mahiyyətcə bir-birinə yaxındır. 8-ci və 9-cu məsələlərdir. 8-ci məsələ “Bələdiyyələrin birgə fəaliyyəti, birləşməsi, ayrılması və ləğv edilməsi haqqında” Qanunda, 9-cu məsələ isə “Bələdiyyələrin statusu haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihələridir. Hər iki qanun layihəsinə Regional məsələlər komitəsində baxılmışdır. Odur ki, mən təklif edirəm, Siyavuş müəllim, Siz elə bu iki layihə haqqında birgə məlumat verin. Sonra isə biz digər prosedurlara keçəcəyik. Buyurun, Siyavuş müəllim.

**S.Novruzov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən qanunvericilik təşəbbüsü qaydasında təqdim olunmuş yerli özünüidarəetmədə səmərəliliyin artırılmasını təmin etmək məqsədi daşıyan və bu gün müzakirəyə çıxarılan qanun layihələri Regional məsələlər komitəsinin iclasında geniş müzakirə edilmiş və plenar iclasa təqdim olunmuşdur. Qeyd edək ki, cənab Prezidentimiz bu qanun layihələrini vaxtında təqdim etməklə Azərbaycanda yerli özünüidarəetmə institutunun yeni mərhələdə inkişafının əsasını qoymuş oldu.

Təqdim olunan “Bələdiyyələrin birgə fəaliyyəti, birləşməsi, ayrılması və ləğv edilməsi haqqında” və “Bələdiyyələrin statusu haqqında” qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələrinə dəyişikliklər olduqca vacib, günün tələbini əks etdirən zərurətdir. Qeyd etməliyəm ki, qanun layihəsində müvafiq dəyişikliklər edilməklə ölkə üzrə sonuncu bələdiyyə seçkilərinin keçirildiyi ildən sonrakı 4 ilin son 2 ili ərzində əhalisinin sayı 3 min nəfərdən və ya ev təsərrüfatlarının sayı min vahiddən az olan bələdiyyələrin Azərbaycan Respublikası Milli Məclisinin

qərarı ilə digər bələdiyyələrlə birləşdirilməsi qeyd olunur. Bununla belə, birləşmə və ya ayrılma nəticəsində əhalisinin sayı 3000 nəfərdən və ya ev təsərrüfatlarının sayı min vahiddən az olan bələdiyyələrin yaradılmasına yol veriləcəkdir. Qeyd olunmalıdır ki, yaranan bələdiyyənin adı birləşən bələdiyyələrin arasında əhalisinin sayı ən çox olan bələdiyyənin adına uyğun müəyyən edilir.

Bələdiyyələrin birləşdirilməsi birləşən hər bir bələdiyyənin bununla bağlı rəyini Azərbaycan Respublikasının Milli Məclisinə təqdim etməsi və Milli Məclisin bununla bağlı müvafiq qərar qəbul etməsi qaydasında həyata keçirilir.

Yerli özünüidarəetmə institutunun inkişafına, bələdiyyələrin fəaliyyətinin möhkəmlənməsinə maneə yaradan çoxsaylı ciddi məsələlər, o cümlədən yeni çağırışlar uzun müddət idi ki, millət vəkillərimiz tərəfindən davamlı olaraq qaldırılır, səsləndirilir, təkliflər irəli sürülürdü. Möhtərəm Prezidentimiz tərəfindən təqdim olunan bu layihələr, deyərdim ki, millət vəkillərimiz tərəfindən davamlı irəli sürülən təkliflərin reallaşdırılmasıdır. Birləşmə bələdiyyələrin sosial-iqtisadi vəziyyətini yaxşılaşdıracaq, onların funksiyalarını icra etməsinə, müstəqil fəaliyyət göstərməsinə təkan verəcəkdir.

"Bələdiyyələrin birgə fəaliyyəti, birləşməsi, ayrılması və ləğv edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə qanun layihəsinə edilən dəyişikliklərlə əlaqədar "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsinə dəyişikliklər təklif edilir.

Hörmətli millət vəkilləri, biz burada qeyd etdik ki, əhalisinin sayı 3 mindən az olan və min evdən az olan bələ-

diyyələr də ola bilər. Bu, xüsusi nəzərdə tutulmuş, tarixi, sosial və digər məsələlərlə əlaqədar olan bələdiyyələr olacaq. Mən bir neçə misal göstərə bilərəm. Məsələn, Xınalıq bələdiyyəsi. Əgər orada 3 min əhali yaşamırsa, yaxud da min ev yoxdursa, bunun tarixi nəzərə alına bilər. Lahıc, Laza, İvanovka kəndi var ki, özünün xüsusiyyətləri var. Bunlar indi təklif qaldıra bilərlər ki, onların bələdiyyəsi birləşməyib, qalıb.

Digər hallarda isə, bilirsiniz, Azərbaycanda elə rayon var ki, məsələn, Laçın rayonunda 147 kənd var. Kəndlərin əksəriyyəti 30-70 evdən ibarətdir. Bunların hamısını birləşdirib vahid bələdiyyənin yaradılması ilə, – bizdə təxminən 1606 bələdiyyə fəaliyyət göstərir, – təxminən üçdə ikisi, demək olar, azaldılacaqdır. Bu da bələdiyyələrin sosial-iqtisadi inkişafına xeyli təkan verəcəkdir.

Eyni zamanda, bir bələdiyyənin suyu var, digərinin örüş yeri var, üçüncünün torpaq sahəsi var. Bunların birləşdirilməsi və bir yerdə olması gələcəkdə gəlirlərinin artmasına, artıq dövlətdən dotasiya, subsidiya deyil, öz vəsaitləri hesabına ictimaiyyətlə və cəmiyyətlə birlikdə fəaliyyət göstərməsinə təkan verəcək.

Üçüncü bir məsələ. Biz "Siyasi partiyalar haqqında" Qanun qəbul etmişik. Bilirsiniz ki, artıq Azərbaycanda 26 siyasi partiya fəaliyyət göstərir. Bu, həm də siyasi sistemin möhkəmlənməsinə köməklik göstərəcəkdir, siyasi partiyaların yerli strukturlarının yaranması, möhkəmlənməsi fəaliyyətinə xidmət göstərəcəkdir. Çünki siyasi partiyaların böyük əksəriyyəti bələdiyyə seçkilərində partiya şəklində iştirak edə bilməyəcək.

Bizim Seçki Məcəlləsinə uyğun olaraq, siyasi partiyalar var. Bələdiyyələrin üçdə birindən namizəd irəli sürülüb, yaxud namizəd qeydiyyatdan keçmirdisə, o, partiya şək-

lində bu prosesdə iştirak edə bilmirdi. Bizdə 15 mindən artıq namizəd irəli sürülməli idi ki, hər bir siyasi partiya bu qədər namizədi, təxminən 5 min namizədi irəli sürə bilmirdi. Bələdiyyələrin sayı azaldıqca siyasi partiyaların yerli strukturları da formalaşacaqdır ki, yerli özünüidarəetmə sistemində yaxından iştirak edəcək, öz namizədlərini irəli sürəcəklər.

Cənab Prezident tərəfindən təqdim olunan layihədə, bu qanunvericilikdə bizim həmkarlarımızın burada qaldırdıqları məsələlər hərtərəfli şəkildə öz əksini tapıbdır. Ona görə də buna səs verib dəstəkləməyinizi xahiş edirik. Kimin nə təklifi varsa, qəbul etməyə hazırıq. Təşəkkür edirəm.

**Sədrlik edən.** Siyavuş müəllim, yenə də ətraflı məlumata görə çox sağ olun. Səsə qoymaq təklifi var. Amma yazılanlar da var. Təkid edən yoxdur?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Xahiş edirəm, kim yazılıbsa, zəhmət olmasa, öz çıxışlarınızı yazılı surətdə çatdırın. Mən məsələni səsə qoyuram. Buyurun, münasibət bildirin. Xatırladım sizə, biz 8-ci məsələni səsə qoyuruq.

| **Səsvermənin nəticələri** | (saat 13.52 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

İndi isə 9-cu məsələni – "Bələdiyyələrin statusu haq-

qında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.53 dəq.) |
|---|---|
| Lehinə | 82 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 86 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu qanun layihəsi də qəbul edildi.

İndi isə 10-cu məsələyə keçirik, hörmətli həmkarlar. "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən Əli müəllimə söz verirəm. Əli müəllim, buyurun.

**Ə.Məsimli.** Çox sağ olun, hörmətli sədr. Qanun layihəsi "Kosmik fəaliyyət haqqında" 2023-cü il 24 iyun tarixli Qanunun icrası ilə əlaqədar işlənib hazırlanıb.

Məlumat üçün qeyd etmək istəyirəm ki, "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" Qanunun 6.2.1-ci maddəsində göstərilir ki, "Yerin təki, meşə fondu, su ehtiyatları, dövlət sərhəd zolaqları və üzərindəki daşınmaz əmlak, hava məkanı, Xəzər dənizinin Azərbaycana məxsus olan sektorunun suları və geostasionar orbitlərdə peyk rabitəsi vasitələrinin özəlləşdirilməsi qadağandır". Bu dəyişiklikdə "geostasionar orbitlərdə peyk rabitəsi vasitələrinin özəlləşdirilməsinin qadağan edilməsi" həmin mənim qeyd etdiyim siyahıdan çıxarılır.

Hesab edirik ki, çox vacib bir dəyişiklikdir. Bu də-

yişikliyə deputatlarımızın səs verməsini xahiş edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim. Çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsini səsə qoyacağam. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.55 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, bizim gündəliyimizdə qalan məsələlərin hamısı ikinci oxunuşda olan qanun layihələridir. İndi isə gündəliyin 11-ci məsələsinə keçirik. Bu məsələ də Mülki Prosessual Məcəllədə, Ailə Məcəlləsində və "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Ona görə də mən sözü hörmətli Əli müəllimə verirəm. Əli müəllim, buyurun.

**Ə.Hüseynli.** Çox sağ olun, hörmətli xanım sədr. Bu layihə ilə bağlı birinci oxunuşda geniş məlumat vermişdim. Bir neçə fikirlər, təkliflər olmuşdu. Sonra işçi qaydasında komitənin mövqeyini yazılı formada həmkarlarıma çatdırmışam və qarşılıqlı anlaşma formasında müzakirəmiz keçib. Layihənin olduğu kimi səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim. Hörmətli həmkarlar, bu qanun layihəsinə iki komitədə də baxılıb. Ailə, qadın və uşaq məsələləri komitəsində. Hicran xanım, Sizdən xahiş edirəm, komitənin rəyini bildirin.

**H.Hüseynova.** Hörmətli həmkarlar, qanun layihəsi komitədə müzakirə edilmişdir. Əlavə rəy və təkliflər olmamışdır. Layihəyə ikinci oxunuşda baxılması üçün Milli Məclisin müzakirəsinə tövsiyə edilmişdir. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Hicran xanım. İnsan hüquqları komitəsində baxılmışdır. Komitənin rəyini bildirmək üçün sözü Bəhruz Məhərrəmova verirəm. Buyurun, Bəhruz müəllim.

**B.Məhərrəmov,** *Milli Məclisin İnsan hüquqları komitəsinin üzvü.*

Təşəkkür edirəm. Komitə lehinədir.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, ikinci oxunuşdur. Biz qanun layihəsini əsas kimi qəbul etməliyik. Buyurun, bu qanun layihəsinə əsas kimi münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.57 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

Çıxış etmək istəyən yoxdur. Ona görə də mən səsverməyə keçəcəyəm. Hörmətli həmkarlar, indi biz qanun layihəsini maddələr üzrə qəbul etməliyik. Bu qanun

layihəsində 3 maddə var. Bir-bir səsə qoyacağam. Xahiş edirəm, 1-ci maddəyə münasibət bildirin, buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.57 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.
2-ci maddəni səsə qoyuram.

| **Səsvermənin nəticələri** | (saat 13.58 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, çox sağ olun.
İndi mən 3-cü maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.58 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.58 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Növbəti məsələyə keçirik, hörmətli həmkarlar. Bu, 12-ci məsələdir. Azərbaycan Respublikasının 1994-cü il 8 fevral 782 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Konsul Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında qanun layihəsi ikinci oxunuşda müzakirəyə təqdim edilir. Layihəyə Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsində baxılmışdır. Mən sözü komitənin sədri Səməd Seyidova verirəm. Buyurun, Səməd müəllim.

**S.Seyidov.** Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli həmkarlar, birinci oxunuşdan sonra komitəyə qanun layihəsi ilə bağlı hər hansı dəyişiklik daxil edilməmişdir. Komitə yekdilliklə bu dəyişiklikləri dəstəkləyir. Ona görə həmkarlardan müsbət rəy verməyi xahiş edirəm. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Səməd müəllim. Hörmətli həmkarlar, bu qanun layihəsini də biz əsas kimi qəbul etməliyik. Buyurun, əsas kimi münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.59 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Əsas kimi qəbul edildi.

Çıxış etmək istəyən yoxdur. İndi isə biz qanun layihəsinin səsvermə proseduruna keçirik. Maddələr üzrə səs verəcəyik. 2 maddədən ibarətdir. Xahiş edirəm, 1-ci maddəyə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 14.00 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

İndi isə, xahiş edirəm, 2-ci maddəyə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 14.00 dəq.) |
|---|---|
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 88 |
| Nəticə: Qəbul edildi | |

Bu maddə də qəbul edildi.

İndi isə, xahiş edirəm, qanun layihəsinə bütövlükdə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 14.01 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Növbəti məsələ Mülki Prosessual Məcəllədə dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən Bəhruz Məhərrəmova söz verirəm. Bəhruz müəllim, buyurun.

**B.Məhərrəmov.** Təşəkkür edirəm, hörmətli sədr. Əziz həmkarlar, birinci oxunuşda layihənin konseptual mahiyyəti barədə geniş məlumat verilib. Çox hörmətli həmkarlarımız Hicran xanım Hüseynova, Fazil Mustafa və Qüdrət müəllim Həsənquliyev layihə ilə birbaşa bağlı olan və olmayan məsələlər ətrafında təklif və tövsiyələrini səsləndirdilər. Hər üç həmkarımızla işçi qaydada məsələlərlə bağlı müzakirə aparmışıq. Anlayış və yüksək diqqətlərinə görə onlara bir daha təşəkkürümü bildirirəm. Məsələnin isə olduğu kimi səsə qoyulmasını xahiş edirik.

**Sədrlik edən.** Bəhruz müəllim, çox sağ olun. Hörmətli həmkarlar, qanun layihəsini əsas kimi qəbul etməliyik. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 14.02 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

Çıxış etmək istəyən yoxdur, səsverməyə keçəcəyik. Hörmətli həmkarlar, bu qanun layihəsi 3 maddədən ibarətdir. Mən onları bir-bir səsə qoyacağam. Buyurun, 1-ci maddəyə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 14.02 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Bu maddə qəbul edildi.

2-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 14.02 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

Bu maddə də qəbul edildi.
İndi isə mən 3-cü maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 14.03 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

Mən qanun layihəsini ikinci oxunuşda bütövlükdə səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 14.03 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Növbəti məsələmiz 14-cü məsələdir. Bu, "Su təchizatı və tullantı suları haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Təbii ehtiyatlar, energetika və ekologiya komitəsində baxılmışdır. İndi isə mən sözü komitənin sədri hörmətli Sadiq Qurbanova verirəm. Xahiş edirəm, Sadiq müəllim, məsələ ilə bağlı məlumat verin. Buyurun.

**S.Qurbanov**. Çox sağ olun, dəyərli Sahibə xanım. Bəli, "Su təchizatı və tullantı suları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsinin birinci oxunuşda müzakirəsi zamanı 9 deputat həmkarımız bu və ya digər məsələlərlə bağlı çıxış etdi. Sonra Sizin tövsiyənizə və tapşırığınıza əsasən biz Aqrar siyasət komitəsi ilə birlikdə geniş bir dinləmə keçirdik, 4 saata yaxın müzakirə aparıldı. Yalnız bu məsələ ilə bağlı deyil, su təsərrüfatında problemlər və yeni çağırışlarla bağlı ətraflı diskussiya, müzakirələr oldu və bir çox suallara aydınlıq gətirildi. Yaratdığınız şəraitə görə, deputatlarımızın su təsərrüfatı ilə bağlı suallarına cavab tapıldığına görə bir daha bu tribunadan Sizə təşəkkür edirik. Bu məsələ ilə bağlı suallara da dinləmədə cavablar tapıldı. Burada 9 deputat həmkarımızın verdiyi suallar orada bir-bir cavablandırıldı. Ona görə məsələ ikinci oxunuşa tam hazırdır. Olduğu kimi səsə qoymağınızı xahiş edirəm.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, əsas kimi qəbul etməliyik. Yadınızdan çıxarmayın ki, bu, ikinci oxunuşdur. Buyurun, qanun layihəsinə ikinci oxunuşda əsas kimi münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 14.05 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, əsas kimi qəbul edildi.

Çıxış etmək istəyən yoxdur. Ona görə səsverməyə ke-

çəcəyik. Maddələr üzrə münasibət bildirməliyik. Bu qanun layihəsi 7 maddədən ibarətdir. Mən onların dördünü bir, üçünü bir səsə qoyacağam. İndi isə 1-ci, 2-ci, 3-cü və 4-cü maddələrə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 14.06 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Bu maddələr qəbul edildi.

İndi isə 5-ci, 6-cı, 7-ci maddələrə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 14.06 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 14.06 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Növbəti məsələyə keçirik. Cinayət-Prosessual Məcəllədə dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün, Əli müəllim, mən yenə də Sizə söz verirəm. Buyurun.

**Ə.Hüseynli.** Çox sağ olun, hörmətli xanım sədr. Bu layihə ilə bağlı 1-ci maddədə texniki düzəliş edilmişdir. 2-ci maddənin keçid müddəaları isə qanunvericilik təşəbbüsü subyekti ilə razılaşdırılmaqla yeni redaksiyada verilmişdir. Xahiş edirəm, nəzərə alınsın.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim.

Hörmətli həmkarlar, qanun layihəsinə əsas kimi münasibət bildirək. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 14.07 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, əsas kimi qəbul edildi.

Çıxış etmək istəyən yoxdur. Ona görə də mən maddələr üzrə səsverməyə keçəcəyəm. Bu qanun layihəsində iki maddə var. Xahiş edirəm, 1-ci maddəyə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 14.08 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Bu maddə qəbul edildi.

İndi isə, xahiş edirəm, 2-ci maddəyə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 14.08 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Bu maddə də qəbul edildi.

İndi isə mən ikinci oxunuşda olan qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 14.09 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Bizim növbəti qanun layihəmiz İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqındadır. Bu, 16-cı məsələdir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitənin üzvü Kamal Cəfərova söz verirəm. Buyurun, Kamal müəllim.

**K.Cəfərov**, *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Hörmətli xanım sədr, layihədə dəyişiklik olmadığından səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, xahiş edirəm, bu qanun layihəsinə də əsas kimi münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 14.09 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

Çıxış etmək istəyən yoxdur. Maddələr üzrə səsverməyə keçirəm. Bu qanun layihəsi 4 maddədən ibarətdir. Mən onları iki-iki səsə qoyacağam. İndi isə, xahiş edirəm, 1-ci və 2-ci maddələrə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 14.10 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 3 |
| Bitərəf | 1 |
| Səs vermədi | 1 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun. Bu iki maddə qəbul edildi.
İndi isə 3-cü və 4-cü maddələrə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 14.10 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 2 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.
İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyuram.

| **Səsvermənin nəticələri** | (saat 14.10 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 2 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

17-ci məsələ – "Məhkəmələr və hakimlər haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi ikinci oxunuşda təqdim edilir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Mən yenə də komitənin sədri Əli Hüseynliyə söz verirəm. Əli müəllim, buyurun.

**Ə.Hüseynli.** Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli deputat həmkarlar, birinci oxunuşda biz bu məsələni çox geniş müzakirə etdik. "Məhkəmələr və hakimlər haq-

qında" Qanuna edilən dəyişikliklərin əsas mahiyyəti məhkəmələrin işinin təşkili sahəsində Ədliyyə Nazirliyinə mənsub olmuş bir çox səlahiyyətlərin Məhkəmə-Hüquq Şurasına həvalə edilməsi ilə bağlı idi. Sizlərə də təşəkkür edirəm ki, layihəni dəstəklədiniz. Eyni zamanda, məhkəmə-hüquq islahatları ilə bağlı bir sıra təklifləriniz, fikirləriniz, suallarınız olmuşdu. Mən bir hissəsini cavablandırdım.

Bir daha demək istəyirəm. Hörmətli xanım sədri və komitə sədri həmkarlarımı da məlumatlandırmışam. Aprel ayının əvvəlində biz Femida platforması çərçivəsində məhz bu islahatlarla bağlı bir müzakirənin keçirilməsini nəzərdə tuturuq. İki komitə – Hüquq siyasəti və dövlət quruculuğu və İnsan hüquqları komitələri nəzərdə tutulub. Amma bununla yanaşı, bütün siyasi partiyalar, hüquqşünaslar, eyni zamanda, bu mövzuya maraq göstərən hər bir millət vəkili də dəvətli olacaq. Əminəm ki, orada biz bütün sualların həm cavabını tapacağıq, həm də təklifləriniz dinləniləcək. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Əli müəllim. Hörmətli həmkarlar, qanun layihəsi əsas kimi səsə qoyulur. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 14.12 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, əsas kimi qəbul edildi.

Çıxış etmək istəyən yoxdur. Maddələr üzrə səsverməyə keçirik. Qanun layihəsi 2 maddədən ibarətdir. Xahiş edirəm, 1-ci maddəyə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 14.13 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Bu maddə qəbul edildi.

İndi isə 2-ci maddəni səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 14.13 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Bu maddə də qəbul edildi.

İndi isə mən qanun layihəsini ikinci oxunuşda bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 14.13 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |

İştirak edir 95
Nəticə: Qəbul edildi

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, iclasımız başa çatdı. Hamıya təşəkkür edirəm. Növbəti iclasımız martın 15-də olacaq. Sağ olun.

# EDİLMƏMİŞ ÇIXIŞLARIN MƏTNLƏRİ

**Ceyhun Məmmədov.** Bir neçə gün bundan əvvəl daha bir Azərbaycan vətəndaşı Ağdam şəhərində minaya düşərək hər iki ayağından yaralandı. Hər neçə gündən bir biz mediada bu cür məlumatların yayıldığının şahidi oluruq. Artıq bu günə kimi 400-ə yaxın Azərbaycan vətəndaşı minaya düşərək yaralanıb, onlardan 50-si mülki şəxs olmaqla 65 nəfəri həyatını itirib. Təkcə böyüyüb başa çatdığım Cəbrayıl rayonunda 22 nəfər minaya düşüb, 18 nəfər müxtəlif bədən xəsarətləri alıb, onlardan 4 nəfəri həyatını itirib.

Bəzi məlumatlara əsasən ermənilər işğaldan azad olunmuş ərazilərdə 1,5 milyon mina basdırıblar. Kifayət qədər böyük rəqəmdir. Dəfələrlə Prezident İlham Əliyevin, digər dövlət rəsmilərinin müxtəlif beynəlxalq konfrans
xarici qonaqlarla görüşlərdə məsələ qaldırmalarına
mayaraq, Ermənistan dəqiq mina xəritələrini Azərba
vermir. Zaman-zaman verilən xəritələr isə dəqiq deyil. Bu da, qeyd etdiyimiz kimi, davamlı olaraq vətəndaşlarımızın həyatlarını itirməsinə gətirib çıxarır.

Zaman-zaman bir sıra Qərb dövlətləri, beynəlxalq təşkilatlar açıq-aydın qərəz nümayiş etdirərək Azərbaycana qarşı ədalətsiz qətnamələr qəbul etməyə, bəyanatlar verməyə davam edirlər. Ancaq bu günə kimi Ermənistanın mina terrorunu dayandırması, mina xəritələrini Azərbaycana verməsi üçün heç bir ciddi addım atmırlar. Ermənistan da bundan istifadə edərək ölkəmizə qarşı mina terrorunu davam etdirir. Bu istiqamətdə mütləq ciddi addımlar atılmalıdır.

**Fatma Yıldırım.** Bu gün müstəqil Azərbaycan dövləti

cənab Prezident İlham Əliyevin liderliyi ilə şanlı tarix yazır. Ərazi bütövlüyünü və suverenliyini tam bərpa etmiş dövlətimizin başçısının uğurlu siyasəti nəticəsində Azərbaycan dünyada etibarlı tərəfdaş, güclü və qalib dövlət kimi tanınır. Respublikamızda daim insan hüquqlarının qorunması, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu diqqət mərkəzində saxlanılır. Bu istiqamətdə müxtəlif tədbirlər həyata keçirilir, hüquqi mexanizmlər mütəmadi olaraq təkmilləşdirilir.

Bu kontekstdə Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin səmərəli fəaliyyətini qeyd etmək istəyirəm. Ümumiyyətlə, ombudsmanın fəaliyyəti insanların dövlət orqanlarına müraciətlərinin vaxtında cavablandırılmasına, məlumatlılıq səviyyəsinin artırılmasına, vəzifəli şəxslər tərəfindən vətəndaşlara diqqət və qayğı ilə yanaşılmasına istiqamətlənib. Biz bunu müvəkkilin məruzə və hesabatlarında əksini tapmış faktlardan da görürük.

Yeri gəlmişkən, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin 2023-cü il üzrə məruzəsinə nəzər saldıqda təsisatın fəaliyyətinin ötən il də kifayət qədər uğurlu, səmərəli olduğu və vacib istiqamətləri əhatə etdiyi aydın olur. İlk növbədə müraciətlərə operativ və dəqiq baxılmasına məsuliyyətli yanaşma ortaya qoyulub. Bu, cənab Prezident İlham Əliyevin şəffaf cəmiyyət quruculuğu siyasətinə və "Bizim siyasətimizin mərkəzində vətəndaş amili dayanır" yanaşmasına tam uyğundur, dövlət ilə vətəndaş arasında inamın gücləndirilməsinə xidmət edir. Ötən il ərzində pozulan insan hüquqları və azadlıqlarının bərpasına ombudsman tərəfindən xüsusi diqqət göstərilməsi həm də hüquqi dövlət quruculuğuna və qanunun aliliyi prinsipinin qorunmasına mühüm töhfədir.

Ombudsmanın və təsisat əməkdaşlarının cəzaçəkmə müəssisələrinə, istintaq təcridxanalarına, müvəqqəti saxlama yerlərinə, hərbi hissələrə, təhsil və tibb, habelə sosial xidmət müəssisələrinə başçəkmələr həyata keçirmələri də hüquqların qorunması və pozulmuş hüquqların bərpası baxımından önəmlidir.

Məruzədə diqqəti cəlb edən mühüm məqamlardan biri də cəmiyyətin bütün təbəqələrindən olan insanlarla daim təmasda olmaq və onların problemlərinin həllinə təsisatın səlahiyyətləri çərçivəsində yardım göstərməkdir. Xüsusilə həssas qruplardan olan insanlar, şəhid ailələri və müharibə veteranları, o cümlədən müharibə əlilləri ilə daim təmasda olan ombudsmanın onların hüquqlarının təmin edilməsi istiqamətində zəruri tədbirlər görməsi təqdirəlayiqdir. Mən şəhid ailələrinin üzvlərinin və müharibə veteranlarının ombudsman tərəfindən şəxsən qəbul edilməsinə ayrıca diqqət yetirmək istəyirəm. Onların şikayətlərinin dinlənilməsi, problemlərinin həlli məqsədi ilə səlahiyyətli dövlət qurumlarına müraciətlər edilməsi, hesab edirəm ki, həm dövlət siyasətinə dəstək, həm də milli həmrəyliyin qorunmasına vacib töhfədir.

Eyni zamanda, ombudsmanın hərbçilərə verilən kirayə, yemək pullarının, rütbəyə görə məvaciblərin artırılması ilə bağlı təkliflərini də dəstəkləyirəm. Hərbçilərimiz bizim dövlətimizin keşiyində dayanırlar, onlara dəstəyin artırılması zəruridir.

Bunlarla yanaşı, ombudsmanın Ermənistanın hərbi cinayətləri, erməni vandalizmi ilə əlaqədar beynəlxalq ictimaiyyətə – ayrı-ayrı ölkələrin ombudsmanlarına, beynəlxalq təşkilatlara, parlamentlərə və sair müraciətləri də çox vacib əhəmiyyətə malikdir. Bu, Azərbaycanın haqlı və ədalətli mövqeyinin dünya ictimaiyyətinə çatdırılması, er-

məni yalanlarının ifşası üçün önəmli olmaqla yanaşı, işğalçı dövlətə qarşı beynəlxalq birlik tərəfindən təzyiq göstərilməsi və sanksiya tətbiq olunması üçün hüquqi əsaslar yaradır. Ombudsmanın xarici nümayəndələrlə görüşü və beynəlxalq tədbirlərdə iştirakı zamanı bu məsələləri daim diqqətdə saxlaması da faydalı və əhəmiyyətlidir.

Məruzədə insan hüquqlarının daha etibarlı və səmərəli müdafiəsi ilə bağlı təklif və tövsiyələrin öz əksini tapması təqdirəlayiqdir. Bu, həm aidiyyəti qurumların öz fəaliyyətlərini səmərəli qurmaları, həm insan hüquqlarının qorunması mexanizmlərinin təkmilləşdirilməsi, həm də hüquqi şüurun yüksəldilməsi, hüquq mədəniyyətinin inkişaf etdirilməsi üçün mühümdür.

Nəticə etibarı ilə, ombudsman Səbinə Əliyeva 2023-cü ildə də öz fəaliyyətini uğurla davam etdirib və insan hüquqlarının qorunması siyasətinə töhfələr verib.

* * *

Yerli özünüidarəetmə orqanı olan bələdiyyələr bütün dünyada yerli demokratiyanın göstəricisi hesab olunur. Yerli özünüidarəetmənin demokratik dəyərlərə əsaslanması onun səmərəli xidmət göstərən idarəetmə qurumuna çevrilməsini zəruri edən ən mühüm amildir. Bələdiyyələr yerli səviyyədəki xidmətləri səmərəli şəkildə yerinə yetirməklə yanaşı, həm də ölkə səviyyəsində demokratiyanın bərqərar olmasına böyük töhfə verir.

Seçki yolu ilə formalaşdırılan özünüidarəetmə orqanlarının əsas üstünlüyü ondadır ki, onların seçki yolu ilə dəyişdirilməsi imkanları genişdir, şəffaflığa əsaslanır, qərarların qəbulu zamanı kollegiallıq əsas götürülür, qərarların qəbulu və icrasına xalqın bilavasitə nəzarət etməsi üçün şərait yaranır.

Azərbaycanda yerli özünüidarəetmə orqanlarının yaradılması Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Belə ki, bələdiyyələrlə bağlı müddəalar öz əksini ilk dəfə 1995-ci il noyabrın 12-də qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasında tapır. 1999-cu ilin dekabrında isə ölkəmizdə ilk bələdiyyə seçkiləri keçirilib. Ölkəmizdə bələdiyyə institutunun inkişafı istiqamətində ardıcıl tədbirlər görülüb, bu sahədə mühüm qanunvericilik bazası formalaşdırılıb, bələdiyyələrin statusu, qulluğunun təşkili, maliyyəsinin əsasları və digər sahələri əhatə edən çoxsaylı qanunlar qəbul olunaraq onların səmərəli fəaliyyəti üçün dövlət tərəfindən hər cür şərait yaradılıb.

Təbii ki, ilk seçkilərdən sonra bələdiyyələrin fəaliyyətinin təkmilləşdirilməsi üçün qanunvericilikdə daim yeniliklər edilib. Əlbəttə, 1999-cu ildə yaradılmış bələdiyyələrlə müqayisədə hazırda yerli özünüidarəetmə orqanları müəyyən inkişaf yolu keçib. Onlar vətəndaşların mənafeləri naminə yerli əhəmiyyətli məsələlərin həllində iştirak edir, onların etibarını qazanmağa və cəmiyyətimizdə özünəməxsus yer tutmağa səy göstərir, fəallıqlarını artırır, öz səlahiyyətləri çərçivəsində konkret işlər görürlər.

Ötən dövr ərzində bir çox bələdiyyə yerli əhəmiyyətli məsələlərin həllində müsbət təcrübə toplayıb, fəaliyyətlərində şəffaflığa, icra orqanları və qeyri-hökumət təşkilatları ilə işgüzar əlaqələrin qurulmasına nail olub, onların cəmiyyətdə rolu artıb. Lakin ölkəmizin sürətli inkişafı, dövlət başçısının təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilən sosial islahatlar bələdiyyələrimizin də fəaliyyətinin bu inkişafa və islahatlara uyğun gücləndirilməsini, əhatə etdikləri ərazilərdə yaşayan vətəndaşların sosial sifariş və tələbatlarının tam ödənilməsini, onlara daha keyfiyyətli xidmətlərin göstərilməsini və ümumilikdə, vətəndaş-

lara daha da yaxın olmasını zəruri edir.

Bu baxımdan, müzakirəyə çıxarılan qanun layihəsi olduqca vacibdir. Çünki biz bilirik ki, bələdiyyələrin müsbət fəaliyyəti ilə yanaşı, neqativ hallar da baş verib. Xüsusilə kiçik bələdiyyələrin insanlara lazımi xidmətlər üçün geniş imkanları yoxdur.

Bələdiyyələrin işi yalnız vergi toplamaqdan ibarət olmamalıdır. Onlar səlahiyyətlərindən düzgün istifadə etməli, vətəndaşlara yüksək xidmət nümunəsi ortaya qoymalıdırlar. Müəyyən səbəblərdən kiçik bələdiyyələr bu işin öhdəsindən gələ bilmirlər. Amma elə böyük bələdiyyələrimiz var ki, fəaliyyətləri məmnunluq doğurur.

Bələdiyyələr yerlərdə müəyyən xidmət sahələri yaratmalı, torpaqdan başqa digər mülkiyyətə və əmlaka sahib olmalıdırlar. Daha doğrusu, onlar bütün bunları yaratmalıdırlar. Qanunvericilik də buna imkan verir. Belə olarsa, onların gəlirləri də xeyli artacaq, yeni iş yerləri yaranacaq, insanlar işlə təmin olunacaqlar. Bələdiyyələr təkcə topladığı vergi və dövlətin verdiyi dotasiya ilə özünü saxlamamalıdır.

Məhz bu və digər səbəblərdən bələdiyyələrin birləşdirilməsi olduqca zəruridir. Bələdiyyələr birləşdirilərsə, yerli məsələlərin həllində, o cümlədən yerli avtomobil yollarının təmirində və yenidən qurulmasında, abadlıq-quruculuq işlərində daha fəal iştirak edə bilərlər.

Bununla yanaşı, bələdiyyələrin mövcud olduğu ərazinin iqtisadi potensialının formalaşmasında iştirakı zəruridir. Xüsusilə sahibkarlığın inkişafına aid olan layihələr çərçivəsində bələdiyyələr öz ərazilərində kiçik sahibkarlıq üçün münbit şərait yarada, öz xidmət sahələrini, bələdiyyə müəssisələrini, təsərrüfat subyektlərini təşkil edə, şəxsi fəaliyyəti ilə region iqtisadiyyatının dinamik inkişafına

təkan verə bilərlər.

Bütün bunlara isə bələdiyyələrin birləşdirilməsi yolu ilə nail olmaq mümkündür. Biz beynəlxalq təcrübədə də bələdiyyələrin birləşdirilməsinin əhəmiyyətini və aparıcı ölkələrin həyatında artan rolunu görürük. Məsələn, qardaş Türkiyənin təcrübəsində bələdiyyələrin cəmiyyətdəki nüfuz və çəkisinin şahidiyik.

**Kamran Bayramov.** Fevralın 28-də Avropa Parlamenti adlanan siyasi populizm xəstəliyinə yoluxmuş faydasız bir qurum növbəti kağız parçasını qəbul edib. Təfərrüatına tam varmayacam, şərh etməyəcəm, əziyyətə dəyməz. Amma bir-iki məqama toxunacam. Kağız parçasında bu siyasi abırsızlıq yuvası həyasızcasına Azərbaycanı hücumlarda və etnik təmizləmələrdə ittiham edir. Sual yaranır ki, niyə Avropa Parlamenti erməniləri müdafiə etdiyi kimi illərlə Qərbi Azərbaycanda və Qarabağda etnik təmizləmələrə, deportasiyalara, soyqırımlara məruz qalmış azərbaycanlıların haqlarını bu günə qədər qorumayıb? Niyə bu ağır cinayətlərə hüquqi qiymət verməyib? Niyə xalqımıza məxsus tarixi, dini və mədəni irsin məhv edilməsi hallarının araşdırılmasını qətnamələrinə və hesabatlarına salmayıb? Çünki Avropanın erməni bacıları, Emmanuel xalası, Cozef nənəsi buna imkan vermir. Həm də nəzərə almalıyıq ki, Avropa Parlamenti yeni seçkilərə hazırlaşır və anti-Azərbaycan hücumları erməni diasporundan müəyyən deputatlara və partiyalara səs qazandırmaq məqsədini daşıyır.

Eyni zamanda, kağız parçasında bu islamofob və irqçilər yığını ərazimizdə Avropa İttifaqının mülki missiyasının yerləşdirilməsinə çağırır. Bu çağırışdan daha bir qənaətə gəlmək olar: Avropa Parlamenti, deyəsən, Azərbaycanı Ermənistanla səhv salıb. Bu qurum çətin də olsa, dərk

etməlidir ki, Ermənistandan fərqli olaraq Azərbaycan kimlərinsə maraqlarına görə, maddi nemətlərə görə, şübhəli vədlərə və imtiyazlara görə öz müstəqilliyini, ərazi bütövlüyünü, suverenliyini və şərəfini heç bir halda qurban verməz!

Həqiqət ondadır ki, Avropa Parlamenti regionumuzda nə sülhün, nə təhlükəsizliyin, nə də sabitliyin bərqərar olunmasını istəmir. Məqsəd isə bəzi Avropa dairələrinin regionda mövcudluğunu artırmaq, mövqelərini gücləndirmək, digər regional oyunçuların maraqlarına xələl gətirməkdir. Gəlin, razılaşaq ki, Avropa Parlamenti populizm, ikiüzlülük və riyakarlıq xəstəliklərindən heç vaxt sağalmayacaq. Ona görə də bu məsələni ürəyimizə çox salmayaq. Aydındır ki, zəfərlərimiz, uğurlarımız və artan nüfuzumuz onları əməlli narahat edir, içlərini yandırır, gecələr yatmağa belə imkan vermir. Əgər Avropa Parlamenti ölkəmizə qarşı qərəzini, nifrətini və aqressivliyini davamlı şəkildə nümayiş etdirirsə, deməli, biz düz yoldayıq. Nə qədər ki biz düz yoldayıq, qoy, o qədər də onlar kağızlarını israf etsinlər, qatlayıb arxivlərinə qoysunlar, onsuz da, həmin kağızların bizə nə istisi var, nə də soyuğu.

**Könül Nurullayeva.** Ombudsmanın illik hesabatı ilə tanış olduqda görürük ki, hesabat dövründə təşkilat, doğrudan da, səmərəli fəaliyyət göstərmiş, vətəndaşların pozulmuş hüquqlarının müdafiə edilməsində çox operativ işləmiş, vətəndaş məmnunluğu təmin edilmişdir. Görülmüş işlərin nəticəsidir ki, ombudsman vətəndaşlarımızın etibarını qazanmışdır.

Ölkəmizdə insan hüquq və azadlıqlarının təmin olunması dövlətin ali məqsədi, dövlət siyasətinin əsas prioritet istiqamətlərindən biridir. Bu baxımdan insan hüquqları üzrə müvəkkilin illik məruzəsi də Azərbaycan vətəndaş-

larının hüquq və azadlıqlarının qorunması, şərəf və ləyaqətinin təminatı, informasiya əldə etmək və digər fundamental hüquqları sahəsində ombudsman təsisatı tərəfindən görülən işləri özündə əks etdirib.

İnsan hüquqları üzrə müvəkkilin 2023-cü il üzrə məruzəsi Azərbaycan Respublikasının Konstitusiyasına uyğun olaraq, Azərbaycanda insan hüquq və azadlıqlarının durumunun müəyyənləşdirilməsi, eyni zamanda, mövcud problemlərin qiymətləndirilməsi baxımından əhəmiyyətlidir. Məruzədə qeyd olunur ki, ötən dövrdə ombudsmanın ünvanına, ümumilikdə, 29411 müraciət daxil olub. Bu müraciətlərə müəyyən edilmiş qaydada baxılmış, paytaxtda və bölgələrdə insan hüquqlarının təmini vəziyyətinin monitorinqi aparılmış, aşkar edilmiş problemlərin yaranma səbəbləri təhlil edilmiş, onların həlli istiqamətində aidiyyəti qurumlara təklif və tövsiyələr verilmiş, bir çox hallarda nöqsan və çətinliklərin aradan qaldırılmasına, pozulmuş hüquqların bərpasına nail olunmuşdur.

Bir məsələni vurğulayım ki, qeyd olunan rəqəmin özü də bir göstəricidir. Müraciətlərin sayının çox olması ombudsman institutuna etimadın, inamın olduğunu göstərir. Əks halda insanlar ombudsman institutuna bu qədər müraciət etməzdilər. Göründüyü kimi, Azərbaycanda ötən illər ərzində ombudsman təsisatı çox ciddi bir dövlət qurumuna çevrilib. İnsanlar ona inanmağa başlayıblar.

Ombudsmanın fəaliyyəti həyatın bütün sahələrini əhatə edir. Ancaq hələ də bəzi sahələrdə problemlər qalmaqdadır. Ombudsmanın ünvanına daxil olan şikayət ərizələrindən də məlum olur ki, əslində, əlilliyi olan şəxslərin hüquqlarının müdafiəsində hələ də problemlər qalmaqdadır. Belə ki, vətəndaşlara göndərişlərin natamam doldurulması, əlavə müalicəyə ehtiyac olunması kimi şablon ca-

vablar verilməkdədir. Nəticədə isə əlillik dərəcəsinin qiymətləndirilməsindən imtina edilir. Bu da bir çox insanların hüquqlarının pozulmasına gətirib çıxarır. Yalnız ombudsmanın müdaxiləsindən sonra bu cür insanların problemləri qismən həll edilmiş olur.

Məruzədə yer alan insan haqları sahəsində Milli Fəaliyyət Proqramının hazırlanıb qəbul edilməsi, borclu dövlət orqanlarına münasibətdə məhkəmə qərarlarının icrası mexanizminin işlənib hazırlanması, məişət zorakılığı ilə bağlı qanunvericilikdə cinayət məsuliyyətinin təsbit edilməsi, həmçinin bu cinayəti törədən şəxslərə müəyyən məhdudiyyətlərin nəzərdə tutulması və digər məsələlərlə bağlı dəyərli təkliflər vardır.

Xüsusilə də bu gün üçün çox aktual olan və müasir dövrün bəlası sayılan uşaqlara münasibətdə kiberbulinqlə bağlı internet platformalarının təhlükəsizliyinin artırılması, uşaqlara və valideynlərə internet şəbəkəsində təhlükəsiz, adekvat və zərərsiz davranışın təbliği və təşviq edilməsi, qeyd olunan sahədə aidiyyəti qurumlarla birgə layihələrin hazırlanması və icrası ilə bağlı qeyd olunan təkliflər çox əhəmiyyətlidir.

Məruzədə həmçinin sərnişin sıxlığının, yerüstü nəqliyyatın yükünün və tıxacların nisbətən azaldılması məqsədi ilə Bakı şəhərində mövcud ictimai nəqliyyat növləri arasında səmərəli əlaqələndirmənin təmin edilməsi ilə bağlı təkliflər nəzərdə tutulmuşdur.

Mən Ombudsman Aparatının fəaliyyətini yüksək qiymətləndirir, hesabatı qənaətbəxş hesab edirəm.

**Malik Həsənov.** Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) 2023-cü ildə ölkədə insan hüquqlarının qorunması haqqında məruzəsi geniş tərtib olunmuş və bu gün uğurlu formada təqdim

olundu. Üç fəsildən ibarət məlumat, demək olar ki, insan hüquqlarının qorunmasına dair bütün istiqamətləri əhatə edən məlumatları əks etdirir.

Ombudsman təsisatı digər təsisatlarla müqayisədə gənc təsisatlardan hesab oluna bilər. Təsis olunduğu dövrdən günümüzədək bu qurumun fəaliyyət istiqamətlərinin genişləndirilməsi baxımından xeyli işlər görülmüş, səmərəli qanunvericilik bazası formalaşdırılmışdır.

Bildiyimiz kimi, Vətən müharibəsi və bir günlük lokal antiterror əməliyyatlarından sonra torpaqlarımızın azad olunması kimi tarixi hadisə həm də imkan vermişdir ki, erməni vəhşiliyinin qurbanları haqqında faktoloji materiallar əldə edək. Bu gün işğaldan azad edilmiş ərazilərimizin əksəriyyətində yeni kütləvi məzarlıqlar, amansızcasına qətlə yetirilmiş soydaşlarımızın qalıqları üzə çıxarılır. Üzə çıxarılmış hər bir fakt dünyada analoqu olmayan bəşəri cinayətlərin danılmaz maddi sübutlarıdır. Hesab edirəm ki, itkin düşmüş hesab edilən və bu günə kimi onların sonrakı taleyi barədə erməni tərəfinin heç bir məlumat vermədiyi ən sonuncu soydaşımızın nəşi tapılmayana kimi belə kütləvi məzarlıqlar aşkarlanacaq. Necə ki beynəlxalq qurumlar verdikləri qərarların icrasını təmin edə bilmədilər, torpaqlarımızı öz gücümüzə azad etdik, minalardan torpaqlarımızı özümüz təmizləyirik, əminəm, itkin düşmüş soydaşlarımızın da taleyinə azad olunmuş torpaqlarımızda apardığımız axtarışlar vasitəsi ilə aydınlıq gətirə biləcəyik.

Bu məsələyə toxunmağım səbəbsiz deyildir. Erməni vandalizminin dünyaya tanıdılmasında ombudsman və onun aparatının da üzərinə böyük məsuliyyət düşür. Doğrudur, bu istiqamətdə xeyli iş görülmüş, müəyyən nailiyyətlər əldə edilmişdir. Bununla yanaşı, hesab edirəm ki, bu fəaliyyət digər qurumlarla koordinə edilməklə daha da

genişləndirilməlidir. Bu faktlardan bu gün həmin cinayət, soyqırımı iştirakçısı və bilavasitə ona rəhbərlik etmiş hərbi canilərin məhkəməsində sübutedici faktlar kimi istifadə vacibdir. Bu şəxslərə münasibətdə də yenə dövlətimiz insanlıq prinsiplərinə dayanır, beynəlxalq hüquqa əsasən davranış ortaya qoyur. Məhz bunun təzahür formalarından biri də ombudsmanın dəfələrlə ölkəmizdə saxlanılan terrorçulara baş çəkməsi, onların saxlanma şəraiti və müdafiələrinin təşkili məsələləri ilə ciddi məşğul olmasıdır.

Bu gün Ombudsman Aparatının üzərinə düşən vəzifələrdən biri də Ermənistanda saxlanılan əsirlərimizin haqlı mövqelərinin dünyaya çatdırılması və onların qaytarılmasına töhfələrin verilməsi ilə bağlıdır. Məruzədə də qeyd olunur ki, əvvəlki və məhz hesabat dövrü ərzində qurum beynəlxalq əlaqələrini genişləndirmişdir. Hesab edirəm ki, bu imkanları yuxarıda toxunduğum məsələlərin həllinə ciddi şəkildə yönəltməliyik.

Təqdim edilən məruzənin bütün bölmələri üzrə əks olunmuş informasiyanı ümumiləşdirsək və müqayisə etsək, görərik ki, bütün istiqamətlər üzrə əvvəlki dövrlərə nəzərən artan dinamika müşahidə edilir. Bu da ölkəmizdə demokratikləşmə prosesinin hər ötən gün dərinləşməsinin və dövlət başçısı möhtərəm cənab Prezidentimizin iradəsinin təzahürlərindən biridir.

Məruzədən görürük ki, ayrı-ayrı hüquqpozmalar və problemlər fonunda həll edilən məsələlərin və bərpa olunan haqsızlıqların sayı artır, hüquqazidd əməllərin statistikasında isə azalma gedir. Şəxsən mənim özüm üçün məruzənin hesabat hissəsindən daha çox onun tövsiyələr və təkliflər bölümündə qaldırılan məsələlər daha önəmli oldu. Çünki bu təklif və tövsiyələr bu işlə birbaşa məşğul olan qurumdan gəldiyindən real mənzərəni əks etdirir. Eyni

zamanda, fəaliyyətdə səmərəliliyin artırılması yollarını özündə əks etdirməklə gələcəkdə daha uğurlu fəaliyyətin qurulmasına yardımçı olacaqdır. Çünki bu təkliflər və boşluqlar konkret iş prosesi zamanı yaranan və onların həlli yollarının düşünülməsi zamanı ortaya çıxanlardır.

**Soltan Məmmədov.** Narkoloji müalicə müəssisələrində aşkar edilən problemlər, həqiqətən, diqqət yetirilməli məsələlərdən biridir. Bu sahədə özəl müəssisələr də xidmət göstərir. Lakin onların fəaliyyətinin səmərəliliyinə, qanunauyğunluğuna, həyata keçirilən müalicəyə və reabilitasiya prosedurlarının səmərəliliyinə ciddi nəzarət olunmalıdır. Hesab edirəm ki, bu məsələyə xüsusi diqqət yetirilməlidir. Çünki bəzi hallarda narkotik asılılığından əziyyət çəkən şəxslərin özəl reabilitasiya mərkəzlərində aldığı xidmətlərin keyfiyyəti ilə bağlı suallar meydana çıxır. “Narkoloji xidmət və nəzarət haqqında” Qanunun tələblərinə nə dərəcədə riayət olunmasını müəyyən etmək üçün bu müəssisələrdə monitorinqlərin keçirilməsinə ehtiyac var. Həmin qanunda göstərilir ki, dövlət narkoloji tibb müəssisələri istisna olmaqla narkoloji yardım sahəsində fəaliyyət göstərən hər hansı hüquqi şəxs bu fəaliyyəti yalnız Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən verilmiş xüsusi razılıq əsasında həyata keçirir. Qanunun bu tələbinə nə dərəcədə riayət olunur? Bəzi hallarda bu cür xidmətləri göstərən özəl müəssisələrdə qeyri-peşəkar yanaşma faktlarına dair şikayətlər olur. Düşünürəm ki, bu sahədə mövcud hüquqi bazanın daha da təkmilləşdirilməsinə, eyni zamanda, nəzarət mexanizmlərinin gücləndirilməsinə ehtiyac var.

Ombudsman məruzəsində qeydiyyatsız yaşayış evlərinin və torpaq sahələrinin sənədləşdirilməsi və bu insanların qeydiyyat məsələsi kimi önəmli problemləri qabar-

dıb. Ümid edirəm ki, qeyd olunan məsələlərin həlli müvafiq dövlət qurumları ilə müzakirə olunub. Bir neçə il öncə Azərbaycan Prezidentinin Bəzi tikinti obyektlərinin istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında Fərmanı əsasında qeyri-yaşayış obyektlərinin qeydiyyata alınması ilə bağlı müsbət təcrübə göstərdi ki, bu problemlərin həlli mümkündür.

Hesab edirəm ki, vətəndaşların bir çoxunu narahat edən bu problemin həlli ilə bağlı mexanizmlərin hazırlanmasına çox böyük ehtiyac var. Burada müxtəlif variantlar təklif etmək mümkündür. Müvafiq dövlət qurumları, əlbəttə, daha sadə, eyni zamanda, qanunvericiliyə uyğun mexanizmlər təklif edə bilər.

# MÜNDƏRİCAT

5 mart 2024-cü il ................................................................ 3
Edilməmiş çıxışların mətnləri............................................ 126

Altıncı çağırış

AZƏRBAYCAN RESPUBLİKASI
MİLLİ MƏCLİSİ İCLASLARININ

PROTOKOLLARI
VƏ
STENOQRAMLARI

On beşinci sessiya
Yaz

63-cü cild

5 mart 2024-cü il

Buraxılışına məsul
***H. Babayev***

---

Azərbaycan Respublikasi Milli Məclisinin mətbəəsi.
Bakı, Azad Mirzəyev küçəsi, 235.
Format 60x84 1/16. Çap vərəqi 9,0. Sifariş 53. Tiraj 150.